RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 24 (10044) 7 fevral 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## İNAM



Xalqın inam və dəstəyinə arxalanan cənab İlham Əliyev birinci dəfə dövlət başçısı seçilərkən verdiyi bütün vədlərə şərəflə əməl etdi:

* Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları uğurla həyata keçirildi.

* Ölkə üzrə elektrik enerjisinin verilişindəki fasilələr aradan qaldırıldı.

* Əhalinin təbii qazla təminatı əsaslı şəkildə yüksəldilərək doxsan faiz həddini aşdı.

* Müasirtipli yaşayış kompleksləri yaradılaraq məcburi köçkünlərin həyat şəraiti əsaslı şəkildə yaxşılaşdırıldı.

* İşsizlik və yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə aşağı salındı.

* Ölkədə sahibkarlığın inkişafına münbit şərait yaradıldı.

* Yeni yollar şəbəkəsi quruldu.

* "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri fəaliyyətə başladı, Bakı beynəlxalq logistika mərkəzinə çevrildi.

* Azərbaycanın strateji tərəfdaşlarının və onun maraqlarını müdafiə edənlərin sayı xeyli çoxaldı.

* Hücum diplomatiyası tətbiq edilərək beynəlxalq təşkilatlarda iş gücləndirildi.

* Cənab İlham Əliyevin BMT-nin Təhlükəsizlik Şurasının iclaslarına, habelə İqtisadi Əməkdaşlıq Təşkilatına, İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına rəhbərliyi dövründə atdığı uğurlu addımlar Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi, dostlarının sayını artırdı.

* Yeni gənc nəsil yetişdirərək onların iştirakı ilə müasir, ən yeni silahlarla təchiz edilmiş ordu quruldu.

* Tarixinin ən qüdrətli Azərbaycanının yaradılmasına nail olundu.

* İlham Əliyev "Bir qarış torpağımızı belə kimsəyə güzəşt etməyəcəyik", "Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyik" və "Nəyin bahasına olursa-olsun, işğal altındakı torpaqlarımızı azad edəcəyik", - deyə verdiyi vədləri də uğurla yerinə yetirdi.

İlham Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də xalqın milli birliyinin yaradılmasıdır!

Məhz bu birlik 44 günlük Zəfər müharibəsində möhtəşəm qələbənin qazanılmasının təminatçılarından birinə çevrildi.

27 sentyabr 2020-ci ildə Azərbaycan Ordusunun əks-hücumu ilə başlanan Vətən müharibəsi xalqımızın və dövlətimizin möhtəşəm qələbələri ilə başa çatdı!

Bəli, məhz qələbələri!

8 noyabr 2020-ci ildə Şuşanın yalın əllə düşmən işğalından azad olunması və bunun nəticəsində Ermənistanın kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalaması ərazilərimizin işğalına son qoyulması ilə nəticələndi!

Erməni havadarlarının xahiş-minnətinə rəğmən düşmənin yalnız öz qoşunlarının ərazilərimizi tərketmə qrafikini təqdim etməsindən sonra Azərbaycan hərbi əməliyyatlarını dayandırdı!

Ağdam, Laçın və Kəlbəcər kimi mürəkkəb relyefə malik və altıqat müdafiə qurğuları qurulmuş ərazilərin bir güllə atılmadan geriyə qaytarılması canlı qüvvə itkisinin qarşısını əhəmiyyətli şəkildə almış oldu!

5

## Azərbaycan bölgədə yaranmış gərginliyin aradan qaldırılması üçün öz dəstəyini göstərməyə hazırdır

### Prezident İlham Əliyev İranın müdafiə və silahlı qüvvələrə dəstək nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 6-da İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əziz Nəsirzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bir neçə gün əvvəl İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianla telefon danışığını xatırladaraq, yüksək səviyyələrdə müxtəlif təmasların ikitərəfli gündəliyimizlə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaratdığını dedi.

Məsud Pezeşkianın ötən il Azərbaycana rəsmi səfərinin uğurlu keçdiyini və yaxşı nəticələrin əldə olunduğunu vurğulayan Prezident İlham Əliyev bu səfərdən sonra əlaqələrimizin inkişaf etdiyini bildirdi.

Dövlətimizin başçısı hazırda dünyanın bir çox yerində müharibə və münaqişələrin davam etdiyini vurğulayaraq, Azərbaycanın təşəbbüsü ilə Cənubi Qafqazda artıq sülhün bərqərar olduğunu dedi, bunun həm Azərbaycan, həm də Ermənistanla həmsərhəd olan İran üçün böyük əhəmiyyət daşıdığına əminliyini bildirdi. "Biz istəyirik ki, bütün dünyada sülh olsun, qan tökülməsin, müharibələr olmasın" deyən Azərbaycan Prezidenti ölkəmizin timsalında müharibədən sülhə keçid modelinin nümayiş olunduğunu vurğuladı.

Dövlətimizin başçısı bildirdi ki, İran Prezidenti ilə telefon danışığı zamanı qeyd etdiyi kimi Azərbaycan bölgədə yaranmış vəziyyətdən narahatdır və bu gərginliyin aradan qaldırılması üçün öz dəstəyini göstərməyə hazırdır.

Qəbula görə minnətdarlığını bildirən Əziz Nəsirzadə ilk növbədə İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəmizə İranın dövlət başçısının göstərişi ilə səfərə gəldiyini deyən qonaq Məsud Pezeşkianın Azərbaycana böyük təəssübkeşlik nümayiş etdirdiyini vurğuladı. O, həmçinin qeyd etdi ki, İran Prezidenti ölkəmizə, o cümlədən Xankəndiyə səfərlərini böyük məmnunluq hissi ilə xatırlayır.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını İran dövlətinin başçısına çatdırmağı xahiş etdi.

Söhbət zamanı ölkələrimiz arasında dostluq, qardaşlıq və mehriban qonşuluq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərimizin inkişafı qeyd olundu, müdafiə sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## Dünyanın qəbul etdiyi yeni reallıqlar və sülh prosesi



Prezident İlham Əliyev "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində çıxışını çox mühüm bir mesajla bitirdi: "Əbu-Dabidə keçirilən bu mükafatlandırma mərasimi ilə bağlı qeyd edəcəyim son məqam odur ki, bu mərasim rəmzi məna daşıyır. Çünki Ermənistan ilə Azərbaycan arasında sonuncu danışıqlar raundu ötən ilin iyul ayında, tarixi Vaşinqton Sammitindən cəmi bir ay əvvəl məhz burada baş tutmuşdur. Əziz qardaşımız Şeyx Məhəmmədin dəstəyi ilə sülhün bərqərar olunması üçün son razılığa burada gəldik və həmin razılıq daha sonra Vaşinqtonda rəsmiləşdirilmişdir. Bugünkü simvolizm havada hiss olunur".

Prezident İlham Əliyev beynəlxalq ictimaiyyətə sülh uğrunda mübarizə aparılmalı olduğu fikrini açıq şəkildə çatdırdı. Sülhdə qələbə döyüş meydanındakı qələbədən heç də asan deyil. Azərbaycan bunu təcrübədən öyrəndi, çünki qərəzli xarici qüvvələr dəfələrlə Bakının sülh səylərini pozmağa cəhd etdilər və bəziləri hələ də cəhd göstərirlər. Lakin Azərbaycanın üçüncü ölkələrə zərər vermədən milli maraqların qorunmasına və beynəlxalq hüququn bütün norma və prinsiplərinə ciddi şəkildə riayət olunmasına əsaslanan ardıcıl xarici siyasəti rəqiblərinin məqsədlərinə çatmasının qarşısını aldı. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, tarixi ədalət qalib gəldi.

11

## Yeni tariximizin qürur səhifəsi

Beynəlxalq sülh platformasında Azərbaycanın rolu durmadan artır. Prezident İlham Əliyev dünyaya sübut edir ki, sülh, əməkdaşlıq, qarşılıqlı sağlam münasibətlər sözlə, çağırış və bəyanatlarla deyil, əməli fəaliyyətlə, siyasi iradə və düşünülmüş diplomatik gedişlərlə, prinsipial mövqe, sağlam düşüncə və bəşəri ideyalarla həyata keçirilir. Dövlətimizin başçısının bu siyasəti milli təhlükəsizliyimizi möhkəmləndirmişdir. Həyata keçirilən mühüm layihələr, şəhər və kəndlərimizdə, xüsusilə işğaldan azad olunmuş ərazilərdə görülən tikinti, abadlıq, quruculuq işləri iqtisadi inkişafımıza yeni təkan vermişdir.

Prezidentin sülh, tolerantlıq, insanlığa, bəşəri dəyərlərə sədaqət nümunəsi bu il özünü bir daha təsdiqlədi. BƏƏ-nin təsis etdiyi "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qalibi olan cənab İlham Əliyev Davosda çox böyük hörmət və ehtiramla qarşılandı. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurasına Azərbaycanın təsisçi üzv qismində seçilməsi isə xalqımıza və dövlətimizə göstərilən ehtiramın növbəti ifadəsidir. Bu, Azərbaycan dövlətinin qüdrətini bir daha dünyaya nümayiş etdirdi və dövlətimizin başçısının nəinki Cənubi Qafqazda, bütün dünyada sülhə, əməkdaşlığa, birgəyaşayışa böyük önəm verdiyini təsdiqlədi.

6

## Heydər Əliyev ideyaları və Prezident İlham Əliyevin uğurlu siyasəti ilə yüksələn Naxçıvan



Naxçıvanın sürətli və məqsədyönlü inkişafı Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətinin, qətiyyətli liderliyinin və xalqına olan dərin sevgisinin nəticəsidir. O, yalnız Naxçıvanı ağır vəziyyətdən xilas etmədi, eyni zamanda gələcək inkişaf üçün möhkəm təməl yaratdı. Bu gün Naxçıvanın əldə etdiyi uğurların əsasında məhz həmin dövrdə formalaşan strateji inkişaf xətti dayanır. Ölkəmizə rəhbərliyinin ilk dövründə müşahidə edilən canlanma və inkişaf, yenidən hakimiyyətə qayıdışından sonra baş verən sürətli pozitiv dəyişikliklər, 2003-cü ildən sonrakı dövrdə formalaşan iqtisadi yüksəlişin müasir mənzərəsi belə deməyə əsas verir ki, Naxçıvanın inkişafı Ümummilli Lider Heydər Əliyevin və Ulu Öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin misilsiz xidmətləri ilə bağlıdır.

12

## Kilsənin və müxaliflərin ideoloji məğlubiyyəti



Zatulinkimilər unudurlar ki, Birləşmiş Millətlər Təşkilatı və bütün dünya birliyi Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıyır. Bu səbəbdən, Azərbaycanın öz ərazisində qanunsuz silahlı birləşmələr yaradan və separatçılıq fəaliyyəti göstərən şəxsləri mühakimə etməsi dövlətimizin legitim hüququdur. Beynəlxalq hüquqa görə, cinayət törədilən yerin qanunları əsas götürülür. Separatçı ünsürlər hansı ölkənin pasportunu daşımasından asılı olmayaraq, Azərbaycan qanunları qarşısında cavabdehlik daşıyırlar. Həmçinin ittihamlar, sadəcə, separatçılıqla bağlı deyildi, bu şəxslər dinc əhaliyə qarşı törədilmiş terror aktlarında, yaşayış məntəqələrinin bombalanmasında, Xocalı soyqırımında birbaşa iştirak ediblər, yaxud əmrlər veriblər.

14

# V.Z.Nəsirlinin Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri təyin edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Vüsal Zakir oğlu Nəsirli Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 fevral 2026-cı il*

# S.Ə.Məmmədovun Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Saleh Ərşad oğlu Məmmədov Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 fevral 2026-cı il*

# Azərbaycan Respublikasının Axar-Baxar və İlisu milli parkları haqqında əsasnamələrin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun 21-ci maddəsinin beşinci hissəsinə uyğun olaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Axar-Baxar Milli Parkı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikasının İlisu Milli Parkı haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 fevral 2026-cı il*

*Fərmanıın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# "Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının Azərbaycan Respublikasının ərazisində tətbiqi Qaydaları"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 38** **Bakı şəhəri, 5 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Beynəlxalq, regional, dövlətlərarası və xarici dövlətlərin standartlarının Azərbaycan Respublikasının ərazisində tətbiqi Qaydaları" təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Prezidentinin "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "İnvestisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər, Azərbaycan Respublikası Prezidentinin "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2016-cı il 20 aprel tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanının ləğv edilməsi barədə" 2022-ci il 20 dekabr tarixli 1913 nömrəli və "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri"nin təsdiq edilməsi haqqında" 2024-cü il 1 fevral tarixli 2462 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 18 yanvar tarixli 745 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 67 (Cild I); 2025, № 6, maddə 540) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"nın 3-1.1-ci bəndində "isə 3 (üç)" sözləri "3 (üç) milyon manat, sənaye məhəllələrinin rezidentləri tərəfindən həyata keçirilən istehsal layihələrinə münasibətdə isə 1 (bir)" sözləri ilə əvəz edilsin.

2. "İnvestisiya təşviqi mexanizminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər, Azərbaycan Respublikası Prezidentinin "İnvestisiyaların təşviqi ilə bağlı əlavə tədbirlər haqqında" 2016-cı il 18 yanvar tarixli 745 nömrəli, "İnvestisiya təşviqi sənədini almış hüquqi şəxslərə və fərdi sahibkarlara texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2016-cı il 19 yanvar tarixli 107-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 797 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə" 2016-cı il 20 aprel tarixli 877 nömrəli fərmanlarında dəyişiklik edilməsi və "İnvestisiyanın həyata keçirildiyi iqtisadi fəaliyyət sahələri, investisiya layihəsinin həcmi ilə bağlı minimal məbləğ və həyata keçiriləcəyi inzibati ərazi vahidləri"nin təsdiq edilməsi haqqında" 2016-cı il 20 aprel tarixli 878 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 20 dekabr tarixli 1913 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 12, maddə 1423 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.1-ci bənd üzrə:

2.1.1. 2.1.3-cü yarımbəndin sonunda nöqtəli vergül işarəsi nöqtə işarəsi ilə əvəz edilsin;

2.1.2. 2.1.4-cü yarımbənd ləğv edilsin;

2.2. aşağıdakı məzmunda 2.1-1-ci bənd əlavə edilsin:

"2.1-1. Azərbaycan Respublikası Prezidentinin müəyyən etdiyi istiqamətlər üzrə həyata keçirilən strateji investisiya layihələrini təqdim edən hüquqi şəxslərə və fərdi sahibkarlara investisiya təşviqi sənədi 2023-cü il yanvarın 1-dən 6 il ərzində verilir.".

3.Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 1 fevral tarixli 2462 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 2, maddə 143 (Cild I) ilə təsdiq edilmiş "İnvestisiya təşviqi sənədinin verilməsi nəzərdə tutulan strateji investisiya layihələrinin istiqamətləri" yeni redaksiyada verilsin (əlavə olunur).

4. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 fevral 2026-cı il*

*Fərmanıın əlavəsi ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 39** **Bakı şəhəri, 6 fevral 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 30 dekabr tarixli 416 nömrəli və 2026-cı il 12 yanvar tarixli 9 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. "QRUP 02"yə aid "Əlavə qeydlər" üzrə:

1.1.1. 2-ci hissə üzrə:

1.(C) bəndində "0206 49 200 0" rəqəmləri "0206 49 000 0" rəqəmləri ilə əvəz edilsin;

2.(Ç) bəndində "0209 00 110 0" rəqəmləri"0209 10 110 0" rəqəmləri ilə,"0209 00 190 0" rəqəmləri "0209 10 190 0" rəqəmləri ilə əvəz edilsin;

1.1.2. 4-cü hissə üzrə:

1.(c)bəndindən "0207 54 210 0" rəqəmləri (ikinci halda) çıxarılsın;

2. (ç) bəndindən"0207 54 210 0" rəqəmləri (ikinci halda) çıxarılsın və həmin bənddə "cəmdələrin yarısılarının" sözləri "cəmdəklərin yarısının" sözləri ilə əvəz edilsin;

1.2. "QRUP 03" üzrə:

1.2.1. 0303 59 900 0 alt yarımmövqeyinə aid sətirdən sonrakı sətrin ikinci sütununda "303 91" rəqəmləri "0303 91" rəqəmləri ilə əvəz edilsin;

1.2.2. 0307 88 900 0 alt yarımmövqeyinə aid sətirdən sonrakı sətrin ikinci sütununda "- qida üçün yararlı olan narın və qaba üyüdülmüş un və qranullar da daxil olmaqla, digərləri:" sözləri "- digərləri:" sözü ilə əvəz edilsin;

1.3. "QRUP 04" üzrə:

1.3.1. "Qeydlər"in 3-cü hissəsinin (a) bəndində "emulqatorlar" sözü "əlavə edilmiş emulqatorlar" sözləri ilə əvəz edilsin;

1.3.2. 0406 30 310 0 alt yarımmövqeyinə aid sətirdən əvvəlki sətrin ikinci sütunu aşağıdakı redaksiyada verilsin:

"- - - tərkibində piyin miqdarı 36 kütlə %-dən çox olmayan və quru maddədə onun miqdarı:";

1.4. 0505 mal mövqeyinə aid sətrin ikinci sütununda "lələklərin və onların hissələrinin" sözləri "lələklərin və ya onların hissələrinin" sözləri ilə əvəz edilsin;

1.5. "QRUP 06"ya aid "Qeydlər"in 2-ci hissəsində "0603 və 0604" sözləri "0603 və ya 0604" sözləri ilə əvəz edilsin;

1.6. "QRUP 08" üzrə:

1.6.1. "Qeydlər"in 4-cü hissəsinə "məsələn," sözündən sonra "qaz halında" sözləri əlavə edilsin;

1.6.2. "Əlavə qeydlər"in 2-ci hissəsində "0811 90 850" rəqəmləri "0811 90 850 0" rəqəmləri ilə əvəz edilsin;

1.7. "QRUP 10" üzrə:

1.7.1. "Qeydlər"in 1-ci hissəsinin (B) bəndi üzrə:

1. birinci cümlədə "soyulmamış" sözü "soyulmuş" sözü ilə əvəz edilsin;

2. üçüncü cümlədə "meyvəyanlığının çıxarılmasından başqa," sözləri "meyvəyanlığı çıxarılmış, lakin" sözləri ilə əvəz edilsin;

1.7.2. "Əlavə qeydlər"in 1-ci hissəsinin (e) bəndinə "1006 30 250 0" rəqəmlərindən sonra ", 1006 30 270 0" rəqəmləri əlavə edilsin;

1.8. 1212 mal mövqeyinə aid sətrin ikinci sütununda "adları çəkilməyən və daxil edilməyən" sözləri "adları çəkilməyən və ya daxil edilməyən" sözləri ilə əvəz edilsin;

1.9. "QRUP 15" üzrə:

1.9.1. "Əlavə qeydlər" üzrə:

1. 1-ci hissədə "1510 00 100 0" rəqəmləri "1510 10 000 0" rəqəmləri ilə, "1515 90 400 0" rəqəmləri "1515 90 500 0" rəqəmləri ilə, "1515 90 590 0" rəqəmləri "1515 90 690 0" rəqəmləri ilə əvəz edilsin;

2. 2-ci hissənin (c) bəndində "translinolein+ translinolein" sözləri "translinol + translinolein" sözləri ilə əvəz edilsin;

3. 3-cü hissədə "1522 00 390" rəqəmləri "1522 00 390 0" rəqəmləri ilə əvəz edilsin;

1.9.2. 1518 00 yarımmövqeyinə aid sətrin ikinci sütununda "çəkilməyən və daxil edilməyən" sözləri "çəkilməyən və ya daxil edilməyən" sözləri ilə əvəz edilsin;

1.10. "QRUP 16"ya aid "Əlavə qeydlər"in 1-ci hissəsində "1602 90 610 0, 1602 90 720 0 və 1602 90 740 0" sözləri "və 1602 90 610 0" sözləri ilə əvəz edilsin;

1.11. "QRUP 17" üzrə:

1.11.1. "Yarımmövqelərə dair qeydlər"in 2-ci hissəsində "sentrifuqasiya ilə" sözləri "sentrifuqasiya olunmadan" sözləri ilə əvəz edilsin;

1.11.2. "Əlavə qeydlər"in 1-ci hissəsində ikinci halda "1701 14 10" rəqəmləri "1701 14 90" rəqəmləri ilə əvəz edilsin;

1.12. "QRUP 18"ə aid "Qeydlər"in 1-ci hissəsinin (b) bəndinə "1901" rəqəmlərindən sonra "1902," rəqəmləri əlavə edilsin;

1.13. "QRUP 19" üzrə:

1.13.1. 1901 10 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununa "körpə" sözündən sonra "və ya erkən yaşlı" sözləri əlavə edilsin;

1.13.2. 1905 mal mövqeyinə aid sətrin ikinci sütununda "vafli plastinaları, boş kapsullar, bağlama üçün vafli həbləri" sözləri "vafli lövhələri, boş kapsullar, həmçinin möhürləyici vafli həbləri" sözləri ilə əvəz edilsin;

1.13.3. 1905 90 200 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "vafli lövhələri, boş kapsulalar, vafli həbləri" sözləri "vafli lövhələri, boş kapsullar, həmçinin möhürləyici vafli həbləri" sözləri ilə əvəz edilsin;

1.14. "QRUP 20" üzrə:

1.14.1. "Qeydlər"in 2-ci hissəsində "və qənnadı" sözləri "və ya qənnadı" sözləri ilə əvəz edilsin;

1.14.2. "Əlavə qeydlər"in 2-ci hissəsinin (a) bəndi üzrə:

1. "2008 93 və 2008 99" sözləri "2008 93, 2008 97 və 2008 99" sözləri ilə əvəz edilsin;

2. on birinci abzasda "fruktozanın miqdarı" sözləri "qlükozanın miqdarı" sözləri ilə əvəz edilsin;

3. on ikinci abzasda "qlükozanın miqdarı" sözləri "fruktozanın miqdarı" sözləri ilə əvəz edilsin;

1.14.3. "Əlavə qeydlər"in 5-ci hissəsinin (a) bəndinin dördüncü abzasında "meyvə və ya tərəvəz şirələri" sözləri "meyvə, qoz-fındıq və ya tərəvəz şirələri" sözləri ilə əvəz edilsin;

1.14.4. 2009 89 500 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununa "çox olan" sözlərindən sonra ", tərkibində şəkər əlavələri olan" sözləri əlavə edilsin;

1.15. "QRUP 21"ə aid "Əlavə qeydlər" üzrə:

1.15.1. 1-ci hissədə "2106 90 920 0" rəqəmləri "2106 90 930 0" rəqəmləri ilə əvəz edilsin;

1.15.2. 3-cü hissədə "2106 90 300 0" rəqəmləri "2106 90 400 0" rəqəmləri ilə əvəz edilsin;

1.15.3. 2103 90 300 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "və ya 4-10 %" sözləri "və 4-10 %" sözləri ilə əvəz edilsin;

1.16. "QRUP 22" üzrə:

1.16.1. "Əlavə qeydlər"in 3-cü hissəsi üzrə:

1. ikinci abzasda "1. 2204.21 və 2204.29" sözləri "4. 2204 21, 2204 22 və 2204 29" sözləri ilə əvəz edilsin;

2. dördüncü abzasa "2204 21 980 0" rəqəmlərindən sonra ", 2204 22 110 0 - 2204 22 980 0" rəqəmləri əlavə edilsin;

3. on birinci abzasın əvvəlində "2." rəqəmi "5." rəqəmi ilə əvəz edilsin;

4. iyirmi doqquzuncu abzasın əvvəlində "3." rəqəmi "6." rəqəmi ilə əvəz edilsin;

5. otuzuncu abzasın əvvəlində "4." rəqəmi "7." rəqəmi ilə əvəz edilsin;

6. otuz birinci abzasın əvvəlində "5." rəqəmi "8." rəqəmi ilə əvəz edilsin;

7. otuz ikinci abzasın əvvəlində "6." rəqəmi "9." rəqəmi ilə əvəz edilsin;

8. otuz beşinci abzasın əvvəlində "7." rəqəmi "10." rəqəmləri ilə əvəz edilsin;

1.16.2. 2202 99 180 1 alt yarımmövqeyinə aid sətrin ikinci sütunu aşağıdakı redaksiyada verilsin:

"- - - - - tərkibində 10 kütlə %-dən az olmayan meyvə və tərəvəz şirələri olan içkilər";

1.16.3. 2202 99 180 2 alt yarımmövqeyinə aid sətrin ikinci sütunu aşağıdakıredaksiyada verilsin:

"- - - - - tərkibində 10 kütlə %-dən az olmayan meyvə və tərəvəz şirələri olan energetik içkilər";

1.17. "QRUP 23" üzrə:

1.17.1. "Əlavə qeydlər"in 4-cü hissəsi aşağıdakı redaksiyada verilsin:

"4. 2309 10 110 0 - 2309 10 700 0 və 2309 90 310 0 - 2309 90 700 0 alt yarımmövqelərində "süd məhsulları" termini 0401, 0402, 0404, 0405, 0406 mal mövqelərinə və 0403 20 110 0 - 0403 20 390 0, 0403 90 110 0 - 0403 90 690 0, 1702 11 000 0, 1702 19 000 və 2106 90 520 0 alt yarımmövqelərindəki məhsulları bildirir.";

1.17.2. 2309 10 yarımmövqeyinə aid sətirdən sonrakı sətrin ikinci sütununda "2106 90 550 0" rəqəmləri "2106 90 540 0" rəqəmləri ilə əvəz edilsin;

1.17.3. 2309 90 200 0 alt yarımmövqeyinə aid sətirdən iki sonrakı sətrin ikinci sütununda "2106 90 550 0" rəqəmləri "2106 90 540 0" rəqəmləri ilə əvəz edilsin;

1.18. "QRUP 26"ya aid "Qeydlər"in 2-ci hissəsində "XI bölmələrindəki" sözləri "XV bölmələrindəki" sözləri ilə əvəz edilsin;

1.19. "QRUP 27" üzrə:

1.19.1. "Yarımmövqelərə dair qeydlər"in 2-ci hissəsində "5,833 kkal/kq-dan" sözləri "5 833 kkal/kq-dan" sözləri ilə əvəz edilsin;

1.19.2. "Əlavə qeydlər"in 4-cü hissəsi üzrə:

1. (a) bəndinə "3,5" rəqəmlərindən sonra "kütlə %" sözləri əlavə edilsin;

2. (b) bəndində "4,5-dən çox olan" sözləri "3-dən çox olan" sözləri ilə əvəz edilsin;

1.19.3. 2710 12 450 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 12 450 | - - - - - - - - 95 və ya daha çox olan, lakin 98-dən çox olmayan oktan ədədi ilə (tədqiqat metodu ilə): | | |
| 2710 12 450 1 | - - - - - - - - - - avtomobil benzini | 1000 l | 0 |
| 2710 12 450 9 | - - - - - - - - - - digərləri | 1000 l | 0 |

1.19.4. 2710 12 490 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 12 490 | - - - - - - - - 98 və ya daha çox oktan ədədi ilə (tədqiqat metodu ilə): | | |
| 2710 12 490 1 | - - - - - - - - - - avtomobil benzini | 1000 l | 0 |
| 2710 12 490 9 | - - - - - - - - - - digərləri | 1000 l | 0 |

1.19.5. 2710 12 510 1 alt yarımmövqeyinə aid sətrin ikinci sütununa "(tədqiqat metodu ilə)" sözlərindən sonra "avtomobil benzini" sözləri əlavə edilsinvə həmin sətirdən sonra aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 2710 12 510 2 | - - - - - - - - - - 95-dən az oktan ədədi ilə (tədqiqat metodu ilə) digərləri | 1000 l | 15 |
| 2710 12 510 3 | - - - - - - - - - - 95 və ya daha çox olan,lakin 98-dən çox olmayan oktan ədədi ilə (tədqiqat metodu ilə) avtomobil benzini | 1000 l | 0 |

1.19.6. 2710 12 590 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 12 590 | - - - - - - - - 98 və ya daha çox oktan ədədi ilə (tədqiqat metodu ilə): | | |
| 2710 12 590 1 | - - - - - - - - - - avtomobil benzini | 1000 l | 0 |
| 2710 12 590 9 | - - - - - - - - - - digərləri | 1000 l | 0 |

*Ardı 3-cü səh.*

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 39**

**Bakı şəhəri, 6 fevral 2026-cı il**

*Əvvəli 2-ci səh.*

1.19.7. 2710 19 421 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 421 | - - - - - - - - yaylıq: | | |
| 2710 19 421 1 | - - - - - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş | - | 15 |
| 2710 19 421 9 | - - - - - - - - - digərləri | - | 15 |

1.19.8. 2710 19 422 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 422 | - - - - - - - - qışlıq: | | |
| 2710 19 422 1 | - - - - - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş | - | 15 |
| 2710 19 422 9 | - - - - - - - - - digərləri | - | 15 |

1.19.9. 2710 19 423 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 423 | - - - - - - - - arktik: | | |
| 2710 19 423 1 | - - - - - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş | - | 15 |
| 2710 19 423 9 | - - - - - - - - - digərləri | - | 15 |

1.19.10. 2710 19 424 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 424 | - - - - - - - - mövsümarası: | | |
| 2710 19 424 1 | - - - - - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş | - | 15 |
| 2710 19 424 9 | - - - - - - - - - digərləri | - | 15 |

1.19.11. 2710 19 425 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 425 | - - - - - - - - digər: | | |
| 2710 19 425 1 | - - - - - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş | - | 15 |
| 2710 19 425 9 | - - - - - - - - - digərləri | - | 15 |

1.19.12. 2710 19 460 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 460 | - - - - - - tərkibində kükürdün miqdarı 0,05 kütlə %-dən çox olan, lakin 0,2 kütlə %-dən çox olmayan: | | |
| 2710 19 460 1 | - - - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş dizel yanacağı | - | 15 |
| 2710 19 460 9 | - - - - - - - digərləri | - | 15 |

1.19.13. 2710 19 480 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 19 480 | - - - - - - tərkibində kükürdün miqdarı 0,2 kütlə %-dən çox olan: | | |
| 2710 19 480 1 | - - - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş dizel yanacağı | - | 15 |
| 2710 19 480 9 | - - - - - - - digərləri | - | 15 |

1.19.14. 2710 91 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2710 91 000 | - - tərkibində polixlorbifenillər, polixlorterfenillər və ya polibrombifenillər olan: | | |
| 2710 91 000 1 | - - - tərkibində polixlorbifenillərin qatılığı 50 mq/kq və ya daha çox olan | - | 15 |
| 2710 91 000 9 | - - - digərləri | - | 15 |

1.19.15. 2711 11 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2711 11 000 | - - təbii qaz: | | |
| 2711 11 000 1 | - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş yanacaq | m3 | 15 |
| 2711 11 000 2 | - - - digərləri | m3 | 15 |

1.19.16. 2711 12 110 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2711 12 110 | - - - - yanacaq kimi istifadə üçün: | | |
| 2711 12 110 1 | - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş | - | 15 |
| 2711 12 110 9 | - - - - - digərləri | - | 15 |

1.19.17. 2711 12 940 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2711 12 940 | - - - - - təmizliyi 90 %-dən çox, lakin 99 %-dən az olan: | | |
| 2711 12 940 1 | - - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş yanacaq | - | 0 |
| 2711 12 940 9 | - - - - - - digərləri | - | 0 |

1.19.18. 2711 12 970 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2711 12 970 | - - - - - digərləri: | | |
| 2711 12 970 1 | - - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş yanacaq | - | 15 |
| 2711 12 970 9 | - - - - - - digərləri | - | 15 |

1.19.19. 2711 13 910 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2711 13 910 | - - - - təmizliyi 90 %-dən çox, lakin 95 %-dən az olan: | | |
| 2711 13 910 1 | - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş yanacaq | - | 0 |
| 2711 13 910 9 | - - - - - digərləri | - | 0 |

1.19.20. 2711 13 970 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2711 13 970 | - - - - digərləri: | | |
| 2711 13 970 1 | - - - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş yanacaq | - | 0 |
| 2711 13 970 9 | - - - - - digərləri | - | 0 |

1.19.21. 2711 19 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2711 19 000 | - - digərləri: | | |
| 2711 19 000 1 | - - - nəqliyyat vasitələri üçün nəzərdə tutulmuş yanacaq | - | 15 |
| 2711 19 000 9 | - - - digərləri | - | 15 |

1.20. "QRUP 28" üzrə:

1.20.1. "Qeydlər"in 7-ci hissəsində "2848" rəqəmləri "2853" rəqəmləri ilə əvəz edilsin;

1.20.2. 2825 90 110 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "75 mkm-dən çox" sözləri "75 mkm-dən böyük" sözləri ilə, "1,3 mkm-dən çox" sözləri "1,3 mkm-dən kiçik" sözləri ilə əvəz edilsin;

1.21. "QRUP 29" üzrə:

1.21.1. "Qeydlər"in 5-ci hissəsinin (C) bəndinin (2) yarımbəndində "I-IX alt qruplara" sözləri "I-X alt qruplara" sözləri ilə əvəz edilsin;

1.21.2. 2902 43 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "n-ksilol" sözü "p-ksilol" sözü ilə əvəz edilsin;

1.21.3. 2903 69 000 0 alt yarımmövqeyinə aid sətirdən sonrakı sətir çıxarılsın;

1.21.4. 2931 49 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2931 49 000 | - - digərləri: | | |
| 2931 49 000 1 | - - - O-alkil (C10, sikloalkil də daxil olmaqla) N, N-dialkil (metil, etil, n-propil və ya izopropil) amidosianfosfonatlar, o cümlədən O-etil-N,N-dimetilamidosianfosfat (tabun) (CAS 77-81-6) | - | 0 |
| 2931 49 000 2 | - - - O-alkil (H və ya C10 sikloalkil daxil olmaqla)-O-2-dialkil (metil, etil, n-propil və ya izopropil) fosfonitlər və onların alkilləşdirilmiş duzları, o cümlədən O-etil-O-2-diizopropilaminoetilfosfit (QL) (CAS 57856-11-8) | - | 0 |
| 2931 49 000 3 | - - - tərkibində bir metil, etil, n-propil və ya izopropil qrupları ilə birləşdirilmiş fosfor atomu olan, lakin digər karbon atomu olmayan digər kimyəvi maddələr, o cümlədən dimetiletilfosfonat (CAS 6163-75-3), dietilmetilfosfonat (CAS 15715-41-0) | - | 0 |
| 2931 49 000 9 | - - - digərləri | - | 0 |

1.21.5. 2931 59 000 2, 2931 59 000 4 alt yarımmövqelərinə aid sətirlər çıxarılsın;

1.21.6. 2931 59 000 3 alt yarımmövqeyinə aid sətrin birinci sütunundakı rəqəmlər "2931 59 000 2" rəqəmləri ilə, 2931 59 000 5 alt yarımmövqeyinə aid sətrin birinci sütunundakı rəqəmlər "2931 59 000 3" rəqəmləri ilə, 2931 59 000 6 alt yarımmövqeyinə aid sətrin birinci sütunundakı rəqəmlər "2931 59 000 4" rəqəmləri ilə əvəz edilsin;

1.21.7. 2931 59 000 7 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 2931 59 000 5 | - - - tərkibində bir metil, etil, n-propil və ya izopropil qrupları ilə birləşdirilmiş fosfor atomu olan, lakin digər karbon atomu olmayan digər kimyəvi maddələr, o cümlədən, etildixlorfosfonit (CAS 1498-40-04), metildixlorfosfonit (CAS 676-83-5), etildiflüorfosfonat (CAS 753-98-0), etildixlorfosfonat (CAS 1066-50-8) | - | 0 |

1.22. "QRUP 31" üzrə:

1.22.1. "Qeydlər" üzrə:

1. 1-ci hissənin (c) bəndində "daxil oedilən" sözləri "daxil edilən" sözləri ilə əvəz edilsin;

2. 2-ci hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"2. 3102 mal mövqeyinə, 3105 mal mövqeyində nəzərdə tutulmuş müəyyən formalara və ya bağlamalara qablaşdırılmış istisna olmaqla, yalnız aşağıdakı mallar daxil edilir:";

3. 3-cü hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"3. 3103 mal mövqeyinə, 3105 mal mövqeyində nəzərdə tutulmuş müəyyən formalara və ya bağlamalara qablaşdırılmış istisna olmaqla, yalnız aşağıdakı mallar daxil edilir:";

4. 4-cü hissənin birinci abzası aşağıdakı redaksiyada verilsin:

"4. "3104 mal mövqeyinə, 3105 mal mövqeyində nəzərdə tutulmuş müəyyən formalara və ya bağlamalara qablaşdırılmış istisna olmaqla, yalnız aşağıdakı mallar daxil edilir:";

1.22.2. 3105 20 yarımmövqeyə aid sətrin ikinci sütunundan "iki və ya" sözləri çıxarılsın;

1.23. "QRUP 33"ə aid "Qeydlər"in 3-cü hissəsində "və ya efir" sözləri "və efir" sözləri ilə əvəz edilsin;

1.24. 3603 00 yarımmövqeyinə aid sətrin birinci sütunundakı rəqəmlər "3603" rəqəmləri ilə əvəz edilsin;

1.25. 3707 10 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununa "olunmuş" sözündən sonra "emulsiyalar" sözü əlavə edilsin;

1.26. "QRUP 38" üzrə:

1.26.1. "Yarımmövqelərə dair qeydlər"in 3-cü hissəsində "3808 81-3808 88" rəqəmləri "3824 81-3824 89" rəqəmləri ilə əvəz edilsin;

1.26.2. 3824 99 960 9 alt yarımmövqeyinə aid sətrin ikinci sütununa "digərləri" sözündən sonra "," işarəsi əlavə edilsin;

1.27. "QRUP 39"a aid "Qeydlər"in 1-ci hissəsində "bukimi" sözü "bu kimi" sözləri ilə əvəz edilsin;

1.28. 4203 29 900 0 alt yarımmövqeyi aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 4203 29 900 | - - - digərləri: | | |
| 4203 29 900 1 | - - - - xəzdən hazırlanmış | cüt | 15 |
| 4203 29 900 9 | - - - - digərləri | cüt | 15 |

1.29. 4408 mal mövqeyinə aid sətrin ikinci sütununda "6 mm-dən çox qalınlığı olan" sözləri "qalınlığı 6 mm-dən çox olmayan," sözləri ilə əvəz edilsin;

1.30. 4802 61 150 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "və az" sözləri "az və" sözləri ilə əvəz edilsin;

1.31. "XI BÖLMƏ"yə aid "Qeydlər"in 1-ci hissəsində "qrupa aşağıdakılar edilmir" sözləri "bölməyə aşağıdakılar daxil edilmir" sözləri ilə əvəz edilsin;

1.32. 5407 20 yarımmövqeyinə aid sətirdən sonrakı sətrin ikinci sütununda "və" sözü "və ya" sözləri ilə əvəz edilsin;

1.33. "QRUP 56" üzrə:

1.33.1. 5603 13 900 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "- - - - digərləri"sözü "- - - digərləri:"sözü ilə əvəz edilsin;

1.33.2. 5607 49 yarımmövqeyinə aid sətirdən sonrakı sətrin ikinci sütununda "səthi" sözü "xətti" sözü ilə əvəz edilsin;

1.33.3. 5607 49 900 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "səthi" sözü "xətti" sözü ilə əvəz edilsin;

1.33.4. 5607 50 110 0 alt yarımmövqeyinə aid sətirdən əvvəlki sətrin ikinci sütununda"səthi" sözü "xətti" sözü ilə əvəz edilsin;

1.34. "QRUP 57"yə aid "Qeydlər"in 1-ci hissəsində "nəzərdə tutulmayan" sözləri "nəzərdə tutulan" sözləri ilə əvəz edilsin;

1.35. "QRUP 61" üzrə:

1.35.1. "Qeydlər"in 5-ci hissəsində "6019" rəqəmləri "6109" rəqəmləri ilə əvəz edilsin;

1.35.2. 6102 mal mövqeyinə aid sətrin ikinci sütununa "plaşlar," sözündən sonra "gödəkçələr (o cümlədən, xizək gödəkçələri)," sözləri əlavə edilsin;

1.36. 6307 90 980 9 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "- - - - digərləri"sözü "- - - - - digərləri"sözü ilə əvəz edilsin;

1.37. 6401 mal mövqeyinə aid sətrin ikinci sütununda "birləşdirilməniş" sözü "birləşdirilməmiş" sözü ilə əvəz edilsin;

1.38. 6504 00 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "Hörülmüş və ya istənilən materialların" sözləri "İstənilən materialdan zolaqların hörülməsi və ya" sözləri ilə əvəz edilsin;

1.39. 7311 00 130 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "50 l-dən az olan" sözləri "50 l-dən çox olmayan" sözləri ilə əvəz edilsin;

1.40. "QRUP 74"ə aid "Qeydlər"in 1-ci hissəsinin (c) bəndinin ikinci abzasında "2848" rəqəmləri "2853" rəqəmləri ilə əvəz edilsin;

1.41. 8408 20 100 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "- - - sənayeyığılması üçün;"sözləri "- - sənaye yığılması üçün:"sözləri ilə əvəz edilsin;

1.42. "QRUP 85" üzrə:

1.42.1. 8504 90 170 0 alt yarımmövqeyinə aid sətirdən sonrakı sətrin ikinci sütununda "statik dəyişdiricilər" sözləri "statik dəyişdiricilərin" sözləri ilə əvəz edilsin;

1.42.2. 8507 10 200 2 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "- - minik" sözü "- - - minik" sözü ilə əvəz edilsin;

1.42.3. 8507 60 0001, 8507 60 000 2, 8507 60 000 9 alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8507 60 000 1 | - - mülki aviasiya üçün | əd | 0 |
| 8507 60 000 2 | - - velosipedlərin sənaye (yığım) müəssisəsində sənaye yığımı məqsədilə | əd | 15 (31.12.2028-ci il tarixədək 0%) |
| | - - avtomobillər üçün: | | |
| 8507 60 000 3 | - - - yeni | əd | 15 |
| 8507 60 000 4 | - - - istismar olunmuş | əd | 15 |
| 8507 60 000 9 | - - digərləri | əd | 15 |

1.42.4. 8522 90 400 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "elektron modullar:" sözləri "elektron modullar" sözləri ilə əvəz edilsin;

1.42.5. 8527 92 yarımmövqeyinə aid sətrin ikinci sütununda "lakin saatla birləşdirilməmiş" sözləri "lakin saatla birləşdirilmiş" sözləri ilə əvəz edilsin;

1.42.6. 8543 70 800 alt yarımmövqeyinə aid sətrin üçüncü sütunundan "əd" sözü çıxarılsın;

1.43. "QRUP 87" üzrə:

1.43.1. "Əlavə qeydlər"əaşağıdakı məzmunda d) bəndi əlavə edilsin:

"d) Mühərriksiz nəqliyyat vasitələrinin idxalı zamanı onların texniki pasportunda nəzərdə tutulmuş mühərrikinin silindrlərinin işçi həcminə uyğun, həmin məlumat olmadığı təqdirdə isə şassi nömrələrinə müvafiq olaraq istehsalçı tərəfindən nəzərdə tutulmuş maksimal işçi mühərrik həcminə uyğun olaraq sinifləşdirilir.";

1.43.2. 8703 10 180 0 alt yarımmövqeyi aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8703 10 180 | - -digərləri: | | |
| 8703 10 180 1 | - - - yalnız elektrik mühərrik ilə hərəkətə gətirilən | əd | 15 |
| 8703 10 180 9 | - - - digərləri | əd | 15 |

1.43.3. 8703 21 109 1 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8703 21 109 1 | - - - - - yalnız yol təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuş xüsusi təyinatlı patrul-keşik avtomobilləri | əd | 0 |
| | - - - - - kvadrisikllər: | | |
| 8703 21 109 2 | - - - - - yüngül kvadrisikllər | əd | 1 sm$^3$ 0,4 ABŞ dolları |
| 8703 21 109 3 | - - - - - - digərləri | əd | 1 sm$^3$ 0,4 ABŞ dolları |
| 8703 21 109 4 | - - - - - trisikllər | əd | 1 sm$^3$ 0,4 ABŞ dolları |

1.43.4. 8703 21 909 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8703 21 909 | - - - - digərləri: | | |
| | - - - - - kvadrisikllər: | | |
| 8703 21 909 1 | - - - - - - yüngül kvadrisikllər | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |
| 8703 21 909 2 | - - - - - - digərləri | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |
| 8703 21 909 3 | - - - - - trisikllər | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |
| 8703 21 909 9 | - - - - - digərləri | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |

1.43.5. 8703 22 109 1 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8703 22 109 1 | - - - - - yalnız yol təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuş xüsusi təyinatlı patrul-keşik avtomobilləri | əd | |
| 8703 22 109 2 | - - - - - kvadrisikllər | əd | 1 sm$^3$ 0,4 ABŞ dolları |
| 8703 22 109 3 | - - - - - trisikllər | əd | 1 sm$^3$ 0,4 ABŞ dolları |

1.43.6. 8703 22 909 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8703 22 909 | - - - - digərləri: | | |
| 8703 22 909 1 | - - - - - kvadrisikllər | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |
| 8703 22 909 2 | - - - - - trisikllər | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |
| 8703 22 909 9 | - - - - - digərləri | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |

1.43.7. 8703 23 194 1, 8703 23 198 1, 8703 24 109 1, 8703 32 199 1, 8703 33 199 1, 8703 40 109 1, 8703 40 309 1, 8703 40 592 1, 8703 40 599 1, 8703 40 709 1, 8703 50 109 1, 8703 50 399 1, 8703 50 599 1, 8703 60 109 1, 8703 60 309 1, 8703 60 592 1, 8703 60 599 1, 8703 60 709 1, 8703 70 109 1, 8703 70 399 1, 8703 70 599 1 alt yarımmövqelərinə aid sətirlərin ikinci sütunu aşağıdakı redaksiyada verilsin:

- - - - - - - yalnız yol təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuş xüsusi təyinatlı patrul-keşik avtomobilləri

1.43.8. 8703 31 109 1 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8703 31 109 1 | - - - - - yalnız yol təhlükəsizliyini təmin etmək üçün nəzərdə tutulmuş xüsusi təyinatlı yeni patrul-keşik avtomobilləri | əd | 0 |
| | - - - - - kvadrisikllər: | | |
| 8703 31 109 2 | - - - - yüngül kvadrisikllər | əd | 1 sm$^3$ 0,4 ABŞ dolları |
| 8703 31 109 3 | - - - - - digər kvadrisikllər | əd | 1 sm$^3$ 0,4 ABŞ dolları |
| 8703 31 109 4 | - - - - - trisikllər | əd | 1 sm$^3$ 0,4 ABŞ dolları |

1.43.9. 8703 31 909 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8703 31 909 | - - - - digərləri: | | |
| | - - - - - kvadrisikllər: | | |
| 8703 31 909 1 | - - - - yüngül kvadrisikllər | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |
| 8703 31 909 2 | - - - - - - digərləri | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |
| 8703 31 909 3 | - - - - - trisikllər | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |
| 8703 31 909 9 | - - - - - digərləri | əd | 1 sm$^3$ 0,7 ABŞ dolları |

1.43.10. 8703 80 000 0 alt yarımmövqeyinə aid sətrin ikinci sütununda "hərətə" sözü "hərəkətə" sözü ilə əvəz edilsin;

1.43.11. 8703 80 0002 alt yarımmövqeinə aid sətirdən sonra aşağıdakı məzmunda sətir əlavə edilsin:

| | | | |
|---|---|---|---|
| 8703 80 000 3 | - - kvadrisikl və trisikllər | əd | 15 |

1.43.12. 8704 21 920 0 və 8704 21 980 0alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8704 21 920 | - - - - - yeni: | | |
| | - - - - - - kvadrisikllər: | | |
| 8704 21 920 1 | - - - - - -- yüngülkvadrisikllər | əd | 5 |
| 8704 21 920 2 | - - - - - - -digərləri | əd | 5 |
| 8704 21 920 3 | - - - - - -trisikllər | əd | 5 |
| 8704 21 920 9 | - - - - - -digərləri | əd | 5 |
| 8704 21 980 | - - - - - istismarolunmuş: | | |
| | - - - - - - kvadrisikllər: | | |
| 8704 21 980 1 | - - - - - - - yüngülkvadrisikllər | əd | 1 sm$^3$0,7 ABŞ dolları |
| 8704 21 980 2 | - - - - - - - digərləri | əd | 1 sm$^3$0,7 ABŞ dolları |
| 8704 21 980 3 | - - - - - -trisikllər | əd | 1 sm$^3$0,7 ABŞ dolları |
| 8704 21 980 9 | - - - - - -digərləri | əd | 1 sm$^3$0,7 ABŞ dolları |

1.43.13. 8704 31 920 0 və 8704 31 980 0 alt yarımmövqelərinə aid sətirlər aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8704 31 920 | - - - - - yeni: | | |
| | - - - - - - kvadrisikllər: | | |
| 8704 31 920 1 | - - - - yüngül kvadrisikllər | əd | 5 |
| 8704 31 920 2 | - - - - - - - digərləri | əd | 5 |
| 8704 31 920 3 | - - - - - - trisikllər | əd | 5 |
| 8704 31 920 9 | - - - - - - digərləri | əd | 5 |
| 8704 31 980 | - - - - - istismar olunmuş: | | |
| | - - - - - - kvadrisikllər: | | |
| 8704 31 980 1 | - - - - - yüngül kvadrisikllər | əd | 1 sm$^3$0,7 ABŞ dolları |
| 8704 31 980 2 | - - - - - - - digərləri | əd | 1 sm$^3$0,7 ABŞ dolları |
| 8704 31 980 3 | - - - - - - trisikllər | əd | 1 sm$^3$0,7 ABŞ dolları |
| 8704 31 980 9 | - - - - - - digərləri | əd | 1 sm$^3$0,7 ABŞ dolları |

1.43.14. 8704 60 000 1 aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8704 60 000 1 | - - zavod buraxılış tarixindən 3 ilədək ötmüş yük avtomobilləri | əd | 5 (01.01.2028-ci il tarixinədək 0%) |
| 8704 60 000 2 | - - digər yük avtomobilləri | əd | 5 |
| 8704 60 000 3 | - - kvadrisikllər | əd | 5 |
| 8704 60 000 4 | - - trisikllər | əd | 5 |

1.43.15. 8711 20 100 0 alt yarımmövqeyinə aid sətr aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8711 20 100 | - - motorollerlər: | | |
| 8711 20 100 1 | - - - mühərrikinin silindrlərinin işçi həcmi 125sm$^3$-dək olduqda | əd | 15 |
| 8711 20 100 9 | - - - digərləri | əd | 15 |

1.44. "QRUP 89" üzrə:

1.44.1. 8903 11 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8903 11 000 | - - mühərriklə təchiz olunmuş və ya təchiz olunmaq üçün nəzərdə tutulmuş, boş üzən vasitənin (mühərriksiz) kütləsi (netto) 100 kq-dan çox olmayan: | | |
| 8903 11 000 1 | - - - mühərrikli | əd | 15 |
| 8903 11 000 9 | - - - digərləri | əd | 15 |

1.44.2. 8903 19 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8903 19 000 | - - digərləri: | | |
| 8903 19 000 1 | - - - mühərrikli | əd | 15 |
| 8903 19 000 9 | - - - digərləri | əd | 15 |

1.44.3. 8903 21 000 0 və 8903 31 000 0 alt yarımmövqelərinə aid sətirlərdən əvvəlki sətirlərin ikinci sütununda "- - hava ilə"sözləri "- hava ilə"sözləri ilə əvəz edilsin;

1.44.4. 8903 21 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8903 22 000 | - - uzunluğu 7,5 m-dən çox olan, lakin 24 m-dən çox olmayan: | | |
| 8903 22 000 1 | - - - mühərrikli | əd | 15 |
| 8903 22 000 9 | - - - digərləri | əd | 15 |

1.44.5. 8903 22 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8903 23 000 | - - uzunluğu 24 m-dən çox olan: | | |
| 8903 23 000 1 | - - - mühərrikli | əd | 15 |
| 8903 23 000 9 | - - - digərləri | əd | 15 |

1.44.6. 8903 23 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8903 93 100 | - - - boş üzən vasitənin (mühərriksiz) kütləsi (netto) 100 kq-dan çox olmayan: | | |
| 8903 93 100 1 | - - - - mühərrikli | əd | 5 |
| 8903 93 100 9 | - - - - digərləri | əd | 5 |

1.44.7. 8903 93 100 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

1.44.8. 8903 93 990 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8903 93 990 | - - - digərləri: | | |
| 8903 93 990 1 | - - - - mühərrikli | əd | 5 |
| 8903 93 990 9 | - - - - digərləri | əd | 5 |

1.44.9. 8903 99 000 0 alt yarımmövqeyinə aid sətir aşağıdakı redaksiyada verilsin:

| | | | |
|---|---|---|---|
| 8903 99 000 | - - digərləri: | | |
| 8903 99 000 1 | - - - mühərrikli | əd | 5 |
| 8903 99 000 9 | - - - digərləri | əd | 5 |

1.45. 9401 90 yarımmövqeyinə aid sətir çıxarılsın.

2. Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanın müdafiə naziri İranın müdafiə və silahlı qüvvələrə dəstək naziri ilə müzakirələr aparıb



**Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan İranın müdafiə və silahlı qüvvələrə dəstək naziri briqada generalı Əziz Nəsirzadənin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə qonaqlar Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək, xatirələrinə ehtiram nümayiş etdiriblər. "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Müdafiə Nazirliyində təşkil edilən rəsmi qarşılanma mərasimi zamanı fəxri qarovul dəstəsinin önündən keçiddən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib və protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

General-polkovnik Z.Həsənov Azərbaycanla İran arasındakı əlaqələrin çoxəsrlik zəngin tarixə malik olduğunu qeyd edib, qarşılıqlı səfərlər çərçivəsində keçirilən görüşlərin və birgə təlimlərin bu əlaqələrin daha da dərinləşməsinə töhfə verdiyini vurğulayıb.

Briqada generalı Ə.Nəsirzadə ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri üzərində qurulan əməkdaşlığın digər sahələrdə olduğu kimi, hərbi sahədə daha da inkişaf etdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

Görüşdə hərbi, hərbi-texniki, hərbi təhsil və elm sahələrində əlaqələrin cari vəziyyəti, eləcə də inkişaf perspektivləri müzakirə olunub.

Tərəflər həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

# QMİ sədri Əbu-Dabidə bir sıra görüşlər keçirib

**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində yerləşən Zayed Milli Muzeyində Leyla Əliyevanın, habelə Özbəkistan Prezident Administrasiyasının rəhbəri Səidə Mirziyoyevanın və İnsan Qardaşlığı Mükafatı münsiflər heyətinin digər üzvlərinin iştirakı ilə keçirilən sessiyalarında iştirak edib.**



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, sessiyalar "Qadın liderliyi insan qardaşlığının möhkəmləndirilməsində əsas amillərdəndir" və "Humanitar fəaliyyətin praktiki siması: Gecikmədən cavab vermək, cəsurca rəhbərlik etmək və təmiz şəkildə icra etmək" mövzularında olub.

Həmçinin bildirilib ki, səfər çərçivəsində Şeyxülislam Allahşükür Paşazadə bir sıra ikitərəfli görüşlər keçirib. QMİ sədri Müsəlman Ağsaqqalları Şurasının üzvü qismində həmin şuranın baş katibi, "Zayed İnsan Qardaşlığı Mükafatı" Təşkilatının baş katibi Məhəmməd Əbdülsəlam ilə görüşüb. Tərəflər Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsindən sevinc və qürur duyduqlarını dilə gətiriblər. Şeyxülislam xüsusilə qeyd edib ki, bütün Azərbaycan dindarları adından belə bir mötəbər və tarixi tədbirdə böyük məmnunluqla iştirak edir.

Görüşdə 2026-cı il ərzində Azərbaycanda və xarici ölkələrdə müxtəlif islamdaxili, dinlərarası və mədəniyyətlərarası tədbirlərlə bağlı fikir mübadiləsi aparılıb. Tərəflər xüsusilə 2027-ci ildə Azərbaycanda Müsəlman Ağsaqqalları Şurasının növbəti sessiyasının keçirilməsini müzakirə ediblər.

# Azərbaycan HDQ komandanı Pakistanda səfərdə olub



**Pakistan İslam Respublikasında səfərdə olan Azərbaycan Hərbi Dəniz Qüvvələrinin (HDQ) komandanı kontr-admiral Şahin Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti bu ölkənin HDQ komandanı admiral Navid Əşrəf ilə görüşüb.**

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, protokola uyğun olaraq rəsmi qarşılanma mərasimində fəxri qarovul dəstəsinin önündən keçiddən sonra hər iki ölkənin Dövlət himnləri səsləndirilib, şəhidlər abidəsinin önünə əklil qoyulub.

Görüşdə komandanlar hər iki ölkənin HDQ-ləri arasındakı əlaqələrin mövcud vəziyyətini və inkişaf perspektivlərini müzakirə edib, həmçinin təcrübə mübadiləsi və hərbi dənizçilərin peşəkarlığının artırılması məqsədilə birgə təlimlərin keçirilməsinin əhəmiyyətindən danışıblar.

Sonra Pakistanın federal müdafiə naziri Asif Muhammed Xavaca ilə görüşən kontr-admiral Ş.Məmmədov qəbula görə təşəkkürünü bildirib. Pakistanla müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsinin ölkə rəhbərliyinin daim diqqət mərkəzində olduğunu vurğulayıb.

Azərbaycanla Pakistan arasında hərbi sahədə əlaqələrin vacibliyi qeyd olunan görüşdə qarşılıqlı səfərlərin ikitərəfli əməkdaşlığın inkişafına müsbət təsir göstərəcəyinə dair əminlik ifadə edilib.

Pakistan Donanmasının komandanı vitse-admiral Abdul Muniblə görüşdən sonra HDQ komandanı bu ölkədə təhsil alan hərbi qulluqçularımızı ziyarət edib, onların təhsilləri ilə maraqlanıb.

Səfər çərçivəsində kontr-admiral Ş.Məmmədov Pakistanın gəmi təmiri müəssisələrində yaradılan şəraitlə tanış olub.

Qeyd edək ki, HDQ komandanının qardaş ölkəyə səfəri hər iki ölkənin HDQ-ləri arasında əməkdaşlığın, hərbi təhsil və hərbi-texniki məsələlərin inkişaf etdirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

# Qəbələdə "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının açılışı olub










**Fevralın 6-da Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və "Gilan"ın dəstəyi ilə keçirilən Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, açılış mərasimində Leyla Əliyeva, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli və digər rəsmi şəxslər, tanınmış ictimai xadimlər, Qəbələ sakinləri və qonaqlar iştirak ediblər.

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, festivalın bədii rəhbəri Fərhad Bədəlbəyli çıxışında ikinci ildir təşkil edilən Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu bildirib.

Fərhad Bədəlbəyli deyib: "Qış nağılı" Musiqi Festivalı artıq ikinci dəfədir ölkəmizin dilbər guşələrindən olan və füsunkar təbiəti ilə seçilən Qəbələ şəhərində keçirilir. Hələ 2009-cu ildə təməli qoyulmuş və gözəl ənənəyə çevrilmiş Qəbələ Beynəlxalq Musiqi Festivalı yenidən bütün sənətsevərləri bir araya toplayıb. Bu gün Qəbələ sanki bütün sehrli qapılarını bizim üçün açıb. Çox gözəl hava var, biz qarı gözləyirdik. Çünki qarsız bu festival alına bilməzdi".

Festivalın bədii rəhbəri göstərilən kömək və dəstəyə görə Heydər Əliyev Fonduna, Mədəniyyət Nazirliyinə və "Gilan"a dərin təşəkkürünü bildirib.

Rəsmi hissədən sonra musiqisevərlərə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin iştirakı ilə "Viva Opera" adlı konsert proqramı təqdim olunub.

Simfonik orkestr Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının əsas kollektivlərindən biridir. Opera və Balet Teatrının fəaliyyət göstərdiyi bütün dövrlərdə bu orkestrdə ən peşəkar və istedadlı musiqiçilər çalışıblar. Orkestrin dirijor pultu arxasında müxtəlif dövrlərdə Maestro Niyazi, Əfrasiyab Bədəlbəyli, Əşrəf Həsənov, Əhəd İsrafilzadə, Kamal və Rauf Abdullayevlər kimi məşhur dirijorlar dayanıblar. Hazırda Simfonik orkestrin 124 musiqiçisi var. Onlar violin, viola, violençel, kontrabas, arfa kimi simli, həmçinin piano, zərb və sair alətlərdə ifa edirlər. Avropa musiqi alətləri ilə yanaşı, orkestrdə tar, kamança kimi milli musiqi alətlərindən də istifadə edilir. Bu gün simfonik orkestrdə fəxri adlar daşıyan çox sayda professional ifaçı çalışır. Təcrübəli musiqiçilərlə yanaşı, orkestrdə gənclərə də böyük əhəmiyyət verilir. Hər il Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında təhsil alan tələbələr və akademiyanın məzunları içərisindən ən perspektivli, bacarıqlı gənclər ciddi müsabiqə yolu ilə orkestrə qəbul edilir və burada ustad musiqiçilərdən ifaçılığın sirlərini öyrənirlər.

Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə keçən konsertdə X.Ximenes, F.Leqar, L.Delib, D.Moduno, A.Lara, A.Biksio, C.Verdi, L.Denza, C.Rossininin operalarından ariyalar, həmçinin italyan nəğməsi, Azərbaycan xalq mahnısı "Küçələrə su səpmişəm", M.Mirzəyevin "Azərbaycan rəqsi" ifa olunub.

Solistlər Afaq Abbasova (soprano), Aytac Şıxəlizadə (mezzo-soprano), Azər Zadə (tenor) və Mahir Tağızadənin (bariton) ifaları musiqisevərlər tərəfindən alqışlarla qarşılanıb.

Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının proqramı çox zəngindir. Festival çərçivəsində fevralın 7-də Azərbaycanla İtaliya arasında dostluğu təcəssüm etdirən "Bakı-Neapol: Musiqi körpüsü" kamera musiqisi axşamı keçiriləcək. İzləyicilər Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini dinləyə biləcəklər.

# Qəbələdə "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalı başlayıb




**Azərbaycanın dilbər guşələrindən olan Qəbələ şəhəri yenidən öz qapılarını sənətsevərlərin, Beynəlxalq Musiqi Festivalı iştirakçılarının üzünə açıb.**

Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və "Gilan"ın dəstəyi ilə Qəbələdə artıq ikinci ildir keçirilən "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalı 2009-cu ildən bu şəhərdə ənənəvi təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalının davamı olaraq sənətsevərləri yenidən bir araya gətirib.

AZƏRTAC xəbər verir ki, festivalın proqramına uyğun olaraq, fevralın 5-də axşam Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzində musiqisevərlərə ilk konsert proqramı təqdim edilib. Dahi bəstəkar Qara Qarayevin musiqi irsinə həsr olunacaq konsertdə Xalq artistləri Fərhad Bədəlbəyli və Murad Adıgözəlzadə, Azərbaycan Dövlət Simli Kvarteti çıxış ediblər.

Konsertdən əvvəl Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru, Xalq artisti Zəhra Quliyeva çıxış edərək, ikinci dəfədir təşkil edilən Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu vurğulayıb. Bildirilib ki, Qəbələ Beynəlxalq Musiqi Festivalının əsas xüsusiyyətlərindən biri də odur ki, hər zaman festivalın açılışından əvvəl kamera musiqisi axşamları təşkil edilir. Bugünkü kamera konserti isə dünya musiqi xəzinəsinə əvəzolunmaz töhfələr verən görkəmli bəstəkar, ictimai xadim, bütöv bir bəstəkarlar nəsli yetişdirmiş misilsiz müəllim, Xalq artisti Qara Qarayevin əziz xatirəsinə həsr olunub.

Konsertdə Qara Qarayevin "2 saylı simli kvartet a-moll" (iki hissə), "İnsan məskən salır" kinofilmindən musiqi, "Prelüd A-dur, F-dur", R.Şumanın "Piano kvinteti" (III və IV hissələr), İ.Bramsın "Piano kvinteti" (III və IV hissələr) əsərləri səsləndirilib.

Xalq artistləri Fərhad Bədəlbəyli (piano) və Murad Adıgözəlzadənin (piano), həmçinin Azərbaycan Dövlət Simli Kvartetin üzvləri - Nəzrin Aslanlı (violin), Xəyalə Abdullayeva (violin), Vaxtanq İmanov (viola) və Aleksey Miltıxın (violençel) təqdim etdikləri əsərlər tamaşaçıların ürəyincə olub.

Qeyd edək ki, Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalının proqramı çox zəngindir. Musiqisevərlər festival günlərində Əməkdar artist Əyyub Quliyevin dirijorluğu ilə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin maraqlı konsert proqramından zövq alacaq, "Bakı-Neapol: Musiqi Körpüsü" kamera musiqi axşamında Azərbaycan və İtaliya bəstəkarlarının əsərlərini dinləyəcək, "Azərbaycan-İspaniya: iki ölkə, bir musiqi" adlı flamenko-caz musiqi gecəsində İspaniyadan dəvət alan ifaçı və rəqqasların çıxışlarını izləmək imkanı əldə edəcəklər.

## *Musiqi ilə aşılan sərhədlər:* Qəbələdə autizmli pianoçu konsert verib



**Qəbələ "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalı çərçivəsində fevralın 6-da Heydər Əliyev Konqres Mərkəzində autizmli gənc pianoçu Əlisahib Bayramovun konserti olub.**

AZƏRTAC xəbər verir ki, konsertə başlamazdan əvvəl pianoçu barədə məlumat verilib.

Bildirilib ki, autizmli Əlisahib Bayramov sənəti, istedadı və böyük əzmi ilə hər kəsin rəğbətini qazanmış bir gəncdir. O, "Birgə və Sağlam" İctimai Birliyinin yetirməsidir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunu olan Əlisahib 2019-cu ildə keçirilən "Payız əfsanələri" Beynəlxalq Festivalının qalibidir. Autizmli gənc Heydər Əliyev Mərkəzində, həmçinin dəfələrlə müxtəlif festival və konsertlərdə çıxış edib. O, öz musiqisi ilə maneələri aşaraq böyük uğurlara imza atıb. Bugünkü konsertdə Əlisahib izləyicilərə öz daxili dünyasını və musiqi duyumunu piano dilləri vasitəsilə çatdıracaq.

Konsertdə Faiq Sücəddinovun "Vətən balladası", Eldar Mansurovun "Elegiya", "Melodiya", Vaqif Mustafazadənin "Bakı gecələri", Tofiq Quliyevin "Sevgi valsı", Emin Sabitoğlunun "Vals", "Bakı, sabahın xeyir", "Ölsəm, bağışla", "Kəpənək" və digər Azərbaycan və Avropa bəstəkarların əsərləri səsləndirilib.

Əlisahib Bayramov AZƏRTAC-a müsahibəsində deyib: "Uşaq yaşlarımdan musiqiyə böyük həvəs göstərirəm, 14 ildir piano ifaçılığı ilə məşğulam. Qəbələ Beynəlxalq Musiqi Festivalında iştirak etməyi çox arzulayırdım. Nəhayət arzuma çatdım. Bunun üçün Heydər Əliyev Fonduna, Mədəniyyət Nazirliyinə xüsusi minnətdarlığımı bildirirəm. Arzum bu il Şuşa şəhərində keçiriləcək "Xarı bülbül" Beynəlxalq Musiqi Festivalında da iştirak etməkdir".

# İNAM



İnsan haçansa ümidsizliyə qapıla bilər!

İnsan bəzən ümidini itirə də bilər!

Bu, nə qədər arzuolunmaz, xoşagəlməz olsa da, təhlükəli deyil!

Ümidsizliyin haçansa ümidə çevrilməsi mümkündür...

İtmiş ümidin geriyə qayıtması heç də təəccüblü sayılmır.

Bu, görülən işlər, baş verən ciddi hadisələr, yaranan əsaslı dəyişikliklər sayəsində mümkün olur!

Ümidlə inam başqa-başqa anlayışlar olsa da, aralarında bir yaxınlıq da mövcuddur!

**Ümidin inama çevrilməsi həyatda tez-tez rast gəlinən hadisələrdəndir.**

**Çox xoş və xoşbəxt hadisələrdən sayılır.**

*Bu, ümidin dirçəlməsi, güclənməsi, sınaqlardan uğurla çıxması nəticəsində baş verir!*

**Adətən, insanlar sınadıqlarına, sınaqdan uğurla çıxanlara inanırlar!**

**Sınaqlardan keçməklə yaranan inam heç zaman azalmır, ölmür!**

**Belə inam əbədi olur!**

Xüsusən də vaxtaşırı, dönə-dönə təsdiqini tapan yeni addımlar, hadisələr sayəsində.

**Azərbaycan xalqının Heydər Əliyev siyasi kursuna inamı bu gün də dəyişməzdir, möhkəmdir, əbədidir!**

**Azərbaycan xalqının İlham Əliyevə inamı bu gün də sarsılmaz və əbədidir!**

* Çünki dəfələrlə sınaqdan çıxıb!
* Çünki dəfələrlə özünü doğruldub!
* Çünki heç zaman azalmayıb, zəifləməyib!

Xalq İqtidar birliyini daim möhkəmləndirən, Azərbaycanı qələbədən-qələbəyə çatdıran da məhz bu inamın möhkəmliyi, sarsılmazlığı və əbədiliyidir!

❖ ❖ ❖

**Bu gün dünya siyasi liderləri sırasında böyük hörmət və rəğbətlə qarşılanan, beynəlxalq tədbirlərin ən arzu edilən dəvətlisinə və çıxışçısına çevrilən cənab İlham Əliyev yeni tipli, müasir və real düşüncəli dövlət başçılarından sayılır.**

İlham Əliyev bu məhəbbəti və imici təkcə apardığı danışıqlara, reallaşdırdığı transmilli layihələrə, dövlətlərarası münasibətlərə sülh və əməkdaşlıq baxımından verdiyi töhfələrə görə deyil, həm də uzun illər işğal altında qalan, arxalı və nəticələr tərəfindən dəstəklənən düşmən üzərində parlaq qələbəsinə, müstəqil Azərbaycanın ərazi bütövlüyünü və Dövlət suverenliyini, Konstitusiya əsaslarını bərpa etdiyinə görə qazanıb.

**İlham Əliyev real düşünən və mövcud reallıqlara uyğun, uzaqgörən addımlar atmağı bacaran liderdir.**

İlham Əliyev dünyada baş verən prosesləri dərindən analiz edərək ən doğru nəticələr çıxarmağı və ona uyğun qərarlar qəbul etməyi bacaran azsaylı liderlərdəndir.

**Onun yerli televiziya kanallarına verdiyi müsahibədən bir neçə məqama diqqət yetirək:**

* *"Öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs unutsun. Güc var, əməkdaşlıq var, müstəqillik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan".*
* *"Bilirəm və görürəm, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir".*
* *"Hər an ayıq olmalıyıq, güclü olmalıyıq. Hər an öz torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq, hazır olmalıyıq və əminəm ki, bundan sonra heç vaxt bir qarış torpağımız heç kimin tapdağı altına düşməyəcək. Bunu üçün həm güc var, həm iradə var, xalqın birliyi var. Güclü Azərbaycan dövləti var".*

**Güclü Azərbaycan dövlətini yaradan, onu qarşılaşdığı təhlükələrdən sovuşduraraq qalib ölkəyə çevirən də məhz Müzəffər Ali Baş Komandan İlham Əliyevdir!**

**Xalqın daim inandığı və əminliklə arxalandığı Prezident İlham Əliyev!**

❖ ❖ ❖

*İnam uğurun və qələbənin birinci şərtidir!*

Azərbaycan xalqı əmin idi ki, müstəqillik qazanaraq müstəqil dövlət kimi yaşaya bilər!

İlk dəfə 28 may 1918-ci ildə bu yolda real və qətiyyətli addım atdı!

Müstəqilliyinə nail oldu!

Lakin onu cəmi 23 ay yaşada bildi...

Şimaldan əsən qırmızı taun XI ordu şəklində bu müstəqilliyə son qoydu!

Xalqın azad yaşamaq istəyi repressiya dalğalarında, həbsxana və sürgünlərdə, güllələnmə cəzalarında boğuldu!

Boğuldu, amma tamamilə məhv edilə bilmədi!

İkinci dəfə 18 oktyabr 1991-ci ildə öz arzusunu "Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"nı qəbul etməklə açıqladı.

*Doğrudur, bu dəfə müstəqilliyini deklorativ şəkildə bəyan etmiş oldu!*

*Amma bütün hallarda həmin sənəd xalqın arzu və niyyətini ifadə edirdi.*

**Təəssüf ki, SSRİ-nin iflası dövründə Azərbaycana maymaqlar və qorxaqlar başçılıq edirdi, odur ki, bu istək gerçəkliyə çevrilmədi.**

**AXC-Müsavat cütlüyünün iqtidarı isə şəxsi maraq üzərində qurulduğundan, üstəlik, naşı, təcrübəsiz və səriştəsiz addımlar atdığından vəziyyəti daha da qəlizləşdirdi, torpaqların işğalına münbit şərait yaratdı!**

Elə bir şərait ki, Azərbaycan bir dövlət kimi məhvolma, keçmişdəki kimi kiçik xanlıqlara parçalanma təhlükəsi qarşısında qaldı!

*Belə bir vəziyyətdə xalq üzünü sınanmış oğlu Ulu Öndər Heydər Əliyevə tutdu, onu təkidlə yenidən dövlət rəhbərliyinə dəvət etdi!*

**Çünki hamı inanırdı ki, dövləti bu vəziyyətdən yalnız Heydər Əliyev zəkası, Heydər Əliyev müdrikliyi xilas edə bilər!**

Belə də oldu!

❖ ❖ ❖

**Heydər Əliyev üzərinə düşən Qurtuluş missiyasını şərəflə yerinə yetirdi, müstəqilliyimizi əbədiliyə və dönməzliyə çevirdi!**

Bundan artığına ömür imkan vermədi!

*Müstəqil Azərbaycanın sürətli və davamlı inkişaf istiqamətlərini müəyyən edən Heydər Əliyev siyasi kursunu yaradaraq əbədiyyətə qovuşdu.*

Azərbaycan xalqına "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deyə məşhur müraciətini edərək yarımçıq qalan işlərin İlham Əliyev tərəfindən uğurla davam edəcəyini göstərdi.

**Böyük rəhbərinə qəlbən inanan Azərbaycan xalqı bu dəfə İlham Əliyevə inandı və güvəndi!**

**İnandı ki, İlham Əliyev nəinki yarımçıq qalan işləri başa çatdıracaq, daha yüksək nəticələrə imza atacaqdır!**

Bu dəfə də belə oldu!

❖ ❖ ❖

*Xalqın inam və dəstəyinə arxalanan cənab İlham Əliyev birinci dəfə dövlət başçısı seçilərkən verdiyi bütün vədlərə şərəflə əməl etdi:*

* Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları uğurla həyata keçirildi.
* Ölkə üzrə elektrik enerjisinin verilişindəki fasilələr aradan qaldırıldı.
* Əhalinin təbii qazla təminatı əsaslı şəkildə yüksəldilərək doxsan faiz həddini aşdı.
* Müasirtipli yaşayış kompleksləri yaradılaraq məcburi köçkünlərin həyat şəraiti əsaslı şəkildə yaxşılaşdırıldı.
* İşsizlik və yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə aşağı salındı.
* Ölkədə sahibkarlığın inkişafına münbit şərait yaradıldı.
* Yeni yollar şəbəkəsi quruldu.
* "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat dəhlizləri fəaliyyətə başladı, Bakı beynəlxalq logistika mərkəzinə çevrildi.
* Azərbaycanın strateji tərəfdaşlarının və onun maraqlarını müdafiə edənlərin sayı xeyli çoxaldı.
* Hücum diplomatiyası tətbiq edilərək beynəlxalq təşkilatlarda iş gücləndirildi.
* Cənab İlham Əliyevin BMT-nin Təhlükəsizlik Şurasının iclaslarına, habelə İqtisadi Əməkdaşlıq Təşkilatına, İslam Əməkdaşlıq Təşkilatına və Qoşulmama Hərəkatına rəhbərliyi dövründə atdığı uğurlu addımlar Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltdi, dostlarının sayını artırdı.
* Yeni gənc nəsil yetişdirərək onların iştirakı ilə müasir, ən yeni silahlarla təchiz edilmiş ordu quruldu.
* Tarixinin ən qüdrətli Azərbaycanının yaradılmasına nail olundu.
* İlham Əliyev "Bir qarış torpağımızı belə kimsəyə güzəşt etməyəcəyik", "Azərbaycan ərazisində ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəyik" və "Nəyin bahasına olursa-olsun, işğal altındakı torpaqlarımızı azad edəcəyik", - deyə verdiyi vədləri də uğurla yerinə yetirdi.

❖ ❖ ❖

**İlham Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri də xalqın milli birliyinin yaradılmasıdır!**

Məhz bu birlik 44 günlük Zəfər müharibəsində möhtəşəm qələbənin qazanılmasının təminatçılarından birinə çevrildi.

*27 sentyabr 2020-ci ildə Azərbaycan Ordusunun əks-hücumu ilə başlanan Vətən müharibəsi xalqımızın və dövlətimizin möhtəşəm qələbələri ilə başa çatdı!*

**Bəli, məhz qələbələri!**

8 noyabr 2020-ci ildə Şuşanın yalnız əllə düşmən işğalından azad olunması və bunun nəticəsində Ermənistanın kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalaması ərazilərimizin işğalına son qoyulması ilə nəticələndi!

Erməni havadarlarının xahiş-minnətinə rəğmən düşmənin yalnız öz qoşunlarının ərazilərimizi tərketmə qrafikini təqdim etməsindən sonra Azərbaycan hərbi əməliyyatlarını dayandırdı!

Ağdam, Laçın və Kəlbəcər kimi mürəkkəb relyefə malik və altıqat müdafiə qurğuları qurulmuş ərazilərin bir güllə atılmadan geriyə qaytarılması canlı qüvvə itkisinin qarşısını əhəmiyyətli şəkildə almış oldu!

*Havadarlarının köməyinə arxalanan Ermənistan revanşist niyyətlərindən dönmək fikrində deyildi!*

Odur ki, "dəmir yumruq" bir neçə dəfə öz qüdrətini göstərməli oldu!

Rusiya sülhməramlılarının nəzarətində olan Laçın yolu vasitəsilə Qarabağdakı separatçıların dislokasiyası həyata keçirilir, qanunsuz silahlı hərbi birləşmələri və terrorçu dəstələri silah-sursatla təmin edilir, Ermənistandan minalar daşınaraq torpaqlarımızda basdırılırdı.

23 aprel 2023-cü ildə unikal bir əməliyyat keçirilərək Həkəri çayı üzərindəki post ələ keçirildi, bununla da şər və düşmənçilik yoluna çevrilən Laçın yolu birdəfəlik bağlandı.

*Beləliklə, Azərbaycanın ərazi bütövlüyü də təmin olundu!*

Lakin separatçılar dost dövlətlərinə güvənərək hələ də "miatsum" və "artsax" mifik xülyalarından əl çəkmək istəmirdilər...

19-20 sentyabr 2023-cü ildə baş tutaraq bir neçə saat çəkən və bütövlükdə 23 saat davam edən antiterror əməliyyatı nəticəsində düşmən tör-töküntüləri ağ bayraq qaldıraraq təslim oldular!

Azərbaycan qanunlarını qəbul edərək onun əsasında yaşamaq istəməyənlərin isə dinc şəkildə Qarabağı tərk etmələrinə imkan verildi.

*Bu, sayca üçüncü möhtəşəm qələbə idi!*

Daim ermənipərəst mövqe sərgiləyən, aşkar və gizli şəkildə erməni separatçılarına hərtərəfli kömək göstərən Rusiya sülhməramlılarının daha görəcəkləri bir iş qalmamışdı...

Aparılan danışıqlar nəticəsində RSK mahnı və musiqi sədaları altında Azərbaycan ərazisini birdəfəlik tərk etdi!

*"Dəmir yumruğ"un növbəti zəfəri dinc yolla baş tutdu!*

Lakin hələ bu da hamısı deyildi!

❖ ❖ ❖

**Hərbi qüdrətlə uzaqgörən və müdrik siyasəti üzvi şəkildə məharətlə əlaqələndirən və tənzimləyən cənab İlham Əliyev sonrakı hesablanmış addımları ilə nəinki zəfərimizi möhkəmləndirdi, hətta siyasi-diplomatik yolla onun təsir gücünü dəfələrlə artırdı!**

Mifik "Böyük Ermənistan" xülyası ilə beyinləri zəhərlənmiş ermənilərin bir qismi hələ də mövcud reallığı dərk etməyərək, revanşist niyyətlərdən əl çəkmirdilər.

Odur ki, hərbi meydanda qazanılan qələbələr ardıcıl şəkildə atılan addımlar hesabına diplomatiya cəbhəsində daha da möhkəmləndirilirdi.

Yaradıldığı gündən tabutuna mismar vurulanadək erməni maraqlarına xidmət göstərən, "sülh danışıqları" adı ilə Qarabağ münaqişəsinin həllini daim uzadan və yeni nəslin onu unudacağı kimi sərsəm fikrə düşən ATƏT-in Minsk qrupuna "yeni missiya" həvalə edilməsi həvəsi ilə yaşayanlara ATƏT-in Minsk qrupunun birdəfəlik ləğvi ən gözəl cavab və zərbə oldu!

Azərbaycana qarşı ABŞ tərəfindən məkrli və qərəzli oyuna çevrilən ədalətsiz 907-ci düzəlişin tam ləğvi də gündəlikdə duran məsələlərdəndir.

**Bütün bunlara qələbəmizin möhürünə çevrilən, dünyanın birnömrəli dövlətinin ofisində 8 avqust 2025-ci ildə ABŞ Prezidenti D.Trampın iştirakı ilə keçirilən görüşdə sülh müqaviləsinin paraflanması ilə son qoyuldu!**

*Razılaşmaların icrası müəyyən zaman tələb etsə də, geriyə dönüş yoxdur!*

*ABŞ Prezidenti D. Trampın adını daşıyan Zəngəzur dəhlizinin (TRIPP) açılacağı da kimsədə şübhə doğurmur!*

Bir zamanlar ATƏT-in Minsk qrupu və onun həmsədr dövlətləri Azərbaycanı dilə tuturdular ki, "qarşılıqlı etimadı bərpa etmək" və "sülh danışıqlarında uğura nail olmaq üçün" Ermənistanla iqtisadi əlaqələri qurmaq vacibdir!

Bütün təsir və təzyiq cəhdlərinə baxmayaraq, Azərbaycan buna getmədi!

Çünki bu "mövcud reallığın qəbulu" sayılırdı!

**Bu gün isə Azərbaycan vasitəsilə Ermənistana taxıl və benzin daşınır, vassal dövlətin blokadadan qurtulmasına imkan yaradılır!**

**Çünki artıq məğlub Ermənistan mövcud reallıqları qəbul etmək zorundadır və edib də!**

Azərbaycan xalqının müdrik rəhbəri İlham Əliyev nəyi nə vaxt və necə etmək məharəti ilə dəfələrlə düşmənlərimizi qabaqlayaraq çaşbaş salmış, dövləti maraqlarımızı ustalıqla qoruduğunu nümayiş etdirmişdir.

Azərbaycan xalqı inanır ki, verilən vədlər daim uğurla yerinə yetiriləcək, qarşıda duran vəzifələr tezliklə həllini tapacaq, xalqın rifahının daha dolğun təmininə xidmət edən siyasi kursla sürətlə irəliləyəcəkdir.

**Çünki öz rəhbərinə, dəfələrlə sınaqdan şərəflə çıxan qalib dövlət başçısına qəlbən inanır!**

Xalqla iqtidarın sarsılmaz milli birliyi, qarşılıqlı inam və etibarı növbəti qələbələrin də möhkəm və sarsılmaz təməli sayılır.

**Bəxtiyar SADIQOV**

# Yeni tariximizin qürur səhifəsi



**Prezident İlham Əliyevin fəaliyyətinin bütün dövrləri milli ideyaların həyata keçirilməsi, müstəqilliyimizin, suverenliyimizin, milli maraqlarımızın qorunması, ölkəmizin inkişafının, xalqın xoşbəxtliyinin təmin edilməsi ilə zəngindir, yaddaqalandır. Düşmən üzərində tarixi qələbə, erməni təcavüzkarlarının ayaqlarının Qarabağ torpaqlarından kəsilməsi, suverenliyimizin tam bərpa edilməsi, xalqın sarsılmaz birliyi və səfərbərliyi, ordunun sarsılmaz gücü və qüdrətli dövlət başçısı və Ali Baş Komandan kimi İlham Əliyevin qətiyyəti, yüksək təşkilatçılıq bacarığı sayəsində mümkün olub.**

7 fevral 2024-cü il prezident seçkilərindən keçən dövr ölkəmiz üçün mühüm hadisələrlə əlamətdardır. Cənab İlham Əliyevin rəhbərliyi və təşkilatçılığı sayəsində iqtisadiyyatda, sosial həyatda, beynəlxalq aləmdə, dinc quruculuq işlərində uğurlu nəticələr əldə edilib. Prezidentin cəsarətli və prinsipial mövqeyi, düşünülmüş və çevik diplomatik gedişləri, milli maraqlara və ölkənin inkişafına əsaslanan qərarları, sülhə, əməkdaşlığa, beynəlxalq normalara arxalanan amalları, fəaliyyəti ölkəmizi regionun lider dövlətinə çevirib.

Dünyanın bir çox regionlarında müharibələrin, qarşıdurmaların, terrorun, qətllərin baş alıb getdiyi bir dövrdə Cənubi Qafqazda sabitlikdir, sülh, əmin-amanlıq üçün real imkanlar yaranıb, insanlar da artıq rahatdırlar, müharibə təhlükəsindən uzaqdırlar. Qarşılıqlı etimad mühitinin formalaşması, Azərbaycan-Ermənistan münasibətlərinin daha da normallaşması, sülh müqaviləsinin imzalanması, regionda enerji və nəqliyyat layihələrinin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması istiqamətində görülən tədbirlər bilavasitə Azərbaycan liderinin uzaqgörən siyasətinin nəticəsidir.

Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən mühüm enerji və nəqliyyat dəhlizləri, Avropanın bir çox ölkələrinə uzanan qaz kəmərləri, alternativ enerji mənbələri, dünyanın super dövlətlərinin - ABŞ-nin, Çinin Azərbaycanla əməkdaşlığa önəm vermələri dövlətimizin beynəlxalq aləmdə rolunun və nüfuzunun artmasının sübutudur. Cənab İlham Əliyevin iqtisadi inkişafa, ictimai-siyasi sabitliyə, əməkdaşlığa yönələn fəaliyyəti, həm regional, həm də qlobal səviyyədə sülhün, əmin-amanlığın, demokratiyanın, insan haqlarının təşviqinə verdiyi töhfələr Azərbaycanı dünya miqyasında sülhsevər bir dövlət kimi tanıtdırmış və liderimizə böyük hörmət, ehtiram qazandırmışdır.

Ötən il avqustun 8-də Vaşinqton Sammitində Azərbaycan və Ermənistan arasında sülh sazişinin mətninin paraflanması, ABŞ lideri tərəfindən Prezident İlham Əliyevin fəaliyyətinə verilən yüksək qiymət ölkəmizin Cənubi Qafqazdakı öncül mövqeyinin göstəricisi idi. Cənab İlham Əliyev daim sülhün tərəfdarıdır. Torpaqlarımız işğal altında olduğu, müharibənin getdiyi, qələbə qazandığımız günlərdə də Prezidentimiz sülh mövqeyindən çıxış edirdi. Vaşinqton görüşü, Ağ Evdə Azərbaycan və Ermənistan arasında əldə olunan razılaşma, "Azadlığa Dəstək Aktı"na edilən 907-ci düzəlişin dayandırılması, ABŞ səviyyəsində Zəngəzur dəhlizinin açılmasına verilən dəstək son ayların mühüm hadisələridir.

Beynəlxalq sülh platformasında Azərbaycanın rolu durmadan artır. Prezident İlham Əliyev dünyaya sübut edir ki, sülh, əməkdaşlıq, qarşılıqlı sağlam münasibətlər sözlə, çağırış və bəyanatlarla deyil, əməli fəaliyyətlə, siyasi iradə və düşünülmüş diplomatik gedişlərlə, prinsipial mövqe, sağlam düşüncə və bəşəri ideyalarla həyata keçirilir. Dövlətimizin başçısının bu siyasəti milli təhlükəsizliyimizi möhkəmləndirmişdir. Həyata keçirilən mühüm layihələr, şəhər və kəndlərimizdə, xüsusilə işğaldan azad olunmuş ərazilərdə görülən tikinti, abadlıq, quruculuq işləri iqtisadi inkişafımıza yeni təkan vermişdir.

Prezidentin sülh, tolerantlıq, insanlığa, bəşəri dəyərlərə sədaqət nümunəsi bu il özünü bir daha təsdiqlədi. BƏƏ-nin təsis etdiyi "Zayed İnsan Qardaşlığı Mükafatı"nın qalibi olan cənab İlham Əliyev Davosda çox böyük hörmət və ehtiramla qarşılandı. ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə yaradılan Sülh Şurasına Azərbaycanın təsisçi üzv qismində seçilməsi isə xalqımıza və dövlətimizə göstərilən ehtiramın növbəti ifadəsidir. Bu, Azərbaycan dövlətinin qüdrətini bir daha dünyaya nümayiş etdirdi və dövlətimizin başçısının nəinki Cənubi Qafqazda, bütün dünyada sülhə, əməkdaşlığa, birgəyaşayışa böyük önəm verdiyini təsdiqlədi.

Bəşəriyyətin xoşbəxt gələcəyi sülhdən, dövlətlərarası qarşılıqlı sağlam münasibətlərdən, beynəlxalq normalara əməl edilməsindən asılıdır. Müharibələr, qarşıdurmalar, terror və sui-qəsdlər heç bir dövlətə xeyir gətirməyib və gətirməyəcək. Biz bunu Ermənistanın timsalında aydın gördük. Erməni separatçıları 30 il Qarabağ torpaqlarını işğal altında saxladılar, şəhər və kəndlərimizi xarabalığa çevirdilər, insanlarımızı qətlə yetirdilər, xalqımızın başına olmazın bəlalar gətirdilər. Sonda öz başları əzildi. Halbuki ağıllı dövlət rəhbərləri, siyasətçilər dünyada sülhün bərqərar edilməsi, müharibələrə son qoyulması iqtisadi inkişaf və sosial rifah uğrunda mübarizə aparırlar. Cənab İlham Əliyev də məhz bu mübarizədə birinci sıradadır və öz qətiyyəti, sülhə sədaqəti ilə dünyaya bir nümunədir. Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabi şəhərində "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimat mərasimindəki çıxışında Prezidentimiz bunu bir daha təsdiqlədi. Sülhün, tolerantlığın, mədəniyyətlərarası dialoqun təşviqi sahəsində xidmətlərinə görə bir lider kimi bu mükafata cənab İlham Əliyevin layiq görülməsi dünyaya bir daha göstərdi ki, dövlətimizin rəhbəri sülhə sadiqdir. İlham Əliyev Ermənistanla uzun sürən müharibənin nəticəsinə toxunaraq bir daha dünyaya bəyan etdi: "Mən hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür".

Prezident İlham Əliyevin tutduğu yol Azərbaycanın uğurlu gələcəyindən, ictimai-siyasi sabitlikdən, milli mənafelərimizin qorunmasından, inkişafımızdan və dayanıqlı sülhdən keçir. Azərbaycanın dünyada etibarlı, inkişaf etmiş, sülhsevər bir dövlət kimi tanınması, səsimizin ən mötəbər tribunalardan eşidilməsi qürurvericidir. Bu ruh, bu inam iqtisadi-siyasi, sosial-mədəni həyatımızın bütün sahələrində özünü aydın göstərir. Azərbaycan Prezidenti ölkə vətəndaşlarının sağlamlığını, təhlükəsizliyini, sosial vəziyyətinin yaxşılaşdırılmasını həyatının mənası hesab edir. Dövlət başçısının fərman və sərəncamları ilə son illər 4 milyondan çox vətəndaşı əhatə edən 5 sosial islahat paketi icra olunmuşdur. Bu sənədlər üzrə ayrılan illik əlavə vəsait 7,6 milyard manatdan çoxdur. Minimum əməkhaqları 3,1, orta əməkhaqqı 2 dəfə, minimum pensiya 3 dəfəyədək, orta aylıq pensiya 2,6, müavinət və təqaüd ödənişləri üçün ayrılan illik vəsait 5 dəfə artmışdır.

Bu il sosialyönümlü xərclərin çəkisinin dövlət büdcəsində 41 faiz olması sosial rifahın dövlət siyasətinin başlıca istiqaməti olduğunu bir daha təsdiq edir. Bu da aparılan sosial islahatların davamlığını, əhalinin rifahının yüksəldilməsi və həssas qrupların sosial müdafiəsinin dövlətin diqqət mərkəzində dayandığını bir daha göstərir. İnsanların həyat səviyyəsinin yaxşılaşması, əlbəttə ki, ölkə iqtisadiyyatının davamlı və dayanıqlığı ilə əlaqədardır. İqtisadi inkişaf yüksələn xətt üzrə davam edir. 2025-ci ildə ölkədə fəaliyyət göstərən müəssisə, təşkilat və fərdi sahibkarlar tərəfindən 129,1 milyard manatlıq və ya 2024-cü illə müqayisədə 1,4 faiz çox ümumi daxili məhsul istehsal edilmiş, qeyri-neft-qaz sektorunda 5,5 faiz artım əldə olunmuşdur.

Dövlətimizin başçısı tərəfindən kənd təsərrüfatının inkişafına göstərilən qayğı və diqqət, bu sahədə mütərəqqi texnologiyaların tətbiqi, elektron informasiya sisteminin yaradılması, subsidiya mexanizminin təkmilləşdirilməsi, bir sıra aqrar-sənaye parklarının və müəssisələrinin yaradılması, kadr hazırlığına böyük önəm verilməsi, qabaqcıl təcrübələrin öyrənilib yayılması öz müsbət nəticələrini verməkdədir.

Azərbaycan elminin, mədəniyyətinin, təhsilinin, səhiyyəsinin, idmanın inkişafında, milli-mənəvi dəyərlərimizin qorunmasında, təşviq edilməsində də Prezidentin xidmətləri əvəzsizdir. Bu sahələrdə həyata keçirilən mühüm tədbirlər, beynəlxalq görüşlər, konfranslar, forumlar ictimai-mənəvi həyatımıza yeni məna verir, dövlətimizi tolerant, yüksək mədəniyyətə, humanist adət-ənənələrə malik bir ölkə kimi tanıtdırır və sevdirir.

Cənab İlham Əliyevin fəaliyyətinin mühüm bir istiqaməti Qarabağ və Şərqi Zəngəzur regionları ilə bağlıdır. Müharibədə tarixi qələbə qazanmaqla Azərbaycanda yeni bir dövrün başlanğıcı qoyuldu. İndi o torpaqlarda möhtəşəm tikinti, bərpa, quruculuq işləri həyata keçirilir. Son illər 25 milyard manat vəsait sərf olunan bu ərazilərdə artıq həyat öz axarına düşür, insanlar yurd-yuvalarına qayıdırlar. Müasir tipli məktəblər, xəstəxanalar, uşaq bağçaları, yollar, idman müəssisələri, beynəlxalq hava limanları, ictimai-iaşə obyektləri, emal müəssisələri onların ixtiyarındadır. Prezidentin "Qarabağ torpaqlarını, viran edilən kənd və şəhərlərimizi gülüstana, cənnətə çevirəcəyik" vədi artıq reallığa çevrilib.

İndi Qarabağa səfər edən xarici ölkə rəhbərləri, ictimai-siyasi xadimlər, jurnalistlər, turistlər viran edilmiş, xarabazarlıqlara çevrilmiş o torpaqlarda başqa mənzərə ilə qarşılaşırlar. Bu, əlbəttə, həyata keçirilən tədbirlərdən, əsası torpağa məhəbbətdən, vətənə xidmətdən, xalqa, insana qayğı və diqqətdən irəli gəlir.

Cənab İlham Əliyev andına, Ulu Öndərin ideyalarına, vəsiyyətinə, xalqın etimadına, torpağa sevgisinə sadiqdir. O, xalqın birliyi, ordunun gücü, düşünülmüş siyasəti ilə torpaqlarımızı azğın düşməndən azad etdi və dünya hərb tarixinə yeni səhifə yazdı. Yazılan bu tarix Azərbaycan xalqının qürurunu, gücünü, yurda, torpağa sonsuz məhəbbəti nümayiş etdirməklə dövlətimizi ucaltdı, Prezidentimizin qüdrətini, yenilməzliyini, sülh, əmin-amanlıq amallarını təsdiqlədi.

Qarabağ torpaqları qüdrətli ordumuz - cəsur əsgər və zabitlərimiz tərəfindən bu gün mətanətlə qorunur. Milli təhlükəsizliyimizin təmin edilməsi, ordumuzun gücləndirilməsi, hərbi kadrların hazırlanması hər an diqqət mərkəzindədir. Cənab İlham Əliyev ordu quruculuğuna böyük önəm verir, əsgər və zabitlərimizlə, şəhidlərimiz, qazilərimizlə qürur duyduğunu bildirir, bu insanların sosial müdafiəsinin, həyat şəraitinin yaxşılaşdırılması üçün səylərini əsirgəmir.

Bu gün Azərbaycan iqtisadi cəhətdən dünyanın inkişaf edən ölkələrindən biridir. Ətrafımızdakı dövlətlərdə iqtisadi-siyasi böhran, qarşıdurmalar, müharibələr baş verdiyi, insanlar çıxılmaz bir vəziyyətdə yaşadığı halda ölkəmizdə ictimai-siyasi sabitlikdir, əmin-amanlıqdır. Bu, cənab İlham Əliyevin yüksək təşkilatçılığının, idarəetmə məharətinin, xalqa, torpağa bağlılığının, millətinə inamının bəhrəsidir. Azərbaycan xalqı da Prezidentini sevir, ona sonsuz hörmət və ehtiram bəsləyir, inanır, dəstək verir - 2 il öncə olduğu kimi.

*Tahir RZAYEV,*
*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri*

# Azərbaycanın mövqeyini möhkəmləndirən uğurlu siyasət

**Respublikamızda son prezident seçkilərindən iki il ötür və bu müddət Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan dövlət siyasətinin yeni mərhələsi kimi tarixə düşüb. Bu zaman kəsiyi həm daxili idarəetmə sisteminin təkmilləşdirilməsi, həm də xarici siyasətdə strateji hədəflərin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.**

Ötən illər göstərdi ki, dövlət siyasəti planlı, institusional islahatlara söykənən və nəticəyönümlü yanaşma üzərində qurulub. Bu dövrdə prioritetlərdən biri idarəetmənin çevik, şəffaf və effektiv mexanizmlərlə təmin olunması idi. Odur ki, idarəetmə strukturlarında institusional islahatlar aparıldı, qərar qəbuletmə prosesləri sürətləndirildi və dövlət orqanları arasında koordinasiya gücləndirildi. Eyni zamanda iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və regionların tarazlı sosial-iqtisadi irəliləyişi təmin edildi. Sosial sahədə görülən tədbirlər dövlətin insan mərkəzli inkişaf strategiyasına sadiqliyini əyani şəkildə göstərdi. Sosial paketlərin əhatə dairəsinin genişləndirilməsi, əməkhaqqı və pensiyaların ardıcıl artırılması, şəhid ailələri və müharibə veteranlarının sosial müdafiəsinin gücləndirilməsi əhalinin rifah səviyyəsinin yüksəlməsini prioritet sahəyə çevirdi. Bu addımlar göstərir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət həm sosial ədaləti, həm iqtisadi dayanıqlılığı, həm də institusional effektivliyi təmin edən ardıcıl idarəetmə modelinə əsaslanır.

Postmünaqişə dövrünün əsas vəzifələrindən olan işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesi sürətlə davam etdirilir. Böyük qayıdış proqramı çərçivəsində infrastruktur layihələri icra olunub, keçmiş məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz və mərhələli şəkildə qayıdışı təmin edilir. Bu proses paralel olaraq regionda uzunmüddətli sülhün və sabitliyin möhkəmləndirilməsinə xidmət göstərir.

Xarici siyasətdə Azərbaycan balanslı və praqmatik xəttini qoruyaraq beynəlxalq arenada mövqelərini daha da gücləndirib. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu strategiya ölkənin yalnız regional deyil, eyni zamanda qlobal proseslərdə də fəal və etibarlı tərəfdaş kimi qəbul olunmasını təmin edib. Balanslaşdırılmış diplomatiya, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq və beynəlxalq hüquqa söykənən mövqe ölkəmizin xarici siyasətinin əsas sütunlarını təşkil edir. Bu uğurlu xəttin mühüm istiqamətlərindən biri Asiya vektorudur, xüsusilə Azərbaycan-Çin münasibətləri sahəsində. Son illərdə iki ölkə arasında siyasi dialoqun intensivləşməsi və iqtisadi, eləcə də nəqliyyat sahələrində əməkdaşlığın genişlənməsi münasibətlərin strateji xarakter aldığını göstərir. Çin Xalq Respublikasının qlobal miqyasda artan iqtisadi və siyasi çəkisi fonunda Azərbaycanla qurulan tərəfdaşlıq Pekin üçün Cənubi Qafqaz və Avrasiya məkanında etibarlı dayaq nöqtəsi kimi dəyərləndirilir. Azərbaycan-Çin əməkdaşlığı təkcə iqtisadi maraqlarla məhdudlaşmır. Siyasi dialoq, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı dəstək və suverenlik, ərazi bütövlüyü prinsiplərinə hörmət iki ölkə arasında münasibətlərin ideoloji əsasını formalaşdırır. Bu yanaşma Azərbaycanın Qərb və Şərq arasında balanslı diplomatiya yürütmək xəttinin real təzahürü kimi çıxış edir.

Cənubi Qafqaz və Yaxın Şərqdə geosiyasi proseslərin sürətlə dəyişdiyi, regional maraqların yenidən uzlaşdırıldığı bir mərhələdə Azərbaycan qonşu dövlətlərlə münasibətlərində də praqmatik və rasional xətti ön plana çıxarmağa nail olub. Məhz bu ümumi regional kontekst fonunda, bir müddət gərginliklərin müşahidə olunduğu Azərbaycan-İran münasibətləri də 2025-ci ildə tamamilə yeni bir istiqamət aldı. İranın yeni Prezidenti Məsud Pezeşkianın Azərbaycana səfəri regionda dəyişən geosiyasi konfiqurasiyanın rasional cavabı kimi qiymətləndirilməlidir.

Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə 2025-ci il 8 avqust tarixində Vaşinqtonda keçirilmiş üçtərəfli görüş Cənubi Qafqazda onilliklər boyu davam etmiş qarşıdurmanın siyasi-hüquqi müstəvidə yekunlaşdırılmasına doğru atılmış həlledici mərhələ kimi qiymətləndirilir. Sözügedən görüş regional təhlükəsizlik arxitekturasının yenidən formalaşmasına səbəb olan strateji nəticələri ilə tarixə düşüb. Görüşün əsas nəticəsi Azərbaycan və Ermənistan arasında sülh sazişinin ilkin mətninin paraflanması olub. Vaşinqton mərasimində tərəflər sənədin ratifikasiyası üçün daxili hüquqi prosedurların konkret vaxt qrafikini müəyyənləşdirib, bununla da prosesin geri dönməz xarakter aldığı təsdiqlənib. Paraflanmış mətn qarşılıqlı ərazi bütövlüyünün tanınması, dövlət sərhədlərinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması və zorakılıqdan imtina prinsiplərini ehtiva edir.

Vaşinqton razılaşmasının mühüm siyasi nəticələrindən biri də ATƏT-in Minsk Qrupunun fəaliyyətinin dayandırılması ilə bağlı olmuşdur. Azərbaycan və Ermənistan liderləri münaqişənin artıq həll olunduğunu əsas götürərək, Minsk Qrupunun ləğvi üçün ATƏT Baş katibinə birgə müraciət ünvanlamışlar. Bu addım regionda vasitəçilik formatlarının dəyişdiyini və yeni geosiyasi reallıqların formalaşdığını nümayiş etdirir. Razılaşmanın diqqətçəkən əsas komponentlərindən biri regional nəqliyyat və logistika xətlərinin açılması, xüsusilə Zəngəzur dəhlizi ilə bağlı yeni yanaşmadır. İlk dəfə olaraq bu dəhliz təkcə regional deyil, beynəlxalq ticarət və tranzit infrastrukturu kimi təqdim edilib. ABŞ-nin təşəbbüsü ilə layihə "Trump Route for International Peace and Prosperity" (TRIPP) adlandırılıb və onun təhlükəsizliyi, davamlı fəaliyyəti və beynəlxalq iqtisadi inteqrasiyası üçün çoxtərəfli mexanizmlərin yaradılması nəzərdə tutulub. Vaşinqton görüşü, mahiyyət etibarilə, Azərbaycanın hərbi-siyasi qələbəsinin diplomatik müstəvidə təsdiqi olmaqla yanaşı, rəsmi Bakının regional gündəliyi formalaşdıran əsas aktora çevrildiyini bir daha nümayiş etdirib. Bu razılaşma Cənubi Qafqazda uzunmüddətli sülhün, iqtisadi inteqrasiyanın və təhlükəsizlik balansının əsasını qoyan tarixi sənəd kimi dəyərləndirilir.

Azərbaycan müxtəlif güc mərkəzləri ilə münasibətlərini balanslı və çoxölçülü xarici siyasət strategiyası əsasında quraraq həm milli maraqlarının təmin edilməsinə, həm də regional və qlobal sabitliyin möhkəmləndirilməsinə nail olub. Bu strategiyanın uğurla həyata keçirilməsində Prezident İlham Əliyevin son iki il ərzində apardığı ardıcıl, praqmatik və yüksək səviyyəli diplomatik fəaliyyət həlledici rol oynayıb. Dövlət başçısının təşəbbüsləri və aktiv beynəlxalq siyasi dialoqu Azərbaycanın geosiyasi mövqelərini əhəmiyyətli dərəcədə gücləndirib. Türkiyə ilə müttəfiqlik münasibətləri isə siyasi, hərbi və iqtisadi sahələrdə əməkdaşlığı daha da dərinləşdirərək regional təhlükəsizlik və sabitliyin əsas sütunlarından birinə çevrilib. Eyni zamanda, İsraillə strateji tərəfdaşlıq yüksək texnologiyalar, müdafiə sənayesi və təhlükəsizlik sahələrində qarşılıqlı etimada əsaslanan əməkdaşlıq modeli kimi inkişaf etdirilib. Bununla paralel olaraq, Avropa İttifaqı ilə enerji təhlükəsizliyi və siyasi dialoq genişləndirilib, ABŞ ilə təhlükəsizlik və enerji sahəsində tərəfdaşlıq yeni mərhələyə yüksəlib, İranla isə qarşılıqlı hörmət və konstruktiv yanaşmaya əsaslanan pozitiv qonşuluq münasibətləri qorunub saxlanılıb. Bu çoxistiqamətli diplomatik xətt Azərbaycanın beynəlxalq siyasətinin sistemli və məqsədyönlü şəkildə həyata keçirildiyini aydın şəkildə nümayiş etdirir.

*Kamran BAYRAMOV,*
*Milli Məclisin deputatı*



# Xalqın yüksək etimadının təcəssümü

**Bu gün ölkəmizdə keçirilmiş sonuncu prezident seçkilərindən iki il ötür. 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar prezident seçkilərində Yeni Azərbaycan Partiyasının Sədri, dövlət başçısı İlham Əliyev növbəti dəfə parlaq qələbə qazandı. Seçicilərin 92 faizindən çoxu cənab İlham Əliyevə səs verərək onu növbəti müddətə Prezident seçdi.**

Həmin seçkilər yüksək seçici fəallığı şəraitində baş tutdu və bu fakt prezident seçkilərinin azad, şəffaf və ədalətli keçirilməsinin göstəricisidir. Cənab İlham Əliyev prezident seçkilərinin vaxtından əvvəl keçirilməsini şərtləndirən üç səbəb göstərmişdi: birinci səbəb 2023-cü ilin sentyabr ayında Azərbaycanın suverenliyinin tam bərpasıdır ki, seçkilər də bütöv bir dövrə yekun vurur; ikinci səbəb seçkilərin ilk dəfə olaraq erməni işğalından azad edilmiş torpaqlar da daxil olmaqla, ölkənin bütün ərazisində keçirilməsidir; üçüncüsü isə cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyətinə yekun vurularaq yeni dövrün başlanması və yeni hədəflərin qarşıya qoyulmasıdır.

Ən önəmli və tarixi məqam bu seçkilərin ilk dəfə olaraq müstəqil Azərbaycanın öz ərazisi üzərində suverenliyini tam bərpa etməsi şəraitində keçirilməsi idi. Ermənistanın işğalından azad edilən ərazilərdə də seçki məntəqələri açıldı və 30 ildə ilk dəfə olaraq bütün Azərbaycan ərazisində prezident seçkiləri keçirildi. Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdərə, Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcərdə 22 mindən çox seçici səsvermədə iştirak etdi.

Cənab İlham Əliyevin Xankəndi şəhərində səs verməsi isə özünün təbirincə desək, separatçıların tabutuna vurulmuş son mismar oldu. Beləliklə, qalib xalq ərazi bütövlüyü və suverenliyi təmin olunmuş ölkənin vətəndaşı olaraq qalib Liderinə - şanlı Zəfərin müəllifinə səs verməklə Heydər Əliyev ideyalarına sədaqət, cənab İlham Əliyevə minnətdarlıq ifadə etdi.

Prezident İlham Əliyevin seçkilərdə növbəti dəfə parlaq qələbə qazanması onun uğurlu siyasətinin nəticəsidir. Ötən illərin mənzərəsi də göstərir ki, dövlət başçısı verdiyi bütün vədləri yüksək səviyyədə yerinə yetirmişdi. Ölkə iqtisadiyyatında və sosial sahədə misilsiz uğurlar qazanılmışdı. 2003-cü ildən keçən dövrdə ümumi daxili məhsul bir neçə dəfə artmış, yoxsulluq səviyyəsi 50 faizdən 5 faizə enmişdi.

Prezident İlham Əliyev güclü Lider kimi qətiyyətlə reallaşdırdığı siyasətdə həmişə dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görüb və bütün qüvvəsini bu istiqamətdə səfərbər edib. Dövlətimizin başçısı özünün "güclü dövlət" konsepsiyasını həyata keçirmək üçün, bir qayda olaraq, xalqa arxalanıb, xalqdan güc alıb və xalqına güc verib. Öz növbəsində, müdrik Azərbaycan xalqı da həmişə dövlət başçımıza güvənib və bütün məsələlərdə ona dəstək verib. Prezident İlham Əliyev xalqın, birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi Liderdir.

Dünyada etibarlı tərəfdaş kimi tanınan Azərbaycan bir çox ölkələrlə, o cümlədən qonşularla müxtəlif platformalarda əməkdaşlıq əlaqələri quraraq mövcud münasibətlərini daha da möhkəmləndirir. Eləcə də, Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi, beynəlxalq müstəvidə ən böyük iqlim sammitinin (COP29) Bakıda keçirilməsi ölkəmizin dünya miqyasındakı artan nüfuzunun göstəricisidir. Qazanılan uğurların zirvəsində, təbii ki, işğal altındakı torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün bərpası ilə nəticələnmiş Vətən müharibəsi, ən nəhayət, 2023-cü il sentyabrın 19-da rəşadətli ordumuzun Qarabağda başlatdığı lokal xarakterli antiterror tədbirləri və Qazax rayonunun 4 kəndinin işğaldan azad edilməsi dayanır. Öz lideri ətrafında "dəmir yumruq" kimi birləşən xalq gücünü və qələbə əzmini bütün dünyaya nümayiş etdirdi. Prezident, Müzəffər Ali Baş Komandan bu qələbə ilə Azərbaycanı qalib ölkəyə, xalqı qalib xalqa çevirdi. Azərbaycanın qazandığı misilsiz uğurların təməlində də məhz xalq-iqtidar birliyi dayandı.

Seçkilərin nəticələrində Xalq-Lider birliyi müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanda bu birlik uzun illərdir mövcuddur və müstəqil dövlətimizin nailiyyətlərinin əsasını təşkil edir. Bu birlik xüsusilə 44 günlük Vətən müharibəsində öz təntənəsini parlaq şəkildə yaşadı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin çağırışı ilə bütün xalq "dəmir yumruq" kimi birləşdi. Məhz xalq-lider-ordu birliyi sayəsində qısa müddətdə torpaqlarımız işğaldan azad edildi. Heç bir qüvvə bu sarsılmaz birliyin qarşısında duruş gətirə bilmədi. Təqdirəlayiq haldır ki, sözügedən birlik və həmrəylik siyasi müstəvidə də özünü ifadə edir. Belə ki, həm Vətən müharibəsində, həm də ondan sonrakı proseslərdə ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların mütləq əksəriyyəti birgə bəyanat verərək dövlət başçısının siyasətinə dəstək veriblər.

Onu da vurğulamaq lazımdır ki, son prezident seçkilərindən keçən iki il ərzində də Azərbaycan tarixi nailiyyətlərə imza atmaqdadır. Ötən ilin 8 avqustunda Vaşinqton görüşlərində Cənubi Qafqazda sülh üçün atılan addımlar tarixi önəm daşıyır. Eyni zamanda Azərbaycan Prezidenti İlham Əliyev ölkənin beynəlxalq aləmdə mövqeyini möhkəmləndirməklə mühüm siyasi uğurlar nümayiş etdirib. Bundan əlavə, Azərbaycanda keçmiş məcburi köçkünlərin öz yurdlarına Böyük qayıdış prosesi davam etdirilir. Beləliklə, prezident seçkilərindən ötən dövr ərzində Prezident İlham Əliyevin liderliyi ilə möhtəşəm nailiyyətlər qazanılıb. Bu nailiyyətlər davamlı və sistemli xarakter daşıyır.

***Pərvin KƏRİMZADƏ,***
***Milli Məclisin deputatı***

# Prezident İlham Əliyevin fəaliyyəti Zəfərə hədəflənir

**Hər bir xalqın taleyində böyük əhəmiyyət kəsb edən yaddaqalan tarixi günlər var. Həmin önəmli günlər xalqın keçmiş həyatında mühüm dönüş nöqtəsi, gələcəyi üçün bünövrə olur. Azərbaycan xalqı üçün də tarixi günlərdən biri 2003-cü il oktyabrın 15-idir. Həmin gün ölkəmizdə növbəti prezident seçkiləri keçirilmişdir.**

2003-cü ilin oktyabrında - prezident seçkiləri ərəfəsində Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək əsasını qoyduğu siyasəti davam etdirə biləcək liderin adını çəkərək demişdir: "...Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Seçkilərdə fəal iştirak edən xalqımız böyük tarixi şəxsiyyətin layiq bildiyi varisi - İlham Əliyevə səs verərək Prezident seçdi. Xalqımız bununla Ulu Öndər Heydər Əliyevin siyasi kursunun davamına səs vermiş oldu. Prezident seçiləndən sonra xalqa müraciət edən cənab İlham Əliyev "Mən hər bir azərbaycanlının prezidenti olacağam!" - vədini verdi və bu günəcən həmin vədinə sadiq qaldı.

Prezident İlham Əliyev ali dövlət vəzifəsinə seçiləndən sonra ilk günlərdən başlayaraq, nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara xidmət edən daxili və xarici siyasəti çox keçmədi ki, gözlənilən müsbət nəticələr verdi. Xalqın böyük sevgi ilə səs verdiyi liderinə inam və etimadı daha da artdı. Məhz buna görə də 2008-ci il oktyabrın 15-də, 2013-cü il oktyabrın 9-da və 2018-ci il aprelin 11-də keçirilən növbəti prezident seçkilərində xalqımız əmin-amanlığa, inkişafa, tərəqqiyə və quruculuğa, "Bizim uğurlarımızın əsas mənbəyi Azərbaycan xalqının fəaliyyətidir, Azərbaycan xalqının iradəsidir", - deyən İlham Əliyevə səs verdi.

7 fevral 2024-cü ildə ölkəmizdə keçirilən növbədənkənar prezident seçkilərində də müdrik xalqımız yüksək ovqatla seçki məntəqələrinə üz tutaraq tarixi seçimini etdi. Bir daha inkişafa, tərəqqiyə, sabitliyə, əmin-amanlığa, müdrik, uzaqgörən və hərtərəfli düşünülmüş siyasətə səs verdi. İki il əvvəl keçirilmiş prezident seçkiləri xalqımız üçün çox əlamətdar və yaddaqalan oldu. Çünki Azərbaycan müstəqillik qazandıqdan sonra ilk dəfə idi ki, prezident seçkiləri ölkəmizin bütün ərazilərində keçirildi. Seçki məntəqələri ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş ölkəmizin Xankəndi, Şuşa, Xocalı, Ağdərə və işğaldan azad olunmuş digər şəhər və qəsəbələrində də quruldu. Uzun illərdən sonra doğma ocaqlarına qayıtmış keçmiş məcburi köçkünlər böyük sevinc içində seçki məntəqələrinə getdilər. Yekdilliklə Yeni Azərbaycan Partiyasından prezidentliyə namizədliyi irəli sürülmüş qalib xalqın qalib lideri İlham Əliyevə səs verdilər. 7 fevral 2024-cü il növbədənkənar prezident seçkiləri Azərbaycanın tarixinə Zəfər seçkisi kimi yazıldı.

23 ildir Azərbaycana rəhbərlik edən Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin bünövrəsini qoyduğu möhtəşəm quruculuq işlərini sarsılmaz iradə və dönməz qətiyyətlə davam etdirərək ölkəmizin iqtisadi, siyasi, hərbi qüdrətini, beynəlxalq nüfuzunu daha da artırır. Buna görə də Azərbaycanın adı bu gün dünyanın aparıcı, tanınmış dövlətləri ilə bir sırada çəkilir. Dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizin iqtisadi gücü artıqca xalqımızın güzəranı və rifahı da yüksəlir. Prezident İlham Əliyev bu illər ərzində Azərbaycanın daha da güclənməsinə, inkişafına, dünyada tanınmasına, həmçinin ərazi bütövlüyümüzün və suverenliyimizin bərpasına nail olan xalqın sevimli Liderinə çevrilib.

Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatlar nəticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir. İqtisadi, siyasi gücü artan ölkəmiz beynəlxalq aləmdə söz sahibinə çevrilir. Zaman keçdikcə Azərbaycanın dostlarının, müttəfiqlərinin sayı çoxalır, dünyanın inkişaf etmiş ölkələri ilə iqtisadi və siyasi əlaqələrimiz daha da genişlənir.

Həm ölkəmizin, həm də dünyanın hərb tarixində önəmli yer tutan, tanınmış hərbi ekspertləri belə heyran qoyan, xalqımızın Zəfəri ilə başa çatan İkinci Qarabağ müharibəsi Prezident İlham Əliyevin sərkərdəlik məharətini, komandanlıq bacarığını da üzə çıxardı. Dünya 44 günlük Vətən müharibəsində Azərbaycanın hərbi gücünün, qüdrətinin, zabit və əsgərlərinin qəhrəmanlığının şahidi oldu. Azərbaycan Ordusu Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin sərkərdəliyi altında Ermənistan silahlı qüvvələrini darmadağın etdi, tarixi Zəfər qazandı. 30 ilə yaxın davam edən erməni işğalına son qoydu.

Erməni qəsbkarları üzərində qazanılan Zəfəri şərtləndirən ən mühüm amillərdən biri də Prezident İlham Əliyevin diplomatiya müstəvisində uğurla həyata keçirdiyi çevik siyasət oldu. İkinci Qarabağ müharibəsinin davam etdiyi günlərdə dövlətimizin başçısı 30-dan çox xarici kütləvi informasiya vasitəsinə müsahibələr verdi. Müsahibələrdə Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər, reallıqlar dünya ictimaiyyətinin diqqətinə çatdırıldı.

İkinci Qarabağ müharibəsi erməni işğalında qalmış torpaqlarımızın azad olunması, ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə başa çatdı. Bir zamanlar xəyal olunanlar 44 gün ərzində reallığa çevrildi. Xankəndidə, Şuşada, Xocalıda, Ağdərədə, Xocavənddə və başqa şəhərlərdə Zəfər bayrağı dalğalandırıldı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə qazanılmış və xalqımıza böyük sevinc bəxş etmiş Zəfər tariximizə qızıl hərflərlə həkk olundu. Qarabağın tacı, döyünən ürəyi olan Şuşanın azad edildiyi 8 noyabr tariximizə Zəfər Günü kimi yazıldı.

İkinci Qarabağ müharibəsi zəfərlə başa çatdıqdan sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə azad edilmiş ərazilərdə genişmiqyaslı bərpa və quruculuq işlərinə başlanıldı. Son iki ildə Qarabağda və Şərqi Zəngəzurda aparılan quruculuq işləri daha da sürətlənib. Demək olar ki, hər gün keçmiş köçkünlər doğma ocaqlarına qayıdırlar. Böyük qayıdış dövlət proqramı çərçivəsində şəhər və kəndlərimiz yenidən qurulur, müasir tələblərə cavab verən infrastruktur yaradılır, bu bölgələrin iqtisadiyyatı dirçəldilir. Prezidentin işğaldan azad olunmuş bölgələrə etdiyi səfərlər zamanı strateji infrastruktur obyektlərinin açılışı edilir, yenilərinin təməli qoyulur.

Azərbaycan bu gün dünyada transmilli layihələrin təşəbbüskarı, uğurlu icraçısı və etibarlı tərəfdaş kimi də tanınır. Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri, Azərbaycan qazını Avropaya çatdıran "Cənub qaz dəhlizi", Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolu, "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizləri ölkəmizi enerji və nəqliyyat qovşağına çevirib. Bütün bunlar Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini daha da möhkəmləndirib. İndi regionda reallaşdırılan bütün qlobal layihələr ölkəmizin iştirakı və milli maraqları nəzərə alınaraq həyata keçirilir.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Azərbaycanın nüfuzu gündən-günə yüksəlir

**7 fevral 2024-cü il növbədənkənar prezident seçkilərindən iki il ötür. Geridə qoyduğumuz bu iki il yalnız bir zaman kəsiyi deyil, Azərbaycanın "Zəfər seçkiləri"ndən sonra daxil olduğu yeni dövrün tam suverenlik, ərazi bütövlüyü, genişmiqyaslı quruculuq və qlobal təşəbbüskarlıq mərhələsinin əsasını təşkil edir. İkinci Qarabağ savaşında möhtəşəm qələbədən sonra keçirilən ilk prezident seçkilərinin də qalibi olan cənab İlham Əliyevin rəhbərliyi ilə ötən illər regionun geosiyasi arxitekturasını yenidən formalaşdıran hadisələrlə zəngindir.**

Bir məqamı da xüsusi olaraq vurğulamaq yerinə düşər ki, 2024-cü ilin fevralında keçirilən prezident seçkilərinin əsas xüsusiyyəti müstəqil Azərbaycan Respublikasında ilk dəfə səsvermə prosesinin ölkənin bütün şəhər və rayonlarında, o cümlədən işğaldan azad olunmuş Xankəndi, Şuşa, Xocalı və digər ərazilərimizdə baş tutması idi. Bu, həm də 30 illik həsrətə son qoyan milli birliyin təntənəsi idi.

Seçkilərdən sonrakı fəaliyyət proqramında Prezident İlham Əliyev əsas hədəfləri müəyyən etdi. Bu dövr Azərbaycan diplomatiyası üçün də kifayət qədər gərgin, lakin məhsuldar bir il kimi tarixə düşdü. Ermənistanla sülh prosesində bir müddət müşahidə olunan durğunluq və bəzi Qərb dairələrinin qeyri-konstruktiv müdaxilələri fonunda Azərbaycan öz prinsiplərindən geri çəkilmədi və nəhayət, 2025-ci il avqustun 8-də Vaşinqtonda keçirilən yüksəksəviyyəli üçtərəfli görüş və əldə edilən razılaşmalar sülh prosesində ciddi irəliləyişə nail olmaq imkanı verdi. ABŞ-nin yeni administrasiyasının vasitəçiliyi ilə gəlinən ortaq məxrəc, Azərbaycanın ərazi bütövlüyünün və sərhəd toxunulmazlığının qeyd-şərtsiz tanınması və haqlı tələblərin qəbul edilməsinin vacibliyi üzərində quruldu. Bu diplomatik qələbə göstərdi ki, rəsmi Bakı öz şərtlərini qəbul etdirmək iqtidarında olan qüdrətli tərəf olmaqla yanaşı, Cənubi Qafqazda dayanıqlı sülh və sabitliyin qarantı rolunda çıxış edir.

2026-cı ilin yanvarında Davosda keçirilən Dünya İqtisadi Forumundakı nitqində Prezident İlham Əliyevin vurğuladığı kimi, "Sülh yalnız kağız üzərində deyil, birgə iqtisadi maraqlar, açılan kommunikasiyalar və ticarət dövriyyəsi ilə qorunmalıdır". Bu kontekstdə Ermənistanla iqtisadi münasibətlərin bərpası və Zəngəzur dəhlizinin işə düşməsi artıq sadəcə nəqliyyat layihəsi deyil, bəşəri sülh modeli kimi də qəbul edilməlidir.

Ötən iki il ərzində işğaldan azad edilmiş ərazilərdə görülən işlər miqyasına görə dünyada analoqu olmayan bərpa prosesidir. Belə ki, işğaldan azad olunandan sonrakı illər ərzində Füzulidə, Zəngilanda və Laçında ən müasir tələblərə uyğun şəkildə tikilib istifadəyə verilən hava limanlarından sonra regionun logistik imkanları daha da genişləndirilmiş, yeni infrastruktur layihələri bütün rayonları əhatə etmişdir. Otuz ilə yaxın müddət ərzində məcburi köçkün həyatı yaşayan sakinlər mərhələli şəkildə öz doğma yurdlarına köçürülməkdədirlər. Xankəndi şəhəri isə Azərbaycanın mühüm təhsil və mədəniyyət mərkəzinə çevrilmişdir. Qarabağ Universitetinin fəaliyyətinin genişləndirilməsi bunun bariz nümunəsidir.

Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji" zonasına çevrilməsi istiqamətində aparılan işlər çərçivəsində günəş və külək-elektrik stansiyalarının inşası xarici investisiyaların, xüsusilə BƏƏ və Səudiyyə Ərəbistanı şirkətlərinin ölkəyə axınına səbəb olub.

Prezident İlham Əliyevin yeni mərhələdəki strateji baxışı düşmənçilik səhifəsini bağlayaraq, Cənubi Qafqazı vahid bir iqtisadi orqanizmə çevirməkdir. Hazırkı dönəmdə reallaşan təşəbbüslər də göstərir ki, Ermənistanın Azərbaycanın nəqliyyat-logistika şəbəkəsinə inteqrasiyası ilk növbədə özü üçün rifah deməkdir. Gömrük və sərhəd-keçid məntəqələrindən yüklərin daşınması üçün razılaşmalar, ticarət dövriyyəsinin stimullaşdırılması Cənubi Qafqazı Orta dəhlizin ən təhlükəsiz keçid nöqtəsinə çevirməkdədir.

Nəticə etibarı ilə Prezident İlham Əliyevin 2024-cü ilin fevralından başlayan ikiillik yeni fəaliyyət dövrü Azərbaycanı daxildə daha monolit, xaricdə isə daha nüfuzlu bir dövlətə çevirib. 2026-cı ilin bu günündən dönüb arxaya baxarkən də görürük ki, iki il əvvəl atılan hər bir imza, verilən hər bir vəd bu gün artıq reallığa çevrilib.

***Arzuxan ƏLİZADƏ,***
***Milli Məclisin deputatı***
***Milli İstiqlal Partiyasının sədri***



# Zəfər seçkisi

## Bu seçkidən ötən 2 il ərzində ölkəmizin əldə etdiyi uğurların müəllifi İlham Əliyevdir

**Prezident İlham Əliyevin ölkənin bütün strateji inkişaf məsələləri ilə bağlı konkret mövqeyi var. Bu mövqe ilk növbədə Azərbaycanın milli maraqlarıdır. Ölkəmizdə, regionda, ümumən dünyada sülh və inkişafın təmin olunması üçün formalaşan və həyata keçirilən strateji baxışlar sistemidir, qarşıya qoyulmuş böyük hədəflərdir.**

Dövlətimizin başçısı tərəfindən görülən işlərin, əməli addımların müasir dövrün reallıqlarına və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi bugünkü milli inkişafın təməl əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurlu tətbiqi və hədəflənən nəticələrin əldə olunması, sosial-siyasi islahatların ardıcıl qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və hüquqi dövlətin inkişafına maksimum əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin qorunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc müstəvisində sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəklikləridir.

2024-cü ilin 7 fevral tarixi milli dövlətçilik salnaməmizdə mühüm və əlamətdar əhəmiyyətə malik bir gündür. Həmin gün ölkəmizdə növdəbənkənar prezident seçkisi keçirilmiş və cənab İlham Əliyev səsvermədə iştirak edən seçicilərin 92,12 faizinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Bu Prezident seçkisinin əlamətdar məqamı onun Zəfər seçkisi olmasıdır. Müstəqillik və ümumilikdə milli dövlətçilik tariximizdə ilk dəfə idi ki, prezident seçkisi ərazi bütövlüyü və suverenliyi təmin edilən Azərbaycanda keçirilirdi. Səsvermə məntəqələri respublikanın bütün ərazisində təşkil olunmuşdu. Mahiyyət etibarı ilə bunu xalq sevgisinin, qürurunun ifadəsi də saymaq olardı. Səsvermə prosesində yüksək fəallıq göstərən Azərbaycan xalqı ölkəmizin ərazi bütövlüyünü, suverenliyini təmin etmiş, əsrlərin problemini yoluna qoymuş, millətin qəddini dikəltmiş, milli qürurunu yüksəltmiş, Azərbaycanı tarixinin ən qüdrətli mərhələsinə gətirib çıxarmış Liderə - İlham Heydər oğlu Əliyevə səs vermişdir. Bu həm də Azərbaycanın və regionumuzun sabahına verilən səs, cənab İlham Əliyevin strateji baxışı ilə formalaşan gələcəyə göstərilən yüksək etimad idi.

### Gələcəyə göstərilən etimad

2024-cü ilin 7 fevralından keçən müddət Azərbaycan dövlətinin tarixi nailiyyətlərinin davamında növbəti möhtəşəm bir mərhələyə çevrildi. Bu mərhələdə dövlətimizin başçısının xarici siyasət istiqamətində qazandığı nailiyyətlər xüsusilə müstəsna əhəmiyyət kəsb edir. Çünki müasir dünyamızda, qlobal çağırışlar mühitində, regionla bağlı yeni prioritetlərin müəyyənləşdiyi çağda xarici siyasət sahəsində qazanılmış hər uğur Azərbaycanın və bölgəmizin hərtərəfli yüksəlişi, insanların rifahına, xoşbəxtliyinə qoyulan sərmayə deməkdir.

2024-cü ilin fevralında keçirilən prezident seçkilərindən sonra Prezident İlham Əliyevin rəhbərliyi altında ölkənin xarici siyasəti yeni bir mərhələyə qədəm qoydu. Pespublikanın beynəlxalq mövqeyi və strateji əlaqələri son iki ildə əhəmiyyətli dərəcədə gücləndi, bu da Azərbaycanın regionda və dünyada nüfuzunu daha da artırdı. Tarixi Zəfərimiz nəticəsində ölkəmizin ərazi bütövlüyünün, suverenliyinin bərpasından sonra sülh gündəliyini irəli sürərək uğurla həyata keçirən Azərbaycan Prezidentinin əzmkarlığı, mahir diplomatiyası sayəsində bölgədə əbədi sülh, təhlükəsizlik, insanların gələcək xoşbəxt həyatı üçün möhkən təməllərin formalaşdırılmasına başlandı.

Prezident İlham Əliyevin bu il yerli televiziya kanallarına verdiyi müsahibədə xarici siyasət məsələləri ilə bağlı bölüşdüyü məqamlar son dərəcə mühüm əhəmiyyət kəsb edirdi. Cənab İlham Əliyev bu müsahibədə qlobal və regional proseslərin sistemli təhlilini apardı, nəticə etibarilə regionun gələcək mənzərəsini ictimaiyyətə açıq şəkildə təqdim etdi. Azərbaycanın xarici siyasətində əsas prioritetlərdən biri məhz güc və məsuliyyət balansının qorunması xüsusi qeyd olundu. Prezident bildirdi ki, hərbi gücdən yalnız müdafiə və təhlükəsizliyin təminatı üçün istifadə olunur. Məlumdur ki, 2020-ci və 2023-cü illərdə regiondakı hərbi üstünlüyünə baxmayaraq, Azərbaycan öz gücünü yalnız strateji və diplomatik məqsədlər üçün tətbiq etdi. Prezident İlham Əliyev müsahibədə bu məsələ barədə dedi: "…Öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan. Heç bir ölkə, heç bir rəhbər nahaq iş görməməlidir, heç bir ölkənin ərazi bütövlüyünə göz dikməməlidir, heç bir ölkəni işğal etməməlidir. Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda məsuliyyətimiz göz önündədir". Belə bir mövqe isə həm regionda sabitliyin qorunmasına, həm də Azərbaycanın beynəlxalq nüfuzunun güclənməsinə xidmət göstərir.

Azərbaycanın xarici siyasət strategiyasında eyni zamanda çoxqütblülük və balans mühüm yer tutur. Prezident İlham Əliyev 2025-ci ilin ölkəmiz və xalqımız üçün uğurlu, tarixi bir il olduğunu xüsusi qeyd etdi: "Çünki məhz keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Sülh şəraitində yaşamaq nə deməkdir, bunu öyrənirik. Çünki müstəqillik əldə ediləndən sonra, hətta ondan da əvvəl Azərbaycan xalqı və dövləti müharibə şəraitində yaşamışdır. Müharibənin müxtəlif mərhələləri olub. Siz də bunu yaxşı xatırlayırsınız. Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu".

### Sülh gündəliyi

Prezident İlham Əliyevin son iki ildə tarixi nəticələr verən sülh gündəliyinin region və beynəlxalq aləm üçün çox böyük əhəmiyyəti var, çünki o, Azərbaycanın xarici siyasətinin əsasını təşkil etməklə bir çox geosiyasi məsələlərdə sülhün bərqərar olunması üçün mühüm təşəbbüslər təqdim edir. Bu gündəlik, həmçinin regionda sabitlik və təhlükəsizliyin təmin olunmasına, münaqişə, təxribat niyyətlərinin qarşısının alınmasına, qarşılıqlı əməkdaşlığın inkişafına yönəlib.

Cənubi Qafqazın sabitliyi naminə regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsi üçün daimi təşəbbüslərin irəli sürülməsi də Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Bu, həm də regionun gələcək inkişafını və sabitliyini təmin etmək məqsədi daşıyır.

Azərbaycan sülh gündəliyini irəli sürməklə, qonşu ölkələrlə əməkdaşlığın daha da dərinləşməsinə, müxtəlif regional təşkilatlarda birgə aktiv iştiraka zəmin yaradır. Bu, iqtisadi və ticarət əlaqələrinin möhkəmlənməsi, həmçinin regional təhlükəsizliyin artırılması baxımından vacibdir.

Sülh və təhlükəsizlik mühiti iqtisadi inkişaf üçün əsasdır. Azərbaycanın təşəbbüsçüsü olduğu iqtisadi layihələr, xüsusən enerji və nəqliyyat sahələrindəki fəaliyyəti həm regional, həm də beynəlxalq səviyyədə iqtisadi əməkdaşlığa müsbət təsir göstərir. Azərbaycan beynəlxalq təşkilatlarla, dünyanın aparıcı ölkələri ilə fəal əməkdaşlıq edərək, ölkəmizin sülh və təhlükəsizlik məsələlərindəki mövqeyini daha da gücləndirir. Bu baxımdan, Birləşmiş Ərəb Əmirliklərinin nüfuzlu Şeyx Zayed Fondunun Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevi "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görməsi təkcə Azərbaycan Prezidentinin fəaliyyətinə verilən ali qiymət deyil, eyni zamanda ölkəmizin son illər yürütdüyü sülh, dialoq və humanizm siyasətinə beynəlxalq səviyyədə dəstəyin təzahürüdür.

Şeyx Zayed Fondunun mükafatı Prezident İlham Əliyevin ardıcıl şəkildə formalaşdıraraq həyata keçirdiyi sülh gündəliyinin artıq regional çərçivələri aşaraq qlobal mənəvi platformaya çevrildiyini nümayiş etdirir. Bu gün Azərbaycanın sülh modeli artıq təkcə regional hadisə olmayıb, dünyadakı digər münaqişələrin həlli üzrə də nümunəvi təcrübə kimi diqqət çəkir. Azərbaycan modeli beynəlxalq hüquqa əsaslanan ardıcıl, prinsipial mövqeyini, hərbi qələbənin siyasi nəticəyə çevrilməsini, qalib tərəfin sülh təşəbbüskarı olması faktını, revanşizmin vaxtında neytrallaşdırılması əzmini, sabitlik və inkişafın prioritet seçilməsi və s. bu kimi əhəmiyyətli amilləri özündə ehtiva edərək mütləq qələbənin tam formulu kimi görünür.

Azərbaycan cənab İlham Əliyevin liderliyi ilə Vətən müharibəsində öz haqqını bərpa etdi, nəinki özünün, ümumən Cənubi Qafqaz regionunun da gələcəyini qurmağa başladı. Bu mənada Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunmuş qələbə təkcə Azərbaycanın deyil, həmin bölgənin sabahı naminə qazanılmış qələbədir, Azərbaycan Prezidentinin sülh gündəliyi regionumuzun xoşbəxtliyi, sabitlik və daim inkişafda olması üçün addım-addım irəli aparılan prosesdir.

Birləşmiş Ərəb Əmirliklərinin Şeyx Zayed Fondunun Azərbaycan Prezidentinə təqdim etdiyi "Zayed İnsan Qardaşlığı Mükafatı" isə ölkəmizin sülh təşəbbüslərinin legitimliyini artırır, cənab İlham Əliyevin regional liderlik statusunu daha da möhkəmləndirir, ölkəmizin beynəlxalq humanitar imicinə yeni məzmun qazandırır, dövlətimizin islam dünyası ilə mənəvi bağlarını gücləndirir. Bu mükafat sülhə, əmin-amanlığa, inkişafa verilən beynəlxalq qiymətdir. Ona görə də bu mükafat son dərəcə dəyərlidir və mühüm tarixi əhəmiyyət daşıyır. Bu həm də diplomatik üstünlüyün açıq göstəricisidir.

### Müstəqil siyasətin təntənəsi

Ötən ilin 8 avqustunda Vaşinqtonda - Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanması, görüşün nəticələrinə dair Birgə Bəyannamənin imzalanması ölkəmizin son illərdəki ən böyük xarici siyasət uğurlarındandır. Bu, dövlətimizin həm regionda, həm beynəlxalq arenada yürütdüyü balanslı, müstəqil siyasətin təntənəsidir və Azərbaycanın beynəlxalq güc mərkəzləri ilə əlaqələrinin hansı səviyyəyə qədər yüksəldiyini göstərir. Uzun illər ərzində münaqişənin həlli, regionda sülhün əldə olunması istiqamətində ciddi bir iş görə bilməmiş ATƏT-in Minsk qrupu Vaşinqton görüşü ilə tarixin arxivinə göndərildi. Azərbaycan regionun lideri kimi Cənubi Qafqazın gələcəyinə görə üzərinə daha bir tarixi missiya götürmüş oldu.

ABŞ-nin Azərbaycanın irəli sürdüyü sülh gündəliyində fəal iştirakı, Cənubi Qafqazda dayanıqlı sülhün yalnız regional əhəmiyyətini deyil, qlobal enerji və ticarət marşrutlarının şaxələndirilməsi baxımından da önəmini vurğulayır. Sülhün bu genişmiqyaslı strategiyanın bir hissəsi olduğunu göstərir və təbii ki, bu strategiyada respublikamızın mövqeyini daha da gücləndirir.

Azərbaycanın xarici siyasətinin Vaşinqton uğurunun mühüm elementlərindən biri də Zəngəzur dəhlizi, yeni adı ilə desək, TRIPP (Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu) təşəbbüsüdür. Bu marşrut, Ermənistanın ərazisindən keçərək Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək və mahiyyət etibarilə qlobal əhəmiyyətli regional bağlantı şəbəkəsinin qurulmasına töhfə verəcək. Bütün bunlar Xəzər regionunun strateji mənzərəsinin yenidən formalaşdırılması istiqamətində son illərdə atılan mühüm addımlardır. Azərbaycan üçün bu proseslər həm Qərb, həm Şərq istiqamətində yeni imkanların açılmasında, ölkənin Mərkəzi Asiya ilə əlaqələrdə əsas körpü rolunun daha da gücləndirilməsində böyük əhəmiyyət kəsb edir.

Azərbaycan-Vaşinqton görüşündən sonra da bu dinamikanı qorumaqla yalnız regional enerji və tranzit qovşağı olmaqla kifayətlənmir, həm də sülh gündəliyinə əsaslanaraq daha geniş coğrafiyada oyun qaydalarını müəyyən edən mühüm siyasi aktora çevrilir.

Azərbaycan ABŞ ilə münasibətləri getdikcə daha da inkişaf etdirməkdədir. Eyni zamanda Türkiyə ilə strateji müttəfiqlik, əməkdaşlıq əlaqələri qorunub saxlanılır və daha da dərinləşdirilir.

Rusiya, İran, Gürcüstan kimi qonşu dövlətlərlə, Çin kimi nəhəng güc mərkəzləri ilə, Avropa, Ərəb ölkələri ilə münasibətlər də ölkəmizin xarici siyasətinin mühüm tərkib hissələrindən biri kimi qarşılıqlı və faydalı şəkildə davam etdirilir, birgə layihələr uğurla reallaşdırılır.

### İqlim dəyişikliyinə qarşı mübarizənin önündə

Azərbaycan beynəlxalq ekoloji təşkilatlarla da əlaqələrini daim genişləndirir. 7 fevral Prezident seçkisindən sonra 2024-cü ilin noyabrında Azərbaycan "Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası"na (COP29) uğurla evsahibliyi etdi və bu, ölkəmizin son iki ildəki diplomatik nailiyyətləri sırasında ən qürurverici faktlardan biri kimi öz yerini tutdu.

Azərbaycanın COP29 kimi əhəmiyyətli bir tədbirə evsahibliyi etməsi və bunun nəticələri ölkəmizin mühüm strateji uğurudur. COP tədbirləri qlobal miqyasda iqlim dəyişikliyi ilə mübarizə, dayanıqlı inkişaf və ətraf mühitin qorunması məsələlərinin müzakirə olunduğu ən önəmli beynəlxalq platformalardır. Azərbaycanın bu tədbirə evsahibliyi etməsi bir neçə vacib səbəbə görə xarici siyasət baxımından da əhəmiyyət kəsb edir. İlk növbədə, bu, ölkəmizin beynəlxalq iqlim ölkəsi kimi mövqeyini gücləndirdi, respublikamızı qlobal iqlim dəyişiklikləri ilə mübarizəyə qatılmış dövlətlərdən biri kimi tanıtdı. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan yalnız enerji ixracatçısı kimi deyil, həm də iqlim dəyişikliyi ilə mübarizəyə töhfə verən bir dövlət kimi yüksək nüfuz qazandı.

Bu tədbirin yaratdığı imkanlarla ölkəmiz diplomatik əlaqələrini daha da genişləndirdi. Azərbaycanın "yaşıl enerji" və dayanıqlı inkişaf sahəsindəki təşəbbüsləri dünya birliyinə təqdim olundu. Ölkəmiz regionda iqlim dəyişikliyinə qarşı mübarizənin lideri mövqeyini möhkəmləndirdi, regional əməkdaşlıq imkanlarını artırdı. Bütün bunlardan əlavə, həm də yeni iqtisadi imkanlar, investisiya cəlb etmək, bərpaolunan enerji sahəsində əməkdaşlıq qurmaq və qlobal ekoloji təşəbbüslərə qatılmaq üçün yeni zəmin əldə edildi.

### "Ailəmiz türk dünyasıdır"

Azərbaycanın son 2 ildəki xarici siyasət uğurlarının mühüm bir qismi də Türk Dövlətləri Təşkilatının fəaliyyəti ilə bağlıdır. Prezident İlham Əliyev 14 fevral 2024-cü ildə Milli Məclisdə andiçmə mərasimindəki proqram xarakterli çıxışında türk dövlətləri ilə əməkdaşlıqdan, birlikdən, qarşıdakı illərdə bu istiqamətdə atılacaq növbəti addımlardan söz açaraq demişdir: "Biz beynəlxalq təşkilatlarla bağlı bundan sonra da öz addımlarımızı atacağıq, ilk növbədə, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir, mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz türk dünyasıdır".

Azərbaycan Türk Dövlətləri Təşkilatının (TDT) qurucularından biri və mühüm aparıcı üzvü olaraq son iki ildə də bu beynəlxalq təşkilatın fəaliyyətində, getdikcə güclənməsində əhəmiyyətli rol oynamışdır. Azərbaycan təşkilatın əsas prinsiplərinə sadiq qalaraq, həm regionda, həm də qlobal arenada türk dünyasının maraqlarını müdafiə edir.

Ölkəmizin TDT-dəki əsas rolu onun regional və beynəlxalq təhlükəsizlik məsələlərindəki aktiv iştirakı ilə də möhkəmlənir. Xüsusilə ərazi bötüvlüyümüzün və suverenliyimizin bərpasından sonra ölkəmizin bölgədəki sabitlik təşəbbüsləri TDT çərçivəsində də mühüm əhəmiyyət daşıyır. Bu təşkilat daxilində fəaliyyət Azərbaycanın region ölkələri ilə sıx əlaqələrinin daha da gücləndirilməsində mühüm və vacib platforma rolunu oynayır.

Azərbaycan türk dünyasının iqtisadi inkişafını dəstəkləyən bir çox təşəbbüslərin öncülü rolunda da çıxış edir. Xüsusilə nəqliyyat, enerji və ticarət sahələrindəki əməkdaşlıq Azərbaycanın regionda iqtisadi cəhətdən güclənməsinə töhfə verir. Azərbaycan həmçinin TDT ölkələri arasında mədəniyyət və təhsil sahələrində də əlaqələri gücləndirərək türk dünyasının ortaq kimliyinin qorunmasına və inkişafına böyük dəstək göstərir.

Azərbaycanın TDT-dəki rolu, onun türk dünyasının birliyini möhkəmləndirmək, regional və qlobal məsələlərdə birgə fəaliyyət istiqamətindəki iradəsini bir daha göstərir. Ən mühüm məqamlardan biri isə bundan ibarətdir ki, bu təşkilatın fəaliyyəti kimlərinsə maraqlarına qarşı yönəlməyib. Əksinə, Azərbaycan TDT-yə qlobal məcrada bütün maraqlı tərəflər üçün böyük faydalar yaradan əməkdaşlıq və inkişaf platforması kimi yanaşır və xarici siyasətində bu amili də nəzərə alır.

Azərbaycan ötən 2 ildə BMT, Avropa İttifaqı, Qoşulmama Hərəkatı kimi qlobal təşkilatlarla da əlaqələrini möhkəmləndirmiş, həyata keçirilən birgə layihələr yeni uğurlara vəsilə olmuşdur. 7 fevral 2024-cü ildə cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsindən sonrakı 2 il ölkəmizin xarici siyasətində hər cəhətdən yeni bir inkişaf mərhələsi olmuşdur. Azərbaycan bu mərhələdə əldə edilmiş strateji uğurlarla daha da qüdrətlənmiş, dünyadakı nüfuzunu, qlobal proseslərə təsir imkanlarını artırmışdır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Ata öyüdü, oğul örnəyi




**Ulu Öndər Heydər Əliyev bu sözləri də böyük uzaqgörənliklə demişdi. Demişdi ki, onun sona çatdıra bilmədiyi işləri İlham Əliyev başa çatdıracaq. Birbaşa mətləbə keçərək xatırlayaq ki, bu sözlər deyilən zaman ölkənin enerji sektorunda da başlanmış mühüm işlər, qlobal layihələr vardı və onları irəli aparmaq kimi çətin vəzifə Prezident İlham Əliyevin üzərinə düşdü.**

O vaxt "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlarının şah damarı sayılan "Azəri" hələ neft verməmişdi. "Əsrin müqaviləsi" adını almış bu layihə çərçivəsində yalnız "Çıraq"dan hasilat alınırdı. Bakı-Tbilisi-Ceyhan (BTC) kəmərinin tikintisinə yenicə başlanmışdı. Ulu Öndərin çətin mübarizələrdən keçirərək araya-ərsəyə gətirdiyi bu möhtəşəm layihə təzəcə nəfəsini dərib irəliləyirdi. Bakı-Tbilisi-Ərzurum kəməri də heç yox idi. Çünki bu kəmərin daşıyacağı qaz "Şahdəniz"dən əldə olunacaqdı. Orada isə hələ kəşfiyyat, qazma və digər işlər gedirdi...

Qısaca deyək: Prezident İlham Əliyevin müdrik rəhbərliyi ilə bu layihələrin hamısı icra olundu və böyük uğurla tamamlandı. Başlanmış işlər nəinki sona çatdırıldı, hətta genişləndi, şaxələndi. Belə ki...

2004-cü il fevralın 3-də Bakıda, "Gülüstan" sarayında BTC layihəsinin maliyyələşdirilməsi ilə əlaqədar son sənədlər imzalandı. 2005-ci il fevralın 18-də dövlət başçısı Xəzərin qoynunda quraşdırılmış "Mərkəzi Azəri" platformasına gəldi və buradan ilkin neftin alınması münasibətilə keçirilən möhtəşəm tədbirdə iştirak etdi. Bu, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinə vurulacaq neft idi! Bu hadisə ilə "Əsrin müqaviləsi" öz kulminasiya nöqtəsinə çatmışdı!

Elə həmin il mayın 25-də Bakı yaxınlığındakı Səngəçal terminalından neft tikintisi artıq tamamlanmış BTC-yə vuruldu. Bu, həm də kəmərin Azərbaycan hissəsinin istifadəyə verilməsi demək idi. Tarixi hadisənin qeyd edilməsində Gürcüstanın, Türkiyənin, Qazaxıstanın ovaxtkı prezidentləri də iştirak etdilər.

Növbəti il iyulun 13-də isə BTC tam sistem kimi işə salındı və həmin vaxtdan rəvan yollarla irəliləyir. İndi bu kəmər "Azəri-Çıraq-Günəşli"nin neftini daşımaqla yanaşı, həm də regionun əsas neft ixracı arteriyasına çevrilib. Təkcə özümüzə deyil, bütün regiona xeyir-bərəkət gətirir.

AÇG demişkən, İlham Əliyev bu layihənin, yəni "Əsrin müqaviləsi"nin də ömrünü uzatdı. 2017-ci il sentyabrın 14-də bu yataqlar blokunun işlənməsinin 2050-ci ilin əvvəlinədək uzadılması barədə saziş imzalandı. Məqsəd AÇG-nin potensialını tam üzə çıxarmaqdır. Lakin blokun potensialı təkcə neft deyil. Əslində, indi "Azəri-Çıraq-Günəşli" həm də dərin laylarından qaz vəd edir. Cari ildə həmin qazın hasilatı gözlənilir və bütün bu işlər Prezidentin nəzarətindədir.

Qazdan söz düşmüşkən isə onu vurğulayaq ki, Azərbaycan məhz İlham Əliyevin Prezidentliyi dövründə dünyada mavi yanacaq ixracatçısı kimi tanındı. Onun enerji siyasətinin şah əsəri sayılan "Şahdəniz"in qazı 2006-cı ildən Gürcüstana, 2007-ci ildən Türkiyəyə, 2020-ci ilin son günündən başlayaraq isə Avropaya ixrac olunur. Azərbaycandan və Gürcüstandan keçən Cənubi Qafaz Boru Kəməri (CQBK) Türkiyənin ərazisində daha 280 kilometr uzadılaraq Bakı-Tbilisi-Ərzurum kəməri adını aldı.

Daha sonra isə CQBK genişləndirilərək möhtəşəm bir enerji dəhlizinin də birinci seqmenti oldu. Söhbət Azərbaycan qazını Avropaya nəql edən "Cənub qaz dəhlizi"ndən gedir. Üç kəmərin - CQBK, TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) birləşməsindən yaranan 3500 kilometrlik bu dəhlizin də təşəbbüskarı İlham Əliyevdir. Bunu təkcə özümüz demirik. Dünyanın bir çox görkəmli siyasətçiləri etiraf edirlər ki, bu meqalayihənin aparıcı qüvvəsi Azərbaycandır, onun reallaşmasında Azərbaycan Prezidentinin səyləri, zəhməti və nüfuzu ölçüyəgəlməzdir.

Azərbaycan qazının uğur hekayəsi davam edir. "Cənub qaz dəhlizi" Avropanın enerji xəritəsini dəyişdirib. Ölkəmiz artıq Pan-Avropa qaz təchizatçısı adını qazanıb. Təsadüfi deyil ki, 2015-ci ildən başlayaraq, "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının illik toplantılarının hamısı Bakıda keçirilib. İndiyədək olan 11 iclasın hamısında dövlətimizin başçısı iştirak edib, çıxış edib, tədbirə gələn görkəmli siyasi xadimləri və dünyanın enerji sektorunun görkəmli nümayəndələrini qəbul edib. Bu da işlərin gedişinə böyük təkan və fayda verib.

Və daha önəmli bir fakt: 2024-cü il fevralın 7-də, yəni xalqımız İlham Əliyevi növbəti dəfə özünə lider seçdiyi vaxt Azərbaycan 8 ölkəyə qaz ixrac edirdi - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, İtaliya, Rumıniya, Macarıstan və Serbiyaya. Bu gün, həmin vaxtdan cəmi ikicə il sonra onların sayı 16-dır - iki dəfə çox! İki il ərzində Azərbaycan qazının idxalçılarına çevrilən ölkələr bunlardır: Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna, Suriya, Almaniya və Avstriya. Bu coğrafiyanın özü də göstərir ki, Azərbaycan qazı Qərbə və Yaxın Şərqə doğru inamla irəliləyir.

Ölkəmizin bu inamını dünya hazırkı enerji keçidində də aydın görür. Belə ki, "yaşıl gündəliy"imiz artıq hamıya bəllidir. Buna bir vasitə də 2024-cü ilin noyabrında Azərbaycanın evsahibliyi etdiyi COP29 oldu.

Azərbaycanın "yaşıl enerji" mənbələrinin texniki potensialı böyükdür - quruda 135, dənizdə isə 157 qiqavat təşkil edir. İşğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası Prezident İlham Əliyev tərəfindən "yaşıl enerji" zonaları elan olunub. Bunun da əsası var. Çünki bərpaolunan enerji resurslarının texniki potensialı Qarabağ və Şərqi Zəngəzurda 10 qiqavat, Naxçıvanda isə 5 qiqavat həcmində qiymətləndirilir. İşğaldan azad edilmiş ərazilərimizdə beş il ərzində 39 su-elektrik stansiyası tikilib.

İndi bu ərazilərdə daha böyük bərpaolunan enerji layihələri icra olunmaqdadır. COP29-un davam etdiyi günlərdə Cəbrayıl rayonunda BP şirkəti ilə birlikdə tikiləcək 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının təməli qoyuldu və hazırda layihə qrafika uyğun irəliləyir.

Ümumiyyətlə, "yaşıl enerji" layihələri artıq digər şəhər və bölgələrimizə də "addımlayır". Bu istiqamətdə ən böyük uğurlarımızdan biri 2023-cü ildə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti ilə tikilən 230 meqavatlıq "Qaradağ" Günəş-Elektrik Stansiyasının istifadəyə verilməsidir.

Bu yaxınlarda isə 240 meqavat gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyası istismara verildi. Stansiyanın açılışında çıxış edən Prezident İlham Əliyev dedi: "Son illər ərzində ölkəmizdə yeni generasiya güclərinin istismara verilməsi həm çox mürəkkəb, həm məsuliyyətli bir prosesdir. O cümlədən bərpaolunan enerji növlərinin böyük həcmdə ümumi enerji sistemimizə inteqrasiya etməsi də, əlbəttə ki, böyük peşəkarlıq tələb edir, böyük vəsait tələb edir. Nəzərə alsaq ki, bundan sonrakı illərdə bərpaolunan enerji stansiyalarının Azərbaycanda tikintisi çox geniş vüsət alacaq, əlbəttə, Azərbaycan energetiklərinin fəaliyyəti daim yüksək səviyyədə olmalıdır. Yəni burada biz çox uğurlu beynəlxalq əməkdaşlıq nümunəsini görürük. Onu da bildirməliyəm ki, bundan sonra bərpaolunan enerji növlərinin yaradılması ilə daha çox xarici investorlar məşğul olacaqlar. Halbuki Azərbaycan şirkətləri də bu məsələyə maraq göstərməyə başlamışlar və artıq bir neçə günəş-elektrik stansiyasının tikintisinə də başlanılmışdır".

Dövlətimizin başçısı növbəti inamla bildirir ki, növbəti "yaşıl enerji" stansiyalarımız Naxçıvanda, Biləsuvarda, Neftçalada, işğaldan azad edilmiş ərazilərdə və digər bölgələrdə açılacaq.

Prezident İlham Əliyevin enerji siyasətinin hədəflərindən biri də "yaşıl enerji"nin ixracıdır. Azərbaycan yaxın gələcəkdə bərpaolunan enerjinin ixracatçısı olmaqla yanaşı, onun tranzitini də həyata keçirəcək. Yəni həmçinin regional gündəlikdə "yaşıl enerji" layihələri üzərində iş gedir. Təkcə Azərbaycanda deyil, Mərkəzi Asiya ölkələrində də günəş və külək-elektrik enerjisi stansiyaları yaradılır. Dövlətimizin başçısı bu istiqamətdə də əməkdaşlığı genişləndirir. Bakıda COP29 çərçivəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalamışlar. Həmin sənədə əsasən, Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi nəzərdə tutulur. Bu xətt Mərkəzi Asiyada istehsal olunan "yaşıl enerji"ni Azərbaycanın infrastrukturuna birləşdirəcək.

Xatırladaq ki, 2022-ci il dekabrın 17-də isə Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanmışdır. Bunun üçün Qara dənizin dibi ilə "yaşıl enerji" kabeli çəkiləcək. Yəni region təkcə Cənubi Qafqazı əhatə etmir, burada daha geniş coğrafiya əhatə olunur. Mərkəzi nöqtə isə məhz Azərbaycandır.

Bütün bunlarla yanaşı, Azərbayan Prezidenti yanacaq enerjisinin hasilatına və ixracına diqqəti azaltmır. Təsadüfi deyil ki, bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində dövlətimizin başçısı neft hasilatının sabitləşdirilməsini və qaz hasilatının artırılmasını vacib məsələ kimi qeyd edib.

Prezidentimiz yeri gələndə bəzi ölkələrin "faydalı qazıntı allergiyası"na tutarlı cavab da verir. Belə ki, bu məsələyə də həmişə uzaqgörənliklə yanaşır. Çıxışlarından tək birini xatırlasaq kifayətdir. COP29 ərəfəsində - 2024-cü il aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edərkən dövlətimizin başçısının dediyi sözləri yada salaq: "Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvüdür. Hesab edirəm ki, bu həmçinin əlavə üstünlükdür, çünki təbii sərvətləri, xüsusən də neft və qazı zəngin olan ölkə iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır. Beləliklə, həmin müxtəlif rollar, fikrimcə, yaxşı həmrəylik ruhunu yaradacaq və bizə məqsədlərimizə nail olmağa imkan verəcək. COP-a evsahibliyi edəcək ölkə kimi seçilməyimizdən dərhal sonra bəzi mətbuat orqanları əsas diqqətini bizim enerji quruluşumuza və enerji tarixçəmizə yönəltdilər. Mən hər zaman demişəm ki, neft və qaz ehtiyatları bizim günahımız deyil. Bu, Tanrıdan verilən vəsilədir. Buna görə biz mühakimə olunmalı deyilik. Biz həmin ehtiyatların ölkənin inkişafına, yoxsulluğun və işsizliyin azaldılmasına, "yaşıl gündəlik"lə bağlı tutduğumuz hədəflərə yönəldilməsinə görə dəyərləndirilməliyik. Neft və qazımız həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Vətən sevgisi

## Yaxud bir şəklin doğurduğu hisslər



**Vətən sevgisi müqəddəs və ülvidir. Vətənə sevgi gendən, kökdən gəlir, milli-mənəvi dəyərlərdən, tərbiyədən qaynaqlanır. Adına yurd deyilən diyarın, doğulub boya-başa çatdığın elin-obanın əzəli və əbədi hissidir vətən sevgisi. 5-10 günlük xarici səfərdən dönüb ayağını doğma torpağa qoyanda keçirdiyin ifadəsi mümkünsüz hisslərin, yaşadığın sirli-sehrli, varlığını titrədən duyğuların cövhəridir vətən sevgisi.**

Qarabağ müharibəsində vətən sevdalı oğullar məhz o müqəddəs sevginin hökmü ilə silaha sarılıb ölüm-qalım savaşına atıldılar. Kimi Zəfər Gününü gördü, kimi şəhid olub əbədiyyətə qovuşdu. Qanları, canları bahasına doğma vətəni şərəfləndirən, 30 illik işğala son qoyan qəhrəman oğullar üçrəngli bayrağımızı cənnətməkan Qarabağ və Şərqi Zəngəzurun ən uca zirvələrinə sancıb düşmənə gözdağı verdilər. Vətənə sevgi dastanı yazan Mübarizlər, Xudayarlar bir əbədiyyət nəğməsi yaratdılar, vətən sevdalı könülləri dünya durduqca nura boyamağa qadir bir məşəl yandırdılar. Müstəqil Aərbaycan adlı qüdrətli dövlətimizin var olacağı bütün zamanlarda bu məşəl dünyaya yeni gələn nəsillərin yoluna daim işıq saçmağa, vətən sevgisi ocağını alovlandırmağa qadirdir.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin qüdrətli sərkərdəliyi ilə şanlı ordumuz işğalçı erməniləri şərti sərhədlərədək qovub ərazilərimizdən çıxardı, Qarabağa, Zəngəzura aparan yolumuzu açdı. Üzü dönük ayrılığın, həsrət dolu, niskil dolu illərin ağrı-acısı qamətini əydiyi, belini bükdüyü ağsaqqallarımız, ağbirçəklərimiz uşaq sevincinə bürünüb xatirələrin sorağıyla Şuşaya, Ağdama, Laçına, Zəngilana, Cəbrayıla, Qubadlıya, Kəlbəcərə.... qanadlandılar. Onların sevinc dolu göz yaşlarını görmək, amansızlıqla dağıdılmış, yağmalanmış evlərini ziyarət edərkən şükranlıq dualarını eşitmək, odu, hərarəti azalmış, dərisi qırışmış əlləri ilə mamır bağlamış daşlara necə nəvazişlə sığal çəkdiyinə şahidlik etmək adamı sirli-sehrli bir aləmə aparır. Elə bir aləmə ki, orada saflıq, paklıq göz qamaşdırır, bəşəri duyğular hökmranlıq edir. O aləmdə çöhrələrdən təbəssüm yağır, o aləmdə dünya şirin bir ana laylasına uyuyan qayğısız körpəyə bənzəyir.

Bu yerdə yaddaşımıza həkk olan bir fotoşəkil gözlərimiz önündə canlanır. Bəzən bir şeirlə, bir hekayə ilə, bəzən adi bir şəkillə də nümunə yaratmaq mümkündür. Gündəlik mətbuatda Prezident İlham Əliyevin müxtəlif fotolarını görürük. Yaddaşımızda qalan bu şəkil isə son dərəcə təbii, səmimi və fərqlidir. Jurnalistikada uğurla fotoya "danışan şəkil" deyirlər. Cənab Prezidentin çayın kənarındakı daş üstə oturub uzaqlara baxan anda çəkilən şəkli, sözün həqiqi mənasında, dil açıb danışır. Məchul bir nöqtəyə dikilən baxışlarında Qarabağ savaşındakı itkilərimizdən qaynaqlanan bir hüzn gizlənib. Görkəmindən yorğun olduğu hiss edilir. Uzun və şərəfli bir yolun yolçusu, zəfərlə bitirdiyi ağır döyüşlərin qalib sərkərdəsi sanki dincəlməyə bir anlıq macal tapıb. O, ata vəsiyyətini, vətən borcunu yerinə yetirən bir oğul olaraq çox xoşbəxtdir, bəxtiyardır və o üzdən azad etdiyi Vətənin qoynunda, vurğunu olduğu Kiçik Qafqazdan süzülüb gələn göz yaşı kimi dupduru çayın sahilində dincəlməyə haqqı var.

Qəhrəmanlar canı-qanı, həyatı hesabına torpağı vətən edən oğullardır. Vətəni dünyaya tanıdanlar isə ali siyasi liderlər, alimlər, yazıçılar, sənətkarlardır. 44 günlük müqəddəs Vətən savaşında biz birləşdik və milli birliyimiz tarixin çətin sınağından üzüağ çıxdı. Yenilməz birliyimizlə düşməni diz çökdürdük.

Bu birliyi bütün zamanlarda göz bəbəyi kimi qorumalıyıq.

Biriksə, güclüyük!

Güclülər isə hər zaman qalib olurlar!

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

# Xalqın iradə manifesti

**Taleyüklü zamanda liderlərin tarixdəki yeri onların əməlləri ilə müəyyən olunur. Prezident İlham Əliyevin 2024-cü il fevralın 7-də keçirilmiş növbədənkənar seçkidə xalqın böyük etimadı ilə 7 il müddətinə Prezident seçilməsi məhz belə bir tarixi reallığın təzahürüdür. Bu qələbə illərlə aparılan mübarizə, əldə edilən uğurlar, milli maraqların təminatı və ədalətin bərpası hesabına qazanıldı. İlham Əliyev həmin seçkidə zamanın sınaqlarını məğlub edərək qalib lider olduğunu növbəti dəfə sübut etdi.**

Bu seçki səngərdən başlayan, meydanlarda möhkəmlənən və səsvermə qutularında təsdiqlənən tarixi iradənin davamı idi. Millət döyüş meydanında bir yumruq kimi necə sıxılmışdısa, seçki məntəqələrində də eyni ruhla, eyni əminliklə mövqe bildirdilər. Bu seçki zamanı xalq bir daha Ali Baş Komandan İlham Əliyevin ətrafında birləşərək göstərdi ki, Zəfər qiymətsiz qala bilməz. Bu seçki şəhidlərin qanı ilə yazılan Zəfər dastanı ilə möhürləndi və xalqın siyasi iradəsi ilə imzalandı. Bu seçki milli yaddaşın ədaləti, tarixi məsuliyyətin davamı və qalib xalqın qalib liderinə verdiyi qiymət idi.

Xalq liderini təkcə sözü və əməli bir olduğuna görə yox, tarixi məsuliyyəti üzərinə götürüb ikiəsrlik problemi həll etdiyi üçün dəstəklədi. Orduya rəhbərlik edən, dağıdılmış torpaqlara həyatı qaytaran, Azərbaycanın sözünü regiona və dünyaya çatdıran lider seçkidə siyasi etimadın ən yüksək zirvəsinə ucaldı. Bu qələbə həm də dünyaya açıq mesaj idi: Azərbaycan cəmiyyəti güclü dövlət, qətiyyətli rəhbər və milli maraqlara söykənən siyasət istəyir, riskli eksperimentləri yox, özünü sübut etmiş lideri dəstəkləyir. İlham Əliyevin qalib sərkərdə kimi yenidən prezident seçilməsi güclü Zəfərin seçki yolu ilə davamı, dövlətçilik kursunun xalq tərəfindən dəstəklənməsi idi.

44 günlük Vətən müharibəsindəki Zəfər və sonrakı növbədənkənar prezident seçkisinin nəticəsi 2003-cü ildə Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına müraciətindəki bu fikirləri bir daha təsdiqlədi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin bu müraciəti təkcə siyasi varisliyin bəyanı deyildi, Azərbaycanın gələcəyinə dair strateji baxışın ifadəsi idi. Heydər Əliyevin İlham Əliyevi "yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını dərindən bilən, enerjili və təşəbbüskar şəxsiyyət" kimi xarakterizə etməsi illər sonra real nəticələrlə öz təsdiqini tapdı. İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan mürəkkəb regional və qlobal proseslərdən güclənərək çıxdı. Ən əsası isə 30 il xalqın qəlbində yaşayan Qarabağ həsrətinə son qoydu. Ulu Öndərin "mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri İlham Əliyev başa çatdıracaq" sözləri bu gün artıq siyasi proqnoz deyil, tarixi faktdır - Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi tam bərpa olunmuşdur. Ona görə də növbədənkənar prezident seçkisinin nəticələri yalnız bugünkü siyasi reallığın yox, 2003-cü ildə qoyulmuş dövlətçilik xəttinin məntiqi davamı kimi qiymətləndirilməlidir. Beləliklə, Heydər Əliyevin İlham Əliyevə olan inamı xalqın siyasi iradəsi ilə birləşmiş və zaman bu seçimin doğru olduğunu təsdiqləmişdir.

Azərbaycan xalqı seçkidə öz Prezidentinə keçmişin ağrıları ilə deyil, daha firavan gələcək arzusu ilə səs verdi. Xalq seçkidə mücərrəd "demokratiya" yox, gerçək rifaha səs verdi. 7 fevral seçkisi həm də yeni mərhələnin başlanğıcı oldu. Azad edilmiş torpaqlarda bərpa-quruculuq işləri, Böyük qayıdış prosesi və suverenliyin tam möhkəmləndirilməsi Zəfərin davam edən proses olduğunu bir daha göstərdi. Zəfər təkcə 44 günlə məhdudlaşmadı, o, dövlət idarəçiliyinə, milli iradəyə və gələcəyə yönələn strateji xəttə çevrildi. Məhz bu səbəbdən seçki tarixə Zəfər seçkisi kimi yazıldı.

Seçkidən sonrakı iki il bu adın təsadüfi olmadığını əyani şəkildə sübut etdi. Bu dövr dövlətlə xalq arasında formalaşmış etimadın real nəticələrə çevrildiyi mərhələ kimi yadda qaldı. Xalqın verdiyi mandat kağız üzərində qalmadı. O, bu gün konkret qərarlarda, ardıcıl addımlarda və görünən dəyişikliklərdə əks olunur. Ötən iki il ərzində Qarabağ və Şərqi Zənəzurda aparılan genişmiqyaslı bərpa işləri sürətləndi. Dağılmış şəhərlər, kəndlər və infrastruktur yenidən qurulmuş, Böyük qayıdış proqramı çərçivəsində evlər tikilmiş, yollar çəkilmiş, sosial obyektlər açılmışdır. Təbii ki, bu işlər dövlətin gücü və xalqın birliyi sayəsində həyata keçirilir.

2024-cü ilin Zəfər seçkisindən sonra dövlətin milli təhlükəsizlik strategiyası da möhkəmlənmişdir. Ordunun döyüş qabiliyyəti artmış, sərhəd və ərazi müdafiəsi gücləndirilmişdir. Azərbaycan güclü və etibarlı dövlət olaraq öz mövqeyini daha da möhkəmləndirmişdir. Xarici siyasət sahəsində də Azərbaycan öz maraqlarını qorumuş və beynəlxalq aləmdə nüfuzunu artırmışdır. Zəfərdən sonra ölkəmiz regionda və dünyada söz sahibi kimi çıxış etməyə başlamış, sülh və əməkdaşlıq təşəbbüsləri ilə diqqət mərkəzində olmuşdur. Zəfər seçkisi həm tarixi qələbənin davamı, həm də Azərbaycan dövlətçiliyinin və xalqın gələcəyə inamının təcəssümü olaraq yaddaşlara hopmuşdur.

Xalqın dözümü, siyasi iradəsi və milli ruhu 7 fevral seçkisində eyni nöqtədə qovuşdu. Məhz buna görə həmin qələbə bir nəfərin deyil, bütöv bir xalqın qələbəsi oldu. Bu, səs-küylü şüarların deyil, səssiz etimadın, gündəlik fəaliyyətin və ortaq məqsədin zəfəridir. İlham Əliyevin qalib Lider kimi yenidən Azərbaycanın Prezidenti seçilməsi xalqımızın "biz bir yerdəyik" deyə tarixə yazdığı iradə manifestidir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# İlham Əliyevə ümumxalq dəstəyi

## 2024-cü ilin prezident seçkiləri xalqımızın xilaskar liderinə yüksək etimadının növbəti ifadəsi oldu



**2024-cü il fevralın 7-də keçirilən prezident seçkiləri müasir Azərbaycan tarixində mühüm siyasi hadisə kimi yadda qaldı. Bütöv Azərbaycanın ərazisində təşkil olunan bu seçkilər xalqın yüksək fəallığı, birlik və həmrəylik ruhu ilə müşayiət olunaraq dövlətçilik tariximizin yeni mərhələsinin təməlini qoydu. Son otuz il ərzində böyük çətinliklər və ciddi sınaqlardan keçərək milli maraqlar uğrunda aparılan ardıcıl mübarizənin məntiqi nəticəsi, Zəfərlə yekunlaşan tarixi yolun siyasi zirvəsi kimi bu tarix salnamələrimizə həkk olundu.**

Azərbaycan xalqı Vətən müharibəsində və lokal xarakterli antiterror tədbirləri zamanı nümayiş etdirdiyi birliyi 2024-cü il fevralın 7-də də açıq şəkildə nümayiş etdirdi. Seçkilər zamanı göstərilən yüksək həmrəylik Vətənimizin ərazi bütövlüyünə, suverenliyinə və davamlı inkişaf perspektivlərinə verilən qətiyyətli dəstəyin ifadəsi oldu. Vətəndaşların mütləq əksəriyyəti ötən müddətdə ölkəni sürətli inkişaf mərhələsinə çıxaran, Azərbaycanın beynəlxalq mövqelərini möhkəmləndirən və gələcək uğurlara aparan siyasi kursa inam nümayiş etdirərək növbəti dəfə Prezident İlham Əliyevə etimad göstərdi.

Xüsusilə Qarabağ və Şərqi Zəngəzurdan gələn yüksək dəstək azad edilmiş torpaqlara qayıdan vətəndaşların xilaskar liderlərinə olan minnətdarlığının təcəssümü oldu.

### Andına sadiq lider

Azərbaycan xalqı və dövləti adına qazanılan tarixi qələbələr müdrik xalqımızın lider seçimində yanılmadığını, lazımi anda doğru qərar verdiyini bir daha təsdiq etdi. Bu gün əldə olunan nailiyyətlər ötən illərdə atılmış uzaqgörən addımların, xalqın iradəsinə əsaslanan düzgün siyasi kursun məntiqi nəticəsidir.

Hər kəsin xatirindədir ki, Azərbaycanı ən ağır sınaqlardan, dövlətçiliyini itirmək təhlükəsindən xilas edən Ulu Öndər Heydər Əliyev 2003-cü il prezident seçkiləri ərəfəsində tarixi bir müraciətlə çıxış edərək siyasi varisi, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırmışdı. Ulu Öndər bu müraciətində əminliklə bildirirdi ki, İlham Əliyev xalqın dəstəyi ilə Azərbaycanın taleyüklü məsələlərini uğurla başa çatdıracaq və ölkəni daha böyük inkişaf mərhələsinə aparacaq: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizinköməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ümummilli Liderin bu çağırışına səs verən Azərbaycan xalqı 2003-cü il oktyabrın 15-də böyük inam və etimadla İlham Əliyevi Prezident seçdi. Həmin tarixin üzərindən ötən müddətdə Prezident İlham Əliyevin müdrik siyasəti, qətiyyəti və siyasi iradəsi sayəsində Azərbaycanın necə şərəfli və qürurverici inkişaf yolu keçdiyinin aydın şahidi olduq. Prezident İlham Əliyev dövlət başçısı kimi ilk andiçmə mərasimində Konstitusiyaya və müqəddəs Qurani-Kərimə əl basaraq verdiyi vədə sadiq qalaraq Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam təmin etdi.

"Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və Qurani-Kərimə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi", - deyə 2023-cü il 15 oktyabr tarixində Xankəndidə Azərbaycan Dövlət Bayrağını dalğalandıran zaman Prezident İlham Əliyev qürurla söyləmişdi.

### Qalibiyyət, quruculuq, qayıdış...

2003-cü ildə Prezidentlik səlahiyyətinə başladığı gündən etibarən İlham Əliyevin gündəliyindəki başlıca prioritet ölkəmizin ərazi bütövlüyünün bərpası, suveren hüquqlarının tam təmin olunması və uzun illər didərgin həyatı yaşayan soydaşlarımızın doğma yurdlarına qayıdışı təşkil edib. Qarşısına qoyduğu bu strateji xətt çərçivəsində həm ölkəmizin diplomatik müstəvidə beynəlxalq mövqelərini möhkəmləndirməsi, həm də iqtisadi potensialının gücləndirilməsi, müasir və güclü ordunun formalaşdırılması istiqamətində mühüm addımlar atmağa başladı. Düşünülmüş siyasət və həyata keçirilən kompleks islahatlar nəticə etibarilə Azərbaycanın tarixi zəfərlərə imza atmasını təmin etdi. Bu sayədə Azərbaycan xalqı qalib xalq oldu.

İkinci Qarabağ müharibəsində əldə olunan Şuşa Zəfəri xalqımızın onilliklər boyu həsrətində olduğu tarixi qələbənin simvoluna çevrildi. Ardınca həyata keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində dövlət suverenliyimiz tam bərpa olundu, üçrəngli bayrağımız bütün ərazilərimizdə dalğalandırıldı. Regionda separatizmə son qoyuldu, xalqımıza qarşı törədilmiş ağır cinayətlərin və faciələrin qisası döyüş meydanında alındı.

Azad edilmiş ərazilərdə quruculuq və dirçəliş dövrünün başlanması isə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin növbəti mühüm istiqaməti oldu. Uzun illər işğal altında qalmış, tamamilə dağıdılmış Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və yenidənqurma layihələrinə start verildi, müasir infrastrukturun yaradılması üçün meqalayihələr icra olunmağa başlandı.

Böyük qayıdış proqramının uğurla həyata keçirilməsi nəticəsində artıq bu yerlərdə 30 minə yaxın vətəndaş yeni həyatına qovuşub. Bu proses mərhələli şəkildə davam etdirilir və yaxın gələcəkdə bütün keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı təmin ediləcək. Bu gün Qarabağ və Şərqi Zəngəzurda yaşanan dirçəliş Azərbaycanın qələbələr silsiləsinin davam etdiyinin göstəricisidir.

Bütün bu proseslərin məntiqi davamı olaraq 2024-cü il 7 fevral tarixində keçirilən prezident seçkilərində işğaldan azad edilmiş ərazilərdə yerləşən seçki məntəqələrində müşahidə olunan yüksək fəallıq və mütəşəkkillik tamamilə təbii idi. Azad edilmiş torpaqlarda yaşayan və artıq doğma yurdlarına qayıdan keçmiş məcburi köçkünlərin səsvermədə xüsusi həvəslə və fəal iştirak etməsi bu seçkilərə fərqli məna verdi.

Zəfər seçkisi kimi tarixə düşən bu siyasi prosesdə soydaşlarımızın yurdlarının azadlığı fonunda yaşadıqları sevinc və qürur hissi, duyğularını gizlədə bilməmələri hər bir azərbaycanlı üçün unudulmaz və kövrək anlarla yadda qaldı.

### Dünyanın ehtiramla qarşıladığı lider

Zəfər seçkisindən sonra da Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan xeyli milli nailiyyətlər qazandı. Bunlardan biri də Rusiya Federasiyasının sülhməramlı kontingentinin ölkəmizi zamanından əvvəl tərk etməsi idi. Həmçinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin bir tələbi ilə 2024-cü ilin may ayında Qazax rayonunun 4 kəndi Azərbaycana qaytarıldı.

Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət sayəsində bu gün Azərbaycan dünyanın nüfuzlu ölkəsinə, etibarlı əməkdaşlıq ünvanına çevrilib.

Ənənəvi və qeyri-ənənəvi resurslarla zəngin geostrateji coğrafiyada yerləşən Azərbaycanın təhlükəsizlik və inkişaf vəd edən mühiti, eyni zamanda etibarlı və güvənli tərəfdaş olması böyük diqqət cəlb edir. Buna görə dünyanın əksər ölkələri respublikamızla siyasi-iqtisadi əlaqələr qurmağa böyük maraq göstərir ki, bunların arasında ABŞ və Çin kimi dünya nəhəngləri də var. Şərqlə Qərbin, Şimalla Cənubun ortaq maraqlardan çıxış etdiyi mərkəz rolunu oynayan ölkəmiz nəqliyyat, enerji qovşağı kimi təkcə yerləşdiyi region deyil, daha geniş coğrafiya üçün strateji məkandır. Bir sözlə, Azərbaycanın səyləri ilə bölgədə yaranan reallıqlar və regional sabitlik mühiti Cənubi Qafqazı rifah və tərəqqi ünvanına çevirib.

Ötən il dünyanın supergüc ölkəsinin rəhbəri Donald Trampın iştirakı ilə Ağ Evdə sülh sazişi mətninin paraflanması de-fakto bölgədə sülhü təmin edib.

Prezident İlham Əliyevin sülh istiqamətində göstərdiyi səylər qlobal səviyyədə etimad görür. Qarabağ Zəfəri sayəsində Cənubi Qafqazda formalaşdırılan sülh modeli bu gün dünyada nümunə götürülür.

BMT Təhlükəsizlik Şurasının onilliklər boyu kağız üzərində qalan qətnamələrini yerinə yetirən lider kimi beynəlxalq nüfuza sahib olan Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin Şeyx Zayed Fondu tərəfindən "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi də elə həyata keçirilən sülh missiyasının beynəlxalq miqyasda yüksək qiymətləndirilməsinin bariz göstəricisidir.

Azərbaycan adına qazanılan bütün bu qələbələrin təməlində dövlətlə xalq arasında formalaşmış sarsılmaz birlik dayanır.

Məhz bu birlik sayəsində ölkəmiz qarşısına çıxan ən çətin maneələri aşdı, mürəkkəb problemlərin həllinə nail oldu və işıqlı gələcəyə doğru inamla yol aldı.

Buna görədir ki, 2024-cü il fevralın 7-də keçirilən prezident seçkilərində həm xaricdə, həm də ölkə ərazisində vətəndaşlarımız yekdilliklə Qarabağın xilaskarı İlham Əliyevi bir daha dəstəklədilər. Bütöv Azərbaycanda baş tutan ilk seçki kimi tariximizə yazılan 7 fevral prezident seçkiləri ölkəmizi ən yüksək inkişaf mərhələsinə ucaldan, beynəlxalq aləmdə söz sahibi edən, zəfərlər ölkəsinə çevirən müzəffər lider İlham Əliyevə ümumxalq dəstəyinin təzahürü oldu.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Qarabağın və Şərqi Zəngəzurun xilaskarı indi bu əraziləri cənnətə çevirir

**Xalqının və dövlətinin yolunda dayanmadan çalışan, hər addımını milli mənafelərə uyğun ataraq tarix yazan liderlər zamanın arxasınca getmirlər, əksinə, zamanı özləri ilə aparır, gələcəyi formalaşdırırlar. Prezident İlham Əliyev məhz belə liderlərdəndir. Ərazicə böyük olmayan, əhali baxımından nəhəng dövlətlərlə müqayisə edilə bilməyən Azərbaycan bu gün təkcə regional deyil, qlobal proseslərin də diqqət mərkəzində dayanır. Bu reallığın arxasında İlham Əliyevin düşünülmüş siyasəti, ardıcıl qərarları və gələcəyə hesablanmış siyasət yürüdən liderlik bacarığı dayanır. Onun yenidən Prezident seçilməsindən ötən iki il Azərbaycanın yalnız zamanla irəliləmədiyini, həm də məzmun etibarilə yeni mərhələyə qədəm qoyduğunu aydın şəkildə göstərir.**

Son iki il ölkəmizin daxili sabitliyinin möhkəmləndirilməsi, xarici siyasətdə balansın qorunması, sülh təşəbbüslərinin irəli sürülməsi, Qarabağa qayıdışın sürətlənməsi və Azərbaycanın beynəlxalq nüfuzunun daha da artması ilə yadda qaldı. İlham Əliyev fəaliyyəti ilə sübut etdi ki, əsl lider yalnız güc nümayiş etdirən deyil, sülh gətirən, sözünə inandıran, ölkəsini zəkası ilə dünyaya qəbul etdirən liderdir.

Dövlətimizin başçısı vəd etdiklərini konkret proqramlara, proqramları isə real nəticələrə çevirir. Dövlət idarəçiliyində çeviklik, qərarvermədə sürət və milli maraqlara sadiqlik son iki ilin əsas xüsusiyyətləri oldu.

Prezident İlham Əliyev Qarabağa ilk səfərləri zamanı və sonrakı çıxışlarında işğaldan azad olunan torpaqlarla bağlı tarixi bir vəd verdi: "Biz Qarabağı cənnətə çevirəcəyik". Bu ifadə sadəcə bir çağırış olmadı, dövlət siyasətinin strateji xəttinə çevrildi. Bu sözlərin arxasında dağıdılmış şəhərlərin yenidən qurulması, viran qoyulmuş kəndlərin həyata qaytarılması, yolların, məktəblərin, xəstəxanaların, mədəniyyət ocaqlarının inşası dayanırdı. Prezident bu vədi ilə dünyaya göstərdi ki, Azərbaycan torpaqlarını yalnız işğaldan azad etməklə kifayətlənmir, onları yaşamaq, yaratmaq və insanların xoşbəxt gələcək qura bilmələri üçün gözəl bir məkana çevirir. Bu gün Qarabağda aparılan genişmiqyaslı bərpa-quruculuq işləri həmin sözlərin siyasi iradəyə, iradənin isə real nəticələrə çevrildiyini təsdiqləyir. Bu gün iftixarla qeyd edə bilərik ki, Qarabağ müasir Azərbaycanın gələcək simasıdır. "Ağıllı şəhər" və kənd konsepsiyaları, yeni yollar, hava limanları, sosial obyektlər Qarabağı regional inkişaf mərkəzinə çevirməyi hədəfləyir.

Daxili siyasətdə əsas prioritetlərdən biri postmünaqişə dövrünün düzgün idarə olunması idi. Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işləri təkcə fiziki infrastrukturu deyil, sosial və mədəni həyatın da bərpasını hədəfləyib. Böyük qayıdış proqramı çərçivəsində həyata keçirilən layihələr insanların doğma torpaqlarına təhlükəsiz, layiqli və davamlı şəkildə qayıdışını təmin etməyə yönəlib.

Son iki ildə Şuşa, Laçın, Xocalı, Ağdam, Kəlbəcər, Zəngilan və digər rayonlarda aparılan abadlıq, bərpa və quruculuq işləri ölkənin ən prioritet layihələrindən biri olaraq davam edir. Azərbaycan hökuməti Böyük qayıdış dövlət proqramı çərçivəsində bu ərazilərdə genişmiqyaslı infrastruktur layihələrini həyata keçirərək geniş yollar, su və enerji xətləri, təhsil və səhiyyə obyektləri, yaşayış məntəqələri və mədəni infrastruktur formalaşdırıb. Ağdamda dəmir yolu və avtovağzal kompleksi, regional idarəetmə mərkəzləri, su anbarları və digər ictimai obyektlərin istifadəyə verilməsi bu şəhərdə sosial-iqtisadi həyatın yenidən bərpasına xidmət edir.

Eyni zamanda Kəlbəcər və Laçın şəhərlərinə, kəndlərinə qayıdış davam edir. Artıq Kəlbəcər şəhərində də məskunlaşma layihələri reallaşdırılır və burada məcburi köçkünlər üçün yaşayış sahələri təmin olunur.

İşğaldan azad olunan Zəngilan rayonuna da qayıdış prosesi sürətlə həyata keçirilir. Məmmədbəyli kəndi kimi yaşayış məntəqələrinə çoxsaylı ailələrin geri dönüşü davam edir, sosial infrastruktur, xidmət obyektləri yaradılır. Ümumilikdə Qarabağda və Şərqi Zəngəzurda artıq on minlərlə insan - keçmiş məcburi köçkünlər, bərpa-quruculuq layihələrində çalışan işçilər, eləcə də dövlət orqanlarında xidmət edən əməkdaşlar bu torpaqlarda yaşayışa başlayıblar.

Bir zamanlar separatizm yuvasına, nifrət və qarşıdurma ideologiyasının mərkəzinə çevrilmiş Xankəndi bu gün tamamilə yeni bir sima qazanıb. İndi bu şəhər sülhün, sabitliyin və dövlət suverenliyinin real təcəssümüdür. Xankəndi artıq silah səslərinin eşidilməsi ilə deyil, tələbə gənclərin səsi gələn, elm və düşüncə mühiti, beynəlxalq tədbirlərin verdiyi mesajlar məkanı kimi tanınır. Burada formalaşan yeni həyat tərzi göstərir ki, şəhər arzuların, gələcəyə inamın və birgəyaşayış mədəniyyətinin məkanına çevrilib. Prezident İlham Əliyevin məhz Xankəndidə beynəlxalq səviyyəli tədbirlərin keçirilməsinə xüsusi önəm verməsi təsadüfi deyil - bu, dünyaya ünvanlanan açıq və qəti bir mesajdır: Azərbaycan müharibəni yox, sülhü, intiqamı yox, ədaləti, dağıntını yox, quruculuğu seçib. Xankəndidə dalğalanan Azərbaycan bayrağı İlham Əliyevin liderliyi ilə regionda yeni siyasi reallığın, qalib dövlətin və sülhə açıq gələcəyin simvoluna çevrilib.

Son iki ildə Azərbaycanın yaşıl və bərpaolunan enerji sahəsində atdığı addımlar xüsusilə diqqətəlayiqdir. Günəş və külək enerjisi layihələri, beynəlxalq enerji şirkətləri ilə imzalanan sazişlər ölkəni regionu "yaşıl enerji" mərkəzinə çevirməyi hədəfləyir.

Bu gün Qarabağ və digər azad olunmuş ərazilər "yaşıl enerji zonası" kimi formalaşdırılır və bu sahədə ciddi işlər görülür. Regionda ümumilikdə günəş, külək və su enerjisi üzrə potensial 10 min meqavatdan çox qiymətləndirilir ki, bu da bölgənin enerji tələbatını uzunmüddətli perspektivdə tam ödəməyə imkan verir. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında artıq istehsal gücü 1100 MVt-a çıxan "yaşıl enerji" layihələri icra olunur ki, bu da ərazilərin mövcud enerji tələbatından 12-15 dəfə çoxdur.

Qarabağ və Şərqi Zəngəzurda BP ilə 240 MVt gücündə Günəş-Elektrik Stansiyası (GES) qurulması üçün müqavilə imzalanıb və stansiyanın 2027-ci ilə qədər istifadəyə verilməsi planlaşdırılır.

Bundan başqa, ölkə üzrə "Qaradağ" Günəş-Elektrik Stansiyası 230 MVt gücü ilə fəaliyyət göstərir. Stansiyada hər il 500 milyon kilovat-saatdan çox təmiz enerji istehsal olunur ki, bu da böyük həcmdə təbii qaza qənaət və karbon emissiyalarının azalmasına gətirib çıxarır.

Regionda həmçinin su-elektrik stansiyalarının bərpası da davam edir: Laçın, Kəlbəcər və Suqovuşan istiqamətlərində 20,2 MVt gücündə kiçik SES-lər artıq işə düşüb. Cəbrayıl ərazisində 200 MVt "Xudafərin" və 80 MVt "Qız Qalası" SES-lərinin tikintisi də davam edir ki, bu obyektlərin yaxın illərdə enerji balansına əhəmiyyətli töhfə verəcəyi gözlənilir.

Son illər Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanı arasında bərpaolunan enerji sahəsində strateji əməkdaşlıq sürətlə genişlənib. BƏƏ ilə 2024-cü il yanvarın 9-da dörd sənəd imzalanıb: elektrik enerjisinin ötürülməsi layihələri üzrə investisiya əməkdaşlığı barədə Anlaşma Memorandumu, günəş və külək enerjisi infrastrukturunun gücləndirilməsini nəzərdə tutan Strateji Əməkdaşlıq Çərçivə Müqaviləsi, 1 GW-lıq günəş və külək layihələri üçün Yol Xəritəsi, eləcə də SOCAR ilə ADNOC arasında strateji tərəfdaşlıq sazişi. Bu sənədlər bərpaolunan enerji sahəsində həm investisiya, həm də texniki əməkdaşlıq platformasını formalaşdırır.

Ən böyük tərəfdaşlardan biri olan BƏƏ-nin "Masdar" şirkəti ilə imzalanmış müqavilələr 1 000 MVt gücündə 445 MW-lıq Biləsuvar və 315 MW-lıq Neftçala günəş-elektrik stansiyaları ilə yanaşı, 240 MW-lıq Abşeron-Qaradağ külək stansiyasının layihələndirilməsi, enerji satışı və ötürülməsi üzrə sənədləri də əhatə edib. Bu sahədə bağlanmış investisiya, enerji alqı-satqı, ötürücü şəbəkəyə qoşulma və torpaq icarə müqavilələri Azərbaycanın "yaşıl enerji" sektorunu gücləndirməkdədir.

Bundan əlavə, Azərbaycan və Səudiyyə Ərəbistanı arasında enerji sahəsində əməkdaşlıq sazişi imzalanıb ki, bu da bərpaolunan enerji, enerji səmərəliliyi və elektrik enerjisi sahələrində iki ölkə arasında müqavilə əsasında yeni layihələrin həyata keçirilməsini nəzərdə tutur.

Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, Ərəb Əmirlikləri və Səudiyyə Şahzadəlikləri Azərbaycan üçün əsas "yaşıl enerji" investorlarındandır və onların dəstəyi ilə 2030-cu ilə qədər 6 GW-a yaxın günəş və külək enerji gücü əldə etmək məqsədi müəyyən olunub.

Bu əməkdaşlıq təkcə investisiya və texnologiya transferi ilə məhdudlaşmır, eyni zamanda "yaşıl enerji" məhsullarının ixracı və regional "yaşıl enerji dəhlizi" siyasətinə inteqrasiyası üçün də strateji körpü rolunu oynayır, Azərbaycanın qlobal enerji keçidində etibarlı tərəfdaş kimi mövqeyini gücləndirir.

Bu siyasət Azərbaycanın təkcə enerji ixracatçısı deyil, eyni zamanda qlobal iqlim gündəliyində məsuliyyətli aktor olduğunu göstərir. İlham Əliyev sübut etdi ki, təbii resurslara malik olmaq gələcəyi düşünmədən istifadə etmək demək deyil.

Eyni zamanda sosial rifahın artırılması, məşğulluğun genişləndirilməsi, regionlararası inkişaf fərqlərinin azaldılması dövlət siyasətinin mərkəzində saxlanıldı. Bu dövrdə qəbul edilən sosial paketlər, minimum əməkhaqqı və pensiyalarda artımlar dövlətin vətəndaşa olan məsuliyyətinin bariz nümunəsi kimi çıxış etdi.

İlham Əliyevin xarici siyasət kursu bu iki il ərzində də balanslı və praqmatik xəttini qorudu. Azərbaycan eyni anda müxtəlif qütblərdə dayanan böyük dövlətlərlə əməkdaşlıq etməyi bacaran nadir ölkələrdən biridir.

Prezident İlham Əliyevin uzaqgörən və praqmatik siyasətinin nəticəsi olaraq Azərbaycan-ABŞ münasibətləri son illər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Bir zamanlar Azərbaycanın qarşısında ciddi məhdudiyyət yaradan ABŞ Konqresinin "Azadlığa Dəstək Aktı"na əlavə edilmiş 907-ci düzəlişin tətbiqi Donald Tramp administrasiyası tərəfindən dayandırıldı.

ABŞ-nin vasitəçiliyi və iştirakı ilə 8 avqust 2025-ci ildə Vaşinqtonda keçirilən üçtərəfli görüş Azərbaycanın sülh təşəbbüslərinə beynəlxalq səviyyədə dəstək verilməsi və regionda yeni siyasi nizamın formalaşması baxımından tarixi əhəmiyyət kəsb etdi.

ABŞ Prezidenti Donald Tramp Azərbaycan və Ermənistan arasında sülh prosesində Prezident İlham Əliyevin rolunu yüksək qiymətləndirərək 2025-ci il avqustun 8-də Vaşinqtonda imzalanan tarixi sülh sammitində çıxış zamanı demişdir: "Otuz beş il idi ki, müharibə idi, indi isə onlar dostdurlar və bundan sonra uzun müddət dost qalacaqlar. Bu gün Ağ Evdə Ermənistan ilə Azərbaycan arasında sülh sammitində hər kəsi qəbul etməkdən böyük şərəf duyuram. Bu, iki böyük lider - Prezident Əliyev və Baş nazir Paşinyan tərəfindən həyata keçirilmiş vacib sənəddir".

Dövlətimizin başçısının təşəbbüsü ilə sülh sazişinin paraflanması region üçün yeni mərhələnin başlanğıcı oldu. Bu addım təkcə müharibənin yekunu deyil, davamlı sülhə aparan yolun siyasi manifesti idi. Bu siyasət göstərdi ki, İlham Əliyev üçün qələbə yalnız ərazi bütövlüyünün bərpası ilə məhdudlaşmır. O, bölgədə uzunmüddətli sabitlik və əməkdaşlıq mühitinin yaradılmasını strateji hədəf kimi müəyyənləşdirib. Bu yanaşma beynəlxalq ictimaiyyət tərəfindən də anlayışla qarşılandı və dəstəkləndi.

Prezident İlham Əliyev, Əl-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif olunarkən qlobal əməkdaşlıq və regional etimadın vacibliyinə diqqət çəkərək demişdir: "Tranzit xətlərinin açılışı yalnız yükdaşıma deyil, eyni zamanda etimad mühitinin formalaşmasıdır". Bu sözlər Azərbaycanın strateji mövqeyini və liderliyin uzaqgörənliyini vurğulayır. Cənab İlham Əliyev bir daha göstərdi ki, iqtisadi əməkdaşlıq yalnız mal mübadiləsi ilə ölçülmür, o, dövlətlər arasında etimadın, sabitliyin və birgə inkişafın körpüsü rolunu oynayır.

Ölkəni böyük edən onun xəritədə tutduğu yer deyil, dünya siyasətində olduğu mövqedir. Prezident İlham Əliyev Qarabağın xilaskarı, insanların könüllərini fəth edən lider, Azərbaycanın adını dünyada təsdiq edən dövlət başçısıdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*



# Dünyanın qəbul etdiyi yeni reallıqlar və sülh prosesi

**Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri bir çox mühüm hadisələrlə yadda qaldı. İlk növbədə ölkələrarası münasibətlərin inkişafı baxımından vacib görüşlərin keçirilməsi, strateji tərəfdaşlıq münasibətlərinin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi, enerji, həmçinin bərpaolunan enerji, mədəni, humanitar və digər istiqamətlərdə əlaqələrin daha da gücləndirilməsi məsələlərinin müzakirə edilməsi ölkələrarası əməkdaşlığın inkişafına töhfə verəcək.**

Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG şirkətinə satışı ilə bağlı alqı-satqı müqaviləsinə dair sənədin və Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığı razılaşması barədə niyyət məktubunun da imzalanması, həmçinin, Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin Silahlı Qüvvələri arasında keçirilən "Sülh Qalxanı - 2026" birgə əməliyyat-taktiki təliminin keçirilməsi ikitərəfli əlaqələri daha da möhkəmləndirəcəkdir.

Digər mühüm məqam, Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında keçirilən görüş idi. Bu görüş Cənubi Qafqazdakı sülh quruculuğunun necə inkişaf etdiyini və bu gün regionda oyun qaydalarını kimin müəyyənləşdirdiyini bir daha əyani şəkildə göstərdi. Dialoqun özü, onun müntəzəm xarakter alması, məzmunu və dinamikası Bakının strateji kursunun və dövlətimizin başçısının şəxsi liderliyinin birbaşa nəticəsidir. Bir müddət əvvəl bu cür görüşlər qeyri-mümkün görünürdü. Onilliklər boyu Ermənistan daimi münaqişə məntiqi ilə yaşayaraq qarşıdurmanı qoruyub saxlamış, siyasətini miflər və ərazi iddiaları üzərində qurmuşdu. Bütün bunlar artıq keçmişdə qalmışdır. Prezident İlham Əliyevin siyasi qətiyyəti nəticəsində Azərbaycan köhnə sistemi dağıtmaqla kifayətlənmədi, o, həm də İrəvan üçün manevr və illüziya imkanlarının qalmadığı yeni bir reallıq formalaşdırdı. Ermənistan Bakının müəyyən etdiyi şərtləri qəbul etməyə məcburdur. Prezident İlham Əliyev və Baş nazir Nikol Paşinyan arasında görüşlərin artıq nadir istisna olmaması da diqqətəlayiq məqamdır. Dialoq davamlı prosesə çevrilib. Bu, vasitəçilərin təşəbbüsü ilə deyil, Azərbaycanın sülh gündəliyini öz inkişaf strategiyasının tərkib hissəsi kimi ardıcıl şəkildə irəli aparması nəticəsində baş verir. Prezident İlham Əliyev hər zaman gələcəyə - mehriban qonşuluğa, birgə layihələrə və iqtisadi qarşılıqlı asılılığa üstünlük verir, qələbəni isə qəti və mübahisəsiz nəticə kimi möhkəmləndirir.

Danışıqların formatı ilə bağlı Bakının prinsipial mövqeyi təqdirəlayiqdir. Azərbaycan açıq şəkildə bəyan edib ki, Bakı ilə İrəvan arasındakı bütün məsələlər ikitərəfli qaydada həll olunmalıdır. Beynəlxalq platformalar görüşlər üçün şərait yarada bilər, lakin ikitərəfli dialoqu əvəz edə bilməz. Faktiki olaraq, İrəvan da bu məntiqə əməl edir. Əbu-Dabi ötən ilin yayında olduğu kimi, bu dəfə də əhatəli və məzmunlu müzakirələrin aparıldığı məkana çevrildi. Tərəflər ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirilmiş Vaşinqton Sülh Sammitindən sonra əldə olunan irəliləyişi qeyd etdilər. Lakin daha vacib olan başqa məqamdır: sülh artıq kağız üzərində deyil, gündəlik həyatda hiss olunmağa başlayıb. İkitərəfli ticarətin başlanması, Azərbaycanın neft məhsullarının Ermənistana ixracı, taxılın Azərbaycan ərazisindən tranziti - bütün bunlar Bakıda qəbul edilən qərarların birbaşa nəticəsidir.

Məhz Prezident İlham Əliyev Ermənistana tranzitə icazə verərək ilk addımı atdı. Noyabr ayında müvafiq qərar qəbul olundu və artıq dekabrda Azərbaycan ərazisindən Ermənistana Qazaxıstan buğdası ilə yüklənmiş ilk vaqonlar yola salındı, ardınca isə Rusiyadan tədarüklər başladı. Bu gün artıq söhbət yüzlərlə ton taxıldan gedir. Lakin ən bariz siqnal Azərbaycan yanacağının müntəzəm tədarükünün başlanması oldu. Bu, artıq birdəfəlik xoşməramlı jest deyil, hətta Ermənistan istehlakçılarının da hiss etdiyi davamlı praktikadır - yanacaqdoldurma məntəqələrində qiymətlər aşağı düşməyə başlayıb.

Gündəliyin digər mühüm elementi TRIPP layihəsi və regional marşrutların inkişafı da daxil olmaqla nəqliyyat layihələridir. Hazırda yüklərin üçüncü ölkələrdən keçirilməsinə məcburiyyət yaranır ki, bu da vaxt və maliyyə itkisinə səbəb olur. Birbaşa yolların, xüsusilə "Tramp Marşrutu"nun (Zəngəzur dəhlizinin) açılması regionun logistikasını köklü şəkildə dəyişə bilər. Burada xatırlatmaq yerinə düşər ki, müharibə başa çatdıqdan sonra Azərbaycan ilk gündən kommunikasiyaların blokadadan çıxarılmasını sülh prosesinin əsas istiqamətlərindən biri elan etmişdi. Məhz Bakı son illər ərzində ardıcıl şəkildə Zəngəzur dəhlizi ideyasını irəli sürüb - bu, təkcə avtomobil və dəmir yollarını deyil, həm də boru kəmərlərini, elektrik ötürücü xətləri və Orta dəhlizə inteqrasiyanı əhatə edən nəhəng potensiala malik layihədir.

Nəticədə Cənubi Qafqazda yeni bir reallıq formalaşır - burada regionun gələcək istiqamətini məhz infrastruktur və iqtisadiyyat müəyyən edir. Ermənistan üçün bu, keçmiş səhvləri təkrarlamadan öz trayektoriyasını dəyişmək üçün nadir imkandır. Azərbaycan Prezidenti heç vaxt əvvəlcədən nəticəsi bəlli olmayan dialoqlara vaxt sərf etmir. Dialoq yalnız reallığı qəbul etməyi və nəticə çıxarmağı bacaran tərəflərlə mümkündür. Aydındır ki, Əbu-Dabidəki görüş Nikol Paşinyanın praqmatizm dilinə keçməyə məcbur olması sayəsində baş tutub. Prezident İlham Əliyevin strategiyası bütün səviyyələrdə - hərbi, siyasi, iqtisadi və diplomatik müstəvilərdə öz effektivliyini sübut edib. Azərbaycan təkcə ərazi bütövlüyünü bərpa etməklə kifayətlənməyib, eyni zamanda qələbəni dayanıqlı sülh prosesi ilə möhkəmləndirib. Ermənistanla davam edən dialoq göstərir ki, dövlət başçısının kursu təkcə regionda deyil, onun hüdudlarından kənarda da analoqu az olan effektiv strategiya nümunəsidir.

Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə səfərinin əsas hadisəsi dövlətimizin başçısına "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim edilməsi oldu. Bu mükafat təsdiq etdi ki, dövlətimizin başçısının təşəbbüsləri ilə başlanan sülh prosesi dünya tərəfindən tanınır, təqdir olunur.

Azərbaycan-Ermənistan normallaşma prosesinə dünyada böyük maraq göstərilir. Bu, təsadüfi deyil. Azərbaycan-Ermənistan nizamlanması müasir dövrümüzün ən uğurlu sülh prosesidir. Üstəlik, unikal prosesdir. Çünki Azərbaycan yaşadığı bütün ağrılara, əziyyətlərə, soyqırımlarına, faciələrə baxmayaraq, özündə güc topladı, müharibədə qalib gəldi, torpaqlarını azad etdi. Və illərlə işğalçılıq siyasəti aparan təcavüzkara əl uzatdı, sülh prosesinin başlanmasının təşəbbüskarı oldu. Qalib dövlət məğlub dövlətə sülh təklif etdi. Bu, həqiqətən də yaxın tarixdə baş verən nadir haldır. İşğal olunmuş əraziləri azad edərək və Cənubi Qafqazda yeni geosiyasi reallıq formalaşdıraraq Azərbaycan uzunmüddətli sabitlik və sülhün təməlini qoydu. Prezident İlham Əliyev mükafatı qəbul edərkən bir vaxtlar mümkünsüz görünən sözləri səsləndirdi: "Dəfələrlə qeyd etdiyim kimi, biz sülh şəraitində yaşamağı öyrənirik. Sizə deyə bilərəm ki, bu, xüsusi bir hissdir. Biz müstəqillik əldə edəndən bəri heç vaxt sülh şəraitində yaşamamışıq və indi bunu sürətlə öyrənirik. ABŞ Prezidenti Donald Trampın Vaşinqtonda evsahibliyi etdiyi tarixi Zirvə görüşündən sonrakı altı ay tərəfdaşlıq, əməkdaşlıq və uzunmüddətli, dayanıqlı sülhə doğru irəliləyiş ayları olmuşdur". Bu sözlər yeni reallığı təsdiqləyir: onilliklər boyu "dondurulmuş" və həlli mümkünsüz sayılan münaqişə bu gün həqiqətən də, bütün təzyiq və təsirlərə baxmayaraq son mərhələyə yaxınlaşır.

Lakin xatırlatmaq vacibdir ki, Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli daha əvvəl də mümkün idi. Bunun üçün cəmi bir şərt lazım idi - Ermənistanın əvvəlki və indiki rəhbərliklərinin beynəlxalq hüququn aliliyini və dövlətlərin ərazi bütövlüyü prinsipini qəbul etməli və müvafiq qaydada yerinə yetirməli idilər. Təəssüf ki, İrəvanda başqa yol seçildi: prosesi uzatmaq, beynəlxalq hüquq normalarını yerinə yetirməkdən imtina etmək, status-kvonu güc yolu ilə möhkəmləndirməyə çalışıldı. Nəticədə, yeni faciələr, yeni insan itkiləri yaşandı və Azərbaycan ədalətli sülhə hərbi-siyasi yolla nail olmağa məcbur qaldı. 2020-ci ildə, ardınca isə 2023-cü ildə Azərbaycan öz suverenliyini və ərazi bütövlüyünü tam bərpa etdi. Bu hadisələr təkcə ölkə üçün deyil, regionun təhlükəsizlik arxitekturası üçün də dönüş nöqtəsi oldu. Bu mərhələdə daha bir mühüm xüsusiyyət üzə çıxdı: Azərbaycan, nəcib və uzaqgörən qalib kimi, Ermənistanla sülh dialoqunun başlanmasının təşəbbüskarı oldu. İntiqam siyasəti əvəzinə barışıq siyasəti yürütdü. Qarşıdurmanın davamı əvəzinə - dayanıqlı razılaşma və sülh axtarışı oldu. Əbu-Dabidə sülh mükafatının təqdim edildiyi gün Azərbaycan ərazisindən tranzitlə Ermənistana gedən səkkiz vaqondan ibarət, Rusiya buğdası daşıyan növbəti yük qatarı Xırdalan stansiyasından yola salındı. Yükün ümumi çəkisi 560 tondur. Qatar "Böyük-Kəsik" stansiyasından keçərək Gürcüstana, oradan isə Ermənistana çatdırılacaqdır. Və bu hadisə rəmzi xarakter daşıyır. Çünki bu, sadəcə, iqtisadi detal deyil, həm də regionda atmosferin necə dəyişdiyinin əyani göstəricisidir. Dünən cəbhə xətləri keçən yerlərdə bu gün ticarət, əməkdaşlıq və qarşılıqlı asılılıq xətləri formalaşır. Sülh artıq deklarasiya deyil, praktikaya çevrilir. Cənubi Qafqaz tədricən daimi böhran zonasından nəqliyyat, enerji və humanitar imkanlar məkanına çevrilir. Məhz buna görə Əbu-Dabidə təqdim olunan bugünkü mükafat bu qədər dərin məna daşıyır. O, beynəlxalq ictimaiyyətin Azərbaycan və Ermənistanın həqiqətən yeni siyasi düşüncə dövrünə qədəm qoyduğunu qəbul etdiyini təsdiqləyir.

Eyni zamanda aydındır ki, Bakı ilə İrəvan arasında sülh yalnız ikitərəfli məsələ deyil. Bu, bütün Avrasiya üçün sabitlik amilidir. Əgər bu proses sona qədər çatdırılarsa, region, nəhayət, keçmişin ağır mirasından azad ola biləcək. Məhz buna görə bugünkü mükafat təkcə ümid simvolu deyil, həm də bir xatırlatmadır: sülh beynəlxalq hüquq normaları tanındıqda, dövlətlərin ərazi bütövlüyünə hörmət edildikdə və siyasi iradə revanşist meyillərdən üstün olduqda mümkündür. Bakı tərəfindən irəli sürülən sülh gündəliyi regionun ümumi rifahına yönəlmiş yeni iqtisadi arxitekturanın əsasını formalaşdırdı. Qarşıdurma ritorikasından əməkdaşlığa keçid Cənubi Qafqaz üçün geniş perspektivlər açdı. Azərbaycan dünyaya təkcə müdafiə gücünü deyil, həm də strateji düşüncə qabiliyyətini nümayiş etdirdi. Sülh təşəbbüsləri düşmənçilik tarixinin faciəli səhifəsini bağlayır və hörmətə, qarşılıqlı əlaqəyə əsaslanan yeni bir dövrün yolunu açır. Bu proses bütün dünyanın gözü qarşısında baş verir. Dünya görür ki, bu mümkündür. Bəli, Ermənistana gedən qatar yollarını açmaq mümkündür. Beş il əvvəl düşmən olmuş qonşuya ucuz yanacaq satmaq mümkündür. Azərbaycan Prezidentinin verdiyi hər bir qərar diplomatiya dərsliklərinə düşməli və dünyanın aparıcı universitetlərində tədris olunmalıdır. Prezident İlham Əliyevin dediyi kimi: "Mən hesab edirəm ki, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür. Hər iki tərəfdən güclü siyasi iradə mövcud olduğu və həmin proses dost ölkələr və beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndiyi halda, sülh mümkündür".

Prezident İlham Əliyev "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində çıxışını çox mühüm bir mesajla bitirdi: "Əbu-Dabidə keçirilən bu mükafatlandırma mərasimi ilə bağlı qeyd edəcəyim son məqam odur ki, bu mərasim rəmzi məna daşıyır. Çünki Ermənistan ilə Azərbaycan arasında sonuncu danışıqlar raundu ötən ilin iyul ayında, tarixi Vaşinqton Sammitindən cəmi bir ay əvvəl məhz burada baş tutmuşdur. Əziz qardaşımız Şeyx Məhəmmədin dəstəyi ilə sülhün bərqərar olunması üçün son razılığa burada gəldik və həmin razılıq daha sonra Vaşinqtonda rəsmiləşdirilmişdir. Bugünkü simvolizm havada hiss olunur".

Prezident İlham Əliyev beynəlxalq ictimaiyyətə sülh uğrunda mübarizə aparılmalı olduğu fikrini açıq şəkildə çatdırdı. Sülhdə qələbə döyüş meydanındakı qələbədən heç də asan deyil. Azərbaycan bunu təcrübədən öyrəndi, çünki qərəzli xarici qüvvələr dəfələrlə Bakının sülh səylərini pozmağa cəhd etdilər və bəziləri hələ də cəhd göstərirlər. Lakin Azərbaycanın üçüncü ölkələrə zərər vermədən milli maraqların qorunmasına və beynəlxalq hüququn bütün norma və prinsiplərinə ciddi şəkildə riayət olunmasına əsaslanan ardıcıl xarici siyasəti rəqiblərinin məqsədlərinə çatmasının qarşısını aldı. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, tarixi ədalət qalib gəldi.

*Hicran HÜSEYNOVA,*
*Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri, professor*

# Azərbaycanın təqdim etdiyi sülh yolu

**Fevralın 4-də hər birimiz qürurdoğuran hadisəyə şahidlik etdik. Həmin gün Prezident İlham Əliyevə Əbu-Dabidə "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdim olunması dövlətimizin başçısının təşəbbüsləri ilə başlanan Azərbaycanla Ermənistan arasındakı sülh prosesinin qlobal təntənəsi oldu.**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin deputatı Soltan Məmmədov bildirib. O qeyd edib ki, "Zayed İnsan Qardaşlığı Mükafatı" dünyada sülh, həmrəylik və dinc yanaşı yaşama prinsiplərini təşviq edən şəxslərə və qurumlara verilən nüfuzlu beynəlxalq mükafatdır: "Bu mükafat dinlərarası və mədəniyyətlərarası dialoqun təbliğinə, insan ləyaqətinin qorunması, münaqişələrin sülh yolu ilə həllinə, qlobal həmrəyliyin gücləndirilməsinə real töhfə verən şəxslərə təqdim olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bu mükafata layiq görülməsi regionda həyata keçirdiyi sülh siyasətinə verilən yüksək beynəlxalq qiymətdir. Eyni zamanda bu, Azərbaycan dövlətinin həyata keçirdiyi diplomatik kursun beynəlxalq səviyyədə təqdir olunmasının bariz bir nümunəsidir. Prezident İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatında çıxışı zamanı qeyd etdiyi kimi, biz həm müharibəni udduq, həm də sülhü



qazandıq. Bu, təkcə Azərbaycan ilə Ermənistan arasında paraflanmış Sülh Sazişinin deyil, eyni zamanda Azərbaycan Prezidentinin həyata keçirdiyi uğurlu siyasətin bəşəriyyətə verdiyi töhfələrin dəyərləndirilməsidir".

Soltan Məmmədovun sözlərinə görə, İkinci Dünya müharibəsindən sonra dünyada çoxsaylı münaqişələr meydana çıxıb. Lakin bu münaqişələrin heç biri sülh ilə tamamlanmamışdır. Azərbaycan isə bu məsələdə nümunə yaradır. "Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimində qeyd etdiyi kimi, bizim nümunəmiz öyrənilməli və hələ də müharibə vəziyyətində olanlar üçün yol xəritəsi kimi istifadə edilməlidir. Bizim nümunəmiz göstərir ki, uzunmüddətli münaqişəyə, əzablara və qarşılıqlı etimadsızlığa baxmayaraq, sülh mümkündür. Münaqişədən əziyyət çəkən ölkələr Azərbaycanın bu nümunəsini araşdırmalı və öyrənməlidirlər" - deyə deputat bildirib.

Soltan Məmmədov qeyd edib ki, bu gün Azərbaycan beynəlxalq ictimaiyyət tərəfindən regionda və ondan kənarda sülh siyasətini təbliğ edən ölkə kimi qəbul olunur. "Dünya ictimaiyyəti Azərbaycanın sülh siyasətinə sadiqliyini yüksək qiymətləndirir. Bu baxımdan Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi Azərbaycan xalqının və dövlətinin qələbəsidir. Bu hadisə bizim uğurlu və davamlı sülhə gedən yolda hədəfə çatmağımıza böyük dəstək olacaqdır", - deyə deputat bildirib.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın Yaxın Şərq regionunda mövqeləri güclənir

## Ölkəmizin BƏƏ ilə tərəfdaşlığının yeni mərhələyə daxil olması da bunu təsdiqləyir

**Prezident İlham Əliyevin uzaqgörən, müdrik, eləcə də qətiyyətli siyasəti nəticəsində Azərbaycan tək regionda deyil, qlobal miqyasda güclü dövlətə, siyasi və iqtisadi sahələrdə öndə gedən lider bir ölkəyə çevrilib. Xüsusilə, Vətən müharibəsində qazandığımız tarixi Zəfərdən sonra Azərbaycanla strateji tərəfdaş ölkələrin sayı artmaqdadır.**



Bakı Dövlət Universitetinin kafedra müdiri, professor Kamilə Əliyeva qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan hər zaman dövlətlərlə müstəqil, bərabərtərəfli formatda əlaqələrin qurulmasının tərəfdarı olduğunu sübut edib. Bu baxımdan Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri arasında əlaqələr dostluq, qardaşlıq təməli üzərində qurulub. "Ötən il Azərbaycanla BƏƏ arasında imzalanmış strateji tərəfdaşlıq sənədi bu əlaqələri daha da genişləndirib. 2025-ci il sentyabrın 16-da BƏƏ-nin Prezidentinin Şuşaya səfəri bu ölkənin suverenliyimizə göstərdiyi dəstəyin bariz nümunəsidir. Prezident İlham Əliyevin BƏƏ-yə budəfəki işgüzar səfəri və bu ölkənin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla görüşü iki dövlət arasında mövcud strateji tərəfdaşlığın yeni mərhələyə qədəm qoymasının göstəricisidir. Ölkə rəhbərimizin də qeyd etdiyi kimi, Azərbaycan və BƏƏ hər zaman bütün beynəlxalq platformalarda bir-birini dəstəkləyir", - deyə o əlavə edib.

Ekspert qeyd edib ki, bu səfərin ən diqqətçəkən və qürurverici məqamlarından biri də Şeyx Zayed Fondunun təsis etdiyi və beynəlxalq miqyasda humanist dəyərlərin təşviqinə xidmət edən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın 2026-cı il üzrə Azərbaycan Prezidenti İlham Əliyevə təqdim olunmasıdır. Bu, dövlət başçımıza regionda sülhün, əmin-amanlığın bərqərar olması istiqamətində gördüyü misilsiz xidmətlərinə görə verilən böyük dəyərdir. Dövlətimizin başçısının BƏƏ-yə səfəri çərçivəsində "Sülh Qalxanı - 2026" adı altında birgə hərbi təlimlərin keçirilməsi hərbi sahədə də əməkdaşlığımızın inkişafından xəbər verir.

K.Əliyeva vurğulayıb ki, Azərbaycanla BƏƏ arasında iqtisadi əlaqələr də hər il artmaqdadır: "Qarşılıqlı sərmayə yatırımları yüksəlir. İki dövlət arasında ticarət dövriyyəsi 2 milyard ABŞ dolları səviyyəsinə çatıb. İl ərzində ticarət dövriyyəsinin bu qədər yüksəlməsi perspektivdə bu sahənin müsbət istiqamətdə inkişaf etməsinə əminlik yaradır. Azərbaycanla BƏƏ arasında enerji təhlükəsizliyi, nəqliyyat-logistika marşrutları, həmçinin humanitar sahələrin inkişafını xüsusi vurğulamaq lazımdır. Prezident İlham Əliyevin BƏƏ-yə səfəri bu ölkə ilə yanaşı, Azərbaycanın Yaxın Şərq regionunda iqtisadi-siyasi əlaqələrinin inkişafına və möhkəmlənməsinə böyük təkan verəcək".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qazaxıstan Mərkəzi Asiyada, Azərbaycan isə Cənubi Qafqazda mühüm coğrafi mövqeyə malik dövlətlərdir

**"Bu gün Qazaxıstan fəal şəkildə nəqliyyat və logistika sahəsinə sərmayə yatıraraq, irihəcmi infrastruktur layihələri həyata keçirərək tranzit imkanlarını artırmağa çalışır. Qazaxıstan parlamenti 2024-cü ildə Orta dəhlizin inkişaf etdirilməsi haqqında Çin ilə imzalanan sazişi təsdiqləyərək (ratifikasiya) qanun qəbul edib. Bu sənədə görə, hər iki dövlət 2040-cı ilə kimi Orta dəhlizlə daşınan konteynerlərin sayını 500 minə çatdırmağı qarşıya məqsəd qoyub".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında Qazaxıstanda fəaliyyət göstərən Çin tədqiqatçıları assosiasiyasının sədri, politoloq Kazbek Maygeldinov deyib.

O bildirib ki, hazırda Çin ticarət yollarını şaxələndirir və Avropa ilə ticarət əlaqələrini yalnız bir yolla deyil, bir neçə yolla davam etdirmək istəyir.

"Çinin bu istəyində Qazaxıstan əsas yerdə durur. Buna görə də Qazaxıstan "Trans-Xəzər" Beynəlxalq Nəqliyyat Marşrutunu inkişaf etdirərək müxtəlif infrastruktur layihələri həyata keçirir, mövcud olanları modernləşdirir. Xəzər sahilindəki limanlarla yanaşı, Çin ilə sərhəddəki "Dostık", "Alınkol-Alaşamkoy" gömrük-keçid məntəqəsində də logistika mərkəzi yaradılıb. Həmçinin Çinin Sian vilayətində terminal istifadəyə verilib. Qazaxıstan ilə Azərbaycan arasında nəqliyyat və tranzit sahəsində yüksələn xətlə inkişaf edən əlaqələr var. Orta dəhliz hər iki dövlətin iqtisadi, siyasi, ticarət əlaqələrinin artmasına, Şərq ilə Qərb arasında əlaqələndirici rol oynamasına geniş imkan yaradır. Qazaxıstan Mərkəzi Asiyada, Azərbaycan isə Cənubi Qafqazda mühüm coğrafi mövqeyə malik olan dövlətlərdir. Orta dəhlizin inkişafında da bu iki dövlətin rolu və fəaliyyəti böyükdür", - deyə politoloq əlavə edib.

# Dövlətlərin nüfuzu həm də sülhə və dialoqa xidmət edən siyasətlə ölçülür



**Prezident İlham Əliyevin nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi ölkəmizin qlobal miqyasda qəbul edilən uğurlu siyasətinin, sülhün, dialoqun təşviqi istiqamətində həyata keçirdiyi ardıcıl dövlət siyasətinin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin növbəti təzahürüdür. Bu nüfuzlu mükafat bəşəriyyətdə sülhə və əməkdaşlığa töhfə verən, insanların həyatının daha yaxşılaşdırılmasına təsir göstərən şəxslərə verilir.**

Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməsi dövlət başçımızın dünyada yüksək nüfuza malik olmasının regionda sülh və əməkdaşlığın formalaşmasına böyük töhfəsi ilə bağlıdır: "Müasir dövrdə dövlətlərin beynəlxalq nüfuzu təkcə iqtisadi və hərbi güclə deyil, eyni zamanda sülhə, humanitar dəyərlərə verdiyi töhfə, multikultural mühitin qorunması və dialoqa xidmət edən siyasəti ilə ölçülür. Bu baxımdan, Prezident İlham Əliyevin nüfuzlu mükafata layiq görülməsi ölkəmizin son illərdə həyata keçirdiyi ardıcıl və məqsədyönlü siyasətin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsinin, sülh gündəliyinin, ölkəmizin qlobal dialoqa verdiyi töhfələrin, sivilizasiyalar arasında körpü rolunun beynəlxalq ictimaiyyət tərəfindən qəbul edildiyinin göstəricisidir".

Deputat qeyd edib ki, regionda dayanıqlı sülhün əldə edilməsi, yeni əməkdaşlıq formatlarının yaradılması və Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun ardıcıl şəkildə gücləndirilməsi Prezident İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyinin, eləcə də uzaqgörən liderlik bacarığının və yüksək diplomatik siyasətinin məntiqi nəticəsidir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi mövqeyini daha da möhkəmləndirib, ölkəmizi regional və qlobal səviyyədə söz sahibi olan dövlətə çevirib.

V.Rəhimzadə vurğulayıb ki, dövlət başçısının mükafatın təqdim olunması münasibətilə Birləşmiş Ərəb Əmirliklərinə səfəri, keçirilən görüşlər iki ölkə arasında münasibətlərin daha da inkişaf edəcəyinin göstəricisidir: "Bu səfər Azərbaycan-BƏƏ münasibətlərinin yüksək səviyyədə olduğunu, qarşılıqlı hörmət və etimada əsaslandığını bir daha nümayiş etdirdi. Hər iki ölkə dünyada sülh, sabitlik və inkişaf naminə ortaq mövqedən çıxış edirlər".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Qlobal dəstək, yüksək qiymət



**"Təsis ediləndən bəri ilk dəfədir ki, "Zayed İnsan Qardaşlığı Mükafatı" tam təyinatı üzrə verilir. Çünki 2019-cu ildə təsis edilən bu mükafat həmin ilin fevralında Əbu-Dabidə Papa Fransisk və Əl-Əzhərin Şeyxi Əhməd əl-Tayyibin imzaladıqları "İnsan Qardaşlığı Sənədi"nə əsaslanır. Yəni bu, dinlərarası barış sənədi idi".**

Bu fikirləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Sahib Alıyev deyib. O bildirib ki, Azərbaycanla Ermənistan arasında münaqişə heç də dini zəmində baş verməyib, burada təcavüzdən söhbət gedir, amma xüsusilə Qərbdə buna həm də sivilizasiyalararası qarşıdurma prizmasından yanaşıldığı heç də sirr deyil. Ona görə də islamın savaş yox, barış dini olduğunu özündə təcəssüm etdirən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın Azərbaycan Prezidentinə verilməsi bunun həm də əməldə təsdiqidir.

Deputat qeyd edib ki, torpaqlarımızda işğal altında olduğu dövrdə böyük dağıntılar, vəhşiliklər törədilməsinə baxmayaraq, Azərbaycan dövləti ona edilənləri təkrarlamadı: "Halbuki Azərbaycanın buna gücü də var idi, əsası da. Ancaq qalib Azərbaycan böyüklük göstərdi və özü sülh təşəbbüsünü irəli sürdü. Bu mükafat isə, birincisi, həmin təşəbbüsə verilən qiymətdir. İkincisi, müharibəni bitirən tərəfin Qarabağ sonrası prosesləri intiqam yox, əməkdaşlıq müstəvisinə daşıdığını təsdiqləyir, yəni Azərbaycanın regional sabitlik aktoru obrazını gücləndirir. Üçüncüsü, ilk növbədə, Körfəz ölkələrinin investorları üçün bu, bir növ zəmanət sertifikatı rolunu oynayır ki, artıq münaqişə bitib və yenisi gözlənilmir. Ermənistan üçün isə bu mükafat "sən uduzsan da, masada yox, masa arxasındasan" anlamı daşıyır. Hay toplumuna "sülh heç də zəiflik demək deyil" narrativi aşılayır və məğlubiyyət travmasını yumşaldır. İstərdik ki, qarşı tərəf bütün bunları düzgün dəyərləndirsin və doğru nəticə çıxarsın".

S.Alıyev vurğulayıb ki, "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimolunma mərasimi zamanı öz videotəbriklərini göndərən liderlərin arasında Ermənistanın xilaskar gözündə gördüyü ölkələrin heç bir təmsilçisinin olmaması da düşündürücüdür. Bu baxımdan, ən çox canfəşanlıq edən, 8 avqust Vaşinqton anlaşmasından sonra sözdə guya əldə olunan razılaşmanı dəstəklədiyini bildirən Fransanın parlamentinin aşağı palatası niyə məhz mükafat verilən gün iki ölkə arasında normallaşma prosesinə zərbə vurmaq məqsədi daşıyan növbəti qətnaməni təsdiqlədi?

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Heydər Əliyev ideyaları və Prezident İlham Əliyevin uğurlu siyasəti ilə yüksələn Naxçıvan

**Naxçıvan Azərbaycanın özünəməxsus strateji, siyasi və mədəni əhəmiyyəti olan bölgəsi kimi tanınır. 1924-cü ildə Naxçıvana Azərbaycan Respublikasının tərkibində muxtariyyət statusunun verilməsi siyasi əhəmiyyəti ilə yanaşı, bu diyarın ictimai, mədəni və iqtisadi inkişafında mühüm rola malik olmuşdur. Muxtariyyətin 102 illik tarixinin ayrı-ayrı dövrlərində inkişafın dinamikasına nəzər saldıqda Naxçıvanın iqtisadiyyatının artım səviyyəsi, xarakteri və sürətində əsaslı fərqlərin mövcud olması aydın nəzərə çarpır.**

Araşdırmalar göstərir ki, muxtar respublikanın yaranmasından II Dünya müharibəsinə qədər keçən dövr ərzində Naxçıvan iqtisadiyyatında əsaslı dəyişikliklər müşahidə edilməmişdir. Naxçıvan iqtisadiyyatına bu mərhələdə lazımi diqqət göstərilməmiş, burada quruculuq və islahatlara gec başlanılmış, nəticədə onun iqtisadi göstəriciləri respublikanın orta göstəricilərindən xeyli geri qalmışdır.

Tərəddüdlü və qeyri-sabit inkişafla xarakterizə edilən 1941-1969-cu illərdə isə təsərrüfatın inkişafı ilə bağlı mərkəzi hökumət tərəfindən müəyyən qərarlar qəbul edilməsinə və bəzi infrastruktur layihələrinin həyata keçirilməsinə baxmayaraq, iqtisadiyyatdakı geriliyi aradan qaldırmaq mümkün olmamışdır. Tarixi geriliyin aradan qaldırılması zəruriliyi iqtisadiyyata xüsusi diqqət yetirilməsini və onun sürətlə inkişaf etdirilməsini tələb edirdi. Bu missiyanı 1969-cu ildə respublika rəhbərliyinə yüksələn Ümummilli Lider Heydər Əliyev öz üzərinə götürdü. Ulu Öndərin hakimiyyətə gəldiyi ilk aylardan başlayaraq, respublikanın bütün regionları kimi, iqtisadiyyatı bərbad vəziyyətdə olan Naxçıvanın sosial-iqtisadi həyatında da ən yüksək inkişaf mərhələsinin möhkəm təməli qoyuldu. Təkcə bir fakt: 1971-1975-ci illərdə Naxçıvan iqtisadiyyatına əvvəlki 46 il ərzində olduğundan daha çox əsaslı vəsait qoyulması həmin dövrədək olan iqtisadi vəziyyəti və yenicə başlanmış quruculuq işlərinin miqyasını təsəvvür etməyə imkan verir.

1970-85-ci illər bütövlükdə Naxçıvanda iqtisadiyyatın sürətli yüksəlişi və sənayeləşməsi ilə xarakterizə olunur. Həmin illərdə İranla birgə Araz çayı üzərində elektrik stansiyası, respublika əhəmiyyətli trikotaj fabriki, yeni mineral su doldurma zavodu, şüşə zavodu, taxıl məhsulları kombinatı, evtikmə kombinatı, dəmir-beton məmulatları zavodu, daş karxanası, kərpic zavodu, bir neçə şərabçılıq müəssisəsi, süd zavodu, bütövlükdə 21 iri sənaye müəssisəsi tikilib istifadəyə verildi. Naxçıvan xalça kombinatının, Şərur konserv zavodunun tikintisi başa çatdırıldı. Elektrotexnika zavodunun, Ordubad konserv zavodunun, ipək fabrikinin yenidən qurulması və genişləndirilməsi işləri həyata keçirildi. Ümummilli Liderin həyata keçirdiyi bu işlərin nəticəsi idi ki, 1985-ci ildə Naxçıvan sənayesi 100-dən çox müəssisə ilə təmsil olunurdu.

Ümummilli Liderimiz böyük uzaqgörənliklə Azərbaycan KP MK-nın və Nazirlər Sovetinin 8 yanvar 1974-cü il tarixli qərarında Naxçıvanın elektrik enerjisi ilə etibarlı təmin edilməsi vəzifəsini irəli sürmüşdü. Məhz Ulu Öndərin sayəsində tikilmiş Araz Su-Elektrik Stansiyası müstəqilliyin ilk illərində blokada vəziyyətinə salınmış Naxçıvanı tamamilə enerjisiz qalmaq təhlükəsindən xilas etdi və ən zəruri tələbatlar müəyyən müddət həmin stansiya vasitəsilə ödənildi.

Heydər Əliyevin quruculuq siyasəti sayəsində 1985-ci ildə Naxçıvanda istehsal edilən sənaye məhsulunun həcmi 1970-ci ilə nisbətən 4,6 dəfə çoxaldı. Bu dövrü səciyyələndirən əsas cəhətlərdən biri də ondan ibarətdir ki, muxtar respublikada tarixən mövcud olmuş sahələr inkişaf etdirilməklə bərabər yeni istehsal sahələri də yaranmış, energetika, dağ-mədən, maşınqayırma və metal emalı kimi mütərəqqi sənaye sahələri sürətlə inkişaf etmişdi. Azərbaycanda mövcud olan 16 iri sahə istehsal kompleksindən 11-i Naxçıvanda yaradılmışdı.

Sənaye ilə yanaşı, həmin dövrdə kənd təsərrüfatında da mühüm irəliləyişlərin əsası qoyulmuşdu. 1970-ci ilə nisbətən 1985-ci ildə əkinçilik və heyvandarlıq məhsullarının ümumi həcmi 1,7 dəfə çoxalmışdı.

1980-ci ilin mayında muxtar respublika partiya və təsərrüfat fəallarının yığıncağında Heydər Əliyev Naxçıvan iqtisadiyyatında mühüm müvəffəqiyyətlər qazanıldığını diqqətə çəkərək bu inkişafın son nəticə olmadığını, iqtisadiyyatın daha da inkişaf etdirilməsinə dair proqramın hazırlandığını qeyd etmiş və bildirmişdi ki, proqramın əsas məqsədi gələcəkdə diyarın daha yüksək sürətlə inkişafını təmin etmək, onu Azərbaycanın ən qabaqcıl regionlarından birinə çevirməkdən ibarətdir.

Bütün bunları xatırlayaraq, Ümummilli Liderimiz muxtar respublikanın 75 illik yubiley tədbirində qürur hissi ilə qeyd edirdi: "Fəxr edirəm ki, Azərbaycanın hər yerində olduğu kimi, mən burada da öz əsərlərimi görürəm. Mənim əsərlərim şeir deyil, roman deyil, elmi kitab deyil, musiqi əsəri deyildir. Mənim əsərlərim xalqım üçün qurduğum, yaratdığım binalar, saraylar, yaşayış evləri, universitet, məktəb binalarıdır, yollardır, körpülərdir, su hövzələri, su kəmərləridir və sair və sair və sairdir".

Ölkəmizin müstəqilliyinin ilk illərində Naxçıvan çox ciddi çətinliklərlə üz-üzə qaldı. Dəmir yolunun bağlanması, elektrik enerjisinin kəsilməsi, təbii qaz verilişinin dayandırılması, bir sözlə, muxtar respublikanın blokadaya alınması ilə Naxçıvanda iqtisadiyyat və insanların gündəlik yaşayışı dözülməz vəziyyətə düşdü.

Taleyin hökmü ilə muxtariyyət tariximizin ağır böhranla mübarizə, iqtisadi islahatların başlanması, sabitləşmə və dinamik inkişafla xarakterizə olunan müstəqillik mərhələsi də Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı oldu. O vaxtlar naxçıvanlılarla birgə çətin şəraitdə yaşayan, xalqın tələbi ilə 1991-ci ilin sentyabrında Ali Məclisə Sədr seçilən Heydər Əliyevin apardığı gərgin işlər sayəsində Naxçıvanı bu ağır vəziyyətdən qurtarmaq mümkün oldu. Naxçıvanın böhrandan çıxarılması üçün, ilk növbədə, siyasi sabitlik, sərhəd rayonlarında erməni təcavüzünün dayandırılması təmin olundu. Dahi rəhbərin şəxsi nüfuzu, qərar qəbulunda prinsipiallığı, gərgin əməyi sayəsində Naxçıvan əhalisinin ərzağa, enerjiyə olan tələbatının ödənilməsi təmin edildi, əhalinin aclıqdan və soyuqdan məhv olmaq təhlükəsinin qarşısı alındı. Daha sonra Naxçıvanın iqtisadi potensialından səmərəli istifadə yollarının tapılması, xarici ticarət və əməkdaşlıq əlaqələrinin qurulması istiqamətində tədbirlər həyata keçirildi. Blokada şəraitində iqtisadi təhlükəsizliyin və inkişafın təmin edilməsi məqsədilə islahat proqramlarının hazırlanmasına və tətbiqinə başlandı. Bu proqramların başlıca cəhətləri bazar iqtisadiyyatının, azad ticarətin və xarici iqtisadi əlaqələrin yaratdığı imkanlardan maksimum şəkildə bəhrələnməkdən ibarət idi. Xarici investisiyaların muxtar respublikaya cəlb edilməsi və qonşu İran və Türkiyə dövlətləri ilə iqtisadi əlaqələrin yaradılması prioritet istiqamətlər hesab edilirdi.

1992-ci ilin oktyabr ayında Araz çayı üzərində Naxçıvanla Türkiyəni birləşdirən Ümid körpüsünün istifadəyə verilməsi, Türkiyədən və İrandan Naxçıvana elektrik xətlərinin çəkilişi və elektrik enerjisinin verilişinə başlanması, Naxçıvanda İran və Türkiyə ilə ilk birgə müəssisələrin yaradılması, İran ərazisindən Bakıya gediş-gəlişi təmin edən Arazboyu avtomobil yolunun inşası, muxtar respublikada yığılıb qalmış bir sıra məhsulların ixracı üzrə müqavilələrin bağlanması məhz Ümummilli Lider Heydər Əliyevin şəxsi nüfuzu sayəsində əldə edilmiş uğurlar idi.

Naxçıvan iqtisadiyyatında aqrar sahənin tarixən mühüm rol oynadığını, bu sahədə islahatların əhalinin ərzaq təminatı baxımından əhəmiyyətini, habelə qısa müddət ərzində nəticə verəcəyini nəzərə alaraq 1992-ci ildə aqrar islahatların həyata keçirilməsinə başlandı. Torpaq islahatının aparılması, kolxoz və sovxozların ləğv edilərək onların əmlakının özəlləşdirilməsi, mal-qaranın əhaliyə satılması ərzaq məhsulları istehsalının artımında mühüm rol oynadı.

Qısa müddət sonra, 1994-cü il martın 4-də Ulu Öndər Heydər Əliyev kənd təsərrüfatı problemlərinin həllinə həsr olunmuş müşavirədə deyirdi: "Kənd təsərrüfatı sahəsində iqtisadi islahatlar yeganə yolumuzdur. Bəs bu islahatları necə, hansı müddətdə keçirmək lazımdır? Bu barədə düşünmək, proqram yaratmaq lazımdır... Yeganə bir təcrübə var... Bəli, bu 1992-ci ilin yazında olubdur. O vaxt biz Naxçıvanda belə qərara gəldik ki, xırdabuynuzlu mal-qaranın hamısı kənd əhalisinə satılsın... Siz nəticəyə fikir verin. Naxçıvanda mal-qaranın ümumi sayı artıb, demək ət istehsalı da çoxalıb. Biz bir şey itirməmişik. Təcrübə öz bəhrəsini verib".

Heydər Əliyevin yenidən Azərbaycanın ali rəhbərliyinə yüksəlməsi ilə Naxçıvan iqtisadiyyatı artıq təcrid olunmuş şəkildə deyil, ölkə iqtisadiyyatı ilə üzvi vəhdətdə inkişaf etməyə başladı və iqtisadi islahatların sürətlə həyata keçirildiyi regiona çevrildi. Blokada şəraitinə baxmayaraq, kənd təsərrüfatı, sənaye, enerji və nəqliyyat sahələrinin inkişafına xüsusi diqqət yetirildi. Əhalinin sosial rifahının yaxşılaşdırılması, məşğulluğun artırılması və yerli istehsalın təşkili istiqamətində ardıcıl tədbirlər görüldü.

2003-cü ildə Azərbaycan Prezidenti İlham Əliyev ölkənin bütün regionlarının, o cümlədən Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafını dövlət siyasətinin əsas prioritetlərindən biri kimi müəyyən etdi. Dövlət başçısı tərəfindən regionların sosial-iqtisadi inkişafı istiqamətində qəbul edilmiş dövlət proqramlarının icra edilməsi muxtar respublika iqtisadiyyatının artımına böyük təkan verdi. Muxtar respublikanın dayanıqlı enerji ilə təmin edilməsi üçün təbii qaz verilişi İran ərazisi vasitəsilə bərpa edilmiş, alternativ enerji mənbələrinin yaradılması istiqamətində çoxşaxəli işlər görülmüşdür. Naxçıvanda yeni su, günəş və istilik elektrik stansiyalarının tikintisi və istismara verilməsi enerji asılılığını aradan qaldırmış, əhalinin fasiləsiz elektrik enerjisi ilə təmin olunmasına şərait yaratmışdır.

Onlarla iri istehsal, təhsil, səhiyyə, mədəniyyət, sağlamlıq müəssisələrinin fəaliyyətə başlaması, genişmiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsi, o cümlədən yol-nəqliyyat infrastrukturunun əsaslı şəkildə yenidən qurulması muxtar respublikanın inkişafına mühüm töhfələr vermişdir.

Müasir dövrdə muxtar respublikada sosial, mədəni və iqtisadi sahələrdə baş verən sürətli yüksəliş Naxçıvan iqtisadiyyatının keyfiyyətcə yeni mərhələyə qədəm qoyması kimi qiymətləndirilə bilər. İnkişafın dəqiq müəyyən edilmiş hədəfləri, çevik və səmərəli islahatlar, qarşıdakı məqsədlərə uyğun qəbul edilən və reallaşdırılan dövlət proqramları, innovasiyalı inkişaf və idarəetmə, mövcud potensialdan maksimum istifadə muxtar respublikanın müasir iqtisadi mənzərəsini formalaşdırmışdır. Azərbaycan Respublikası Prezidentinin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilmiş və hazırda icrası davam etdirilir. Azərbaycan Respublikası Prezidentinin 5 dekabr 2024-cü il tarixli fərmanı ilə Naxçıvan şəhərindən 12 kilometr cənub-qərbdə, Naxçıvan-Sədərək avtomagistralı üzərində 310 hektar sahədə Naxçıvan Sənaye Parkı yaradılmışdır.

Naxçıvanın etibarlı enerji təminatı prioritet məsələ kimi bu gün də diqqətdə saxlanılır. Bunun bariz nümunəsi olan İğdır-Naxçıvan qaz kəməri dayanıqlı enerji təminatı, həm də türk dünyasının bütövlüyünə və güclənməsinə xidmət missiyasını yerinə yetirir. Naxçıvanın enerji təhlükəsizliyini möhkəmləndirmək və onu enerji mərkəzinə çevirmək üçün "yaşıl enerji zonası" elan edilməsi də dövlət başçısının mütərəqqi inkişaf siyasətinin təzahürüdür.

Tarixi Zəfərimizin doğurduğu reallıqlardan irəli gələn və Prezident İlham Əliyev tərəfindən siyasi leksikona əlavə edilmiş Zəngəzur dəhlizi regionun nəqliyyat və ticarət xəritəsini tamamilə dəyişəcək strateji bir layihədir. Zəngəzur dəhlizi Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında quru bağlantını təmin etməklə, uzun illər davam edən kommunikasiya blokadasına son qoyacaqdır. Dəhlizin açılması regionda sülh və əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcək, yeni iş yerlərinin açılması, infrastrukturun inkişafı və turizm imkanlarının genişlənməsi baxımından mühüm rola malik olacaqdır.

Qars-İğdır-Naxçıvan dəmir yolu, İran ərazisi vasitəsilə kommunikasiya layihələrinin reallaşması ilə ikitərəfli və regional nəqliyyat-tranzit əlaqələrinin, yükdaşımaların artırılması, logistik imkanların genişlənməsi və ümumilikdə geniş kommunikasiya bağlantılarının yaradılması mümkün olacaqdır.

Naxçıvan Muxtar Respublikası rezidentlərinin 2026-cı il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergilərdən, gömrük rüsumlarından azad edilməsi və digər güzəştlərin tətbiqi sahibkarlığın inkişafını hədəfləyən dövlət siyasətinin daha bir nümunəsidir.

Naxçıvanın sürətli və məqsədyönlü inkişafı Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasətinin, qətiyyətli liderliyinin və xalqına olan dərin sevgisinin nəticəsidir. O, yalnız Naxçıvanı ağır vəziyyətdən xilas etmədi, eyni zamanda gələcək inkişaf üçün möhkəm təməl yaratdı. Bu gün Naxçıvanın əldə etdiyi uğurların əsasında məhz həmin dövrdə formalaşan strateji inkişaf xətti dayanır. Ölkəmizə rəhbərliyinin ilk dövründə müşahidə edilən canlanma və inkişaf, yenidən hakimiyyətə qayıdışından sonra baş verən sürətli pozitiv dəyişikliklər, 2003-cü ildən sonrakı dövrdə formalaşan iqtisadi yüksəlişin müasir mənzərəsi belə deməyə əsas verir ki, Naxçıvanın inkişafı Ümummilli Lider Heydər Əliyevin və Ulu Öndərin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin misilsiz xidmətləri ilə bağlıdır.



***Müslüm CABBARZADƏ,***
***iqtisad üzrə fəlsəfə doktoru, dosent***

# Sülh güclü dövlətin, ədalət isə qalib xalqın haqqıdır...

**2026-cı il 5 fevral Azərbaycanın müasir tarixində tarixi ədalətin bərqərar olduğu gün kimi yaddaşlara yazıldı. Necə ki, 8 Noyabr döyüş meydanında qazanılmış Zəfərin rəmzinə çevrilmişdi, bu tarix də hüququn, beynəlxalq ədalətin və dövlət iradəsinin qələbə çaldığı gün kimi tarixə yazıldı.**

Azərbaycanda uzun müddət davam edən və ictimai şüurda artıq "Azərbaycanın Nürnberq prosesi" kimi dəyərləndirilən məhkəmə prosesi demək olar ki, başa çatdı.

Onilliklər ərzində sülh və insanlıq əleyhinə ağır cinayətlər törətməkdə təqsirli bilinən, mülki əhaliyə qarşı zorakılıqlarda, etnik təmizləmə və terror aktlarında iştirak etmiş erməniəsilli şəxslər, o cümlədən Arayik Harutyunyan məhkəmənin hökmü ilə ömürlük azadlıqdan məhrum edildilər.

Bu hökm təkcə ayrı-ayrı şəxslərə verilmiş cəza deyil. Bu, cəzasızlıq anlayışına, işğala, zorakılıq və nifrət ideologiyasına qarşı hüquqi və mənəvi mövqenin ifadəsidir. Azərbaycan dövləti bir daha nümayiş etdirdi ki, müharibə və insanlıq əleyhinə cinayətlər nə unudulur, nə də zamana tabe olur - gec-tez hüquqi müstəvidə öz qiymətini alır.

Cəmiyyətin bu hökmü necə qətiyyət və ədalət hissi ilə qarşıladığı da təsadüfi deyil. Çünki bu qərar təkcə milli hüququn deyil, beynəlxalq hüququn da tələblərinə cavab verir.

Qurbanların haqqının tanınması, ədalətin bərpası və hüquqi məsuliyyətin təmin edilməsi davamlı sülhün əsas şərtidir.



Məhz bu məqamda fundamental bir həqiqət bütün aydınlığı ilə ortaya çıxır: ədalət olmadan sülh mümkün deyil. Qarabağda törədilmiş cinayətlərə hüquqi qiymət verilmədən, tarixi ədalət bərpa olunmadan bölgədə uzunmüddətli və etibarlı sülhdən danışmaq mümkün deyildi.

Bu baxımdan, Bakıda elan olunan hökm region üçün yeni mərhələnin - hüquqa və ədalətə əsaslanan sülh mərhələsinin başlanğıcıdır.

Bu reallıq fonunda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinin təşəbbüsü ilə təsis edilmiş nüfuzlu "Zayed İnsan Qardaşlığı Mükafatı" ilə təltif olunması tam məntiqi və ardıcıl görünür. Bu mükafat insan hüquqlarının müdafiəsi, mədəniyyətlərarası dialoqun təşviqi və qlobal həmrəyliyin möhkəmləndirilməsi sahəsində göstərilən xidmətlərə görə təqdim olunur və yalnız müharibəni dayandıranlara deyil, ədalətli sülhü təmin edən liderlərə verilir.

Prezident İlham Əliyev hərbi qələbəni hüquqi və siyasi məsuliyyətlə tamamlayaraq sülhü beynəlxalq hüquq normalarına əsaslanan legitim müstəvidə qurdu. Qarabağda törədilmiş ağır cinayətlərin məhkəmə yolu ilə araşdırılması və cəzalandırılması bu siyasi iradənin və insan mərkəzli yanaşmanın ayrılmaz tərkib hissəsidir.

Beləliklə, iki mühüm proses bir-birini tamamlayır:

- Qarabağda törədilmiş cinayətlərə görə verilən ədalətli və qəti hökm,
- və həmin ədaləti mümkün edən siyasi xəttə beynəlxalq etimadın ifadəsi olan sülh mükafatı.

Bu, tarix qarşısında Azərbaycanın haqqının tanınmasıdır.

Bu, Zəfərin hüquqi və mənəvi tamamlanmasıdır.

Və bu gün bir daha sübut olunur ki, sülh güclü dövlətin, ədalət isə qalib xalqın haqqıdır...

***Bahar MURADOVA,***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri***

# Cinayət cəzasız qalmadı

**Haqqın yerini tapdığı nöqtəyə çatdıq. Ötən ilin yanvarında başlamış və bir ildən çoxdur davam etdirilən məhkəmə prosesində təqsirləndirilən Ermənistan vətəndaşlarına fevralın 5-də hökm oxundu.**

Bakı Hərbi Məhkəməsində aparılan məhkəmə prosesində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən şəxslər, Arkadi Qukasyan, Bako Sahakyan, Arayik Harutyunyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan, David Manukyan və digər separatçılar Azərbaycan qanunları qarşısında cavab verdilər. Bir daha göründü ki, onların törətdikləri məqsədli, sistemli şəkildə həyata keçirilmiş cinayətlərdir. Onlara qarşı irəli sürülən ittihamlar isə xalqımızın taleyinə vurulmuş yaraların hüquqi ifadəsidir desək, yanılmarıq.

Tarixin yaddaşı uzundur. Ədalətin yolu isə ağırdır. İllərlə səbrimiz sınandı. Məhkəmədə çıxarılan tarixi hökm sinəmizdə düyünlənən ağrının, susdurulan fəryadların, yarımçıq qalan talelərin səsinə verilmiş bir cavab oldu. Ədalət zəfər çaldı.

Qeyd edək ki, Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Manukyan, David Babayan, Levon Mnatsakanyan, Vasili Beqlaryan, Erik Qazaryan, Davit Allahverdiyan, Qurgen Stepanyan, Levon Balayan, Madat Babayan, Qarik Martirosyan, Melikset Paşayan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurdular.

1980-ci illərin sonlarından başlayaraq, Qarabağı separatçılıq ocağına çevirən, himayədarlarının verdiyi silahlarla mülki azərbaycanlılara qarşı ən ağır cinayətləri törədən bu şəxslər cəzasız qalacaqlarını düşünürdülər. Müharibə caniləri ən dəhşətli cinayətlərdən birini Xocalıda törədiblər. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan Silahlı Qüvvələri tərəfindən Rusiyanın 366-cı motoatıcı alayının iştirakı ilə Xocalı şəhərini işğal edərkən, Xocalının yerli əhalisi olan Azərbaycan türklərinə qarşı baş vermiş soyqırımı nəticəsində 63-ü uşaq, 106-sı qadın, 70-i qoca və qarı olmaqla, 613 Xocalı sakini qətlə yetirilib, 8 ailə tamamilə məhv edilib, 25 uşaq hər iki valideynini, 130 uşaq valideynlərindən birini itirib. Düşmən gülləsindən 76-sı uşaq olmaqla, 487 nəfər yaralanıb. 1275 nəfər əsir götürülüb. Əsir götürülənlərdən 150 nəfərinin, o cümlədən 68 qadın və 26 uşağın taleyi bu günədək məlum deyil.

Malıbəyli və Quşçular qətliamları da xalqımıza qarşı törədilən dəhşətli cinayətlərdən biridir. Qarabağ müharibəsi zamanı fevralın 10-dan 12-dək erməni qeyri-qanuni silahlı birləşmələri tərəfindən Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərinə eyni zamanda edilən hücum nəticəsində təxminən 50-yə yaxın dinc etnik azərbaycanlı qətlə yetirilib.

Həmçinin Qaradağlı faciəsini qeyd edə bilərik. Erməni hərbi birləşmələri 1992-ci il fevralın 14-də Xankəndidə yerləşən keçmiş SSRİ silahlı qüvvələrinin 366-cı motoatıcı alayının hərbi qüvvəsinin və texnikasının köməyi ilə Xocavəndin Qaradağlı kəndinə hücum etdi. Sakinlərin kəndi qəhrəmancasına müdafiə etməsinə baxmayaraq, fevralın 17-də qeyri-bərabər döyüşlərdə Qaradağlı kəndi ermənilər tərəfindən işğal olundu. 118 nəfər əsir götürülənlərdən 101 nəfəri vəhşicəsinə qətlə yetirildi. Öldürülənlərdən 21 nəfəri ahıl və qoca, 10 nəfəri qadın, 8 nəfəri məktəbli idi.

1991-ci il avqustun 23-də Əsgəran rayonunun Cəmilli kəndində mülki şəxslərin olduğu UAZ markalı avtomobil avtomat silahlardan atəşə tutulub. Nəticədə bir neçə nəfər hadisə yerində həlak olub, çoxlu sayda insan ağır yaralanıb. Xocavənddə, Qazaxın Xeyrımlı kəndində baş verən hadisələr də erməni cinayətlərinin dəhşətli izləridir. Bu cür cinayət faktları çoxdur. Bütün bunları Azərbaycan xalqı unudarmı heç?!

2020-ci il sentyabrın 27-də başlanan və 44 gün davam edən Vətən müharibəsi və 2023-cü ilin antiterror əməliyyatları ilə döyüş meydanında haqq-ədalət öz yerini tapdı. Azərbaycan Ordusu torpaqlarımızı azad edərək tarixin axarını dəyişdi. 2023-cü ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirləri ilə isə suverenlik tam bərpa olundu. Bu gün üçrəngli bayrağımız Qarabağda qürurla dalğalanır. Bütün bunlar yolun sonu demək deyildi. Bu, ədalətin hüquqi mərhələsinin başlanğıcı idi.

Tarixlə üzləşmək cəsarət tələb edir. Məhkəmə zalında səslənən ifadələr, zərərçəkənlərin danışdıqları canlı tarix olaraq dinlənildi. Onların söylədikləri bütün hadisələr minlərlə ailənin taleyində yaşayan ağrı-acının ifadəsidir.

İlahi ədalətin bərqərar olmasını uzun illərdir ki, gözləyirdik. Müharibə canilərinə çıxarılan ədalətli hökm heç bir cinayətin əsla cəzasız qalmayacağının bariz nümunəsidir. İlahi ədalət mütləq bərqərar olur.

***Təhminə VERDİYEVA,***
***"Azərbaycan"***

# Tarixin hökmü, hüququn təntənəsi

**Postmünaqişə dövründə əsas məsələlərdən biri də törədilmiş cinayətlərə hüquqi qiymətin verilməsidir. Davamlı sülhün və regional sabitliyin təmin olunması yalnız hərbi qarşıdurmanın başa çatması ilə məhdudlaşmır. Eyni zamanda ədalətin bərqərar olunmasını, beynəlxalq hüquq normalarına uyğun məsuliyyət mexanizmlərinin tətbiqini zəruri edir. Bu baxımdan, müharibə cinayətlərinə münasibət dövlətin hüquqi iradəsinin və prinsipial mövqeyinin mühüm göstəricisidir.**

Münaqişələrə son qoyulur, müharibələr başa çatır, ancaq xalqlara qarşı törədilmiş insanlıq əleyhinə ağır cinayətlər nə yaddan çıxır, nə də tarixdən silinir. Müharibə cinayətləri törətmiş şəxslər bəzən uzun müddət məsuliyyətdən yayınsalar da, sonunda ədalət öz yerini tapır.

Azərbaycanın əraziləri 1980-ci illərin sonlarından Ermənistan tərəfindən münaqişə ocağına çevrildi. 1990-cı illərdə Qarabağ və Şərqi Zəngəzur torpaqlarımız işğal edildi. Azərbaycan xalqına qarşı erməni faşistləri tükürpərdici faciələr, qətliamlar, soyqırımları törətdilər. 1994-cü ildə imzalanan atəşkəs sazişindən sonra da Ermənistanın Azərbaycana qarşı təxribat, terror əməlləri bitmədi. 2020-ci ildə İkinci Qarabağ müharibəsində və 2023-cü ildə lokal xarakterli antiterror əməliyyatında qələbələri ilə Müzəffər Azərbaycan Ordusu Qarabağ və Şərqi Zəngəzur ərazilərimizi düşməndən həmişəlik xilas etdi.

Azərbaycan dövləti müharibədən sonrakı dövrdə ərazilərinin işğalı, müharibə cinayətləri, soyqırımı və digər ağır cinayətlər törətmiş şəxslərin ədalət mühakiməsi qarşısına çıxarılması istiqamətində ardıcıl və prinsipial addımlar atdı. Rəsmi Bakı xarici təsir və əsassız təzyiqlərə baxmayaraq, öz mövqeyindən geri çəkilmədi. Bu proses dövlətimiz tərəfindən beynəlxalq hüquq normaları və milli qanunvericilik əsasında həyata keçirildi.

Dövlətimizin başçısı İlham Əliyev ötən il noyabrın 8-də Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradda çıxışında bildirdi: "Ermənistan isə düzgün nəticə çıxara bilməmişdir və İkinci Qarabağ müharibəsi ərəfəsində daha da azğınlaşmışdı, bizə qarşı yeni ərazi iddiaları ilə çıxış etməyə başlamışdı. Onlar bizi yeni müharibə ilə hədələyirdilər. Hətta deyirdilər ki, onlar yeni torpaqlar uğrunda yeni müharibə aparacaqlar və Azərbaycanı tam işğal edəcəklər. Deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq. Deyirdilər ki, onlar Bakıda çay içəcəklər. Əslində, onların bu arzuları həyata keçdi. Onları biz gerçəkləşdirdik. Onların tankları bu gün Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Erməni hərbi cinayətkarları bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər və istintaq təcridxanasında Azərbaycan çayını içirlər".

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Sahakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiri barəsində 2025-ci il yanvarın 17-də başlamış məhkəmə prosesi bir ildən çox davam etdi. Təqsirləndirilən şəxslərin azərbaycanlılara qarşı törətdikləri ağır cinayətlər dəfələrlə araşdırıldı, minlərlə şahid ifadə verdi.

Məhkəmə prosesində beynəlxalq hüququn əsas prinsipləri tətbiq olundu. İttiham olunan şəxslərin törətdikləri cinayətlər çoxsaylı sübutlarla təsdiqləndi, şahid ifadələri və arxiv sənədləri hər detalı dəqiqliklə araşdırıldı, istintaqın tam obyektiv şəkildə aparılması təmin edildi.

Məhkəmə prosesinin ən önəmli məqamlarından biri təqsirləndirilənlərin öz etirafları oldu. Onlar açıq şəkildə etiraf etdilər ki, Birinci və İkinci Qarabağ müharibələrində Azərbaycanın mülki şəxsləri təsadüfi hədəf olmayıblar. Yaşayış məntəqələrinə atəş açmaq qorxu yaratmaq və terror məqsədi daşıyıb. Hər bir hərbi əməliyyat mərkəzləşdirilmiş göstərişlə həyata keçirilib.

Ötən il martın 3-də Bakı Hərbi Məhkəməsində keçirilən məhkəmə prosesinin baxış iclasında təqsirləndirilən şəxslər Lyova Mnaksakanyan, Arayik Harutyunyan, Erik Qazaryan və Vasili Beqlaryan sərbəst ifadə verdilər.

Təqsirləndirilən şəxs Arayik Harutyunyan 2020-ci ilin yayında və iyunun sonunda "Qarabağ ordusu"nun təlimlərini müşahidə etdiyini bildirərək təlimlərə Ermənistan ordusunun qərargah rəisi Onik Qasparyanın rəhbərlik etdiyini, habelə Azərbaycanın dərinliklərinə zərbələr endirilməsi barədə qərarların Ermənistanda verildiyini etiraf etdi: A.Harutyunyanın etiraflarından biri də bu oldu ki, "Qarabağ Müdafiə Ordusu"nun "komandanı" Ermənistan Respublikasının Baş Qərargah rəisinə tabe idi.

Martın 17-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxs Levon Mnatsakanyan da etiraf etdi ki, qondarma rejimin "ordusu"nda yüksək vəzifələrə təyinatlarla bağlı qərarlar Ermənistanda verilib. O deyib ki, polkovnik-leytenant və daha yuxarı rütbələr üzrə vəzifələrin təyinatını Ermənistan silahlı qüvvələrinin baş qərargah rəisi, müdafiə naziri və prezidenti edib. "Mən isə "ordu"nun "komandiri" kimi mayor daxil olmaqla, ondan aşağı vəzifələri təyin edə, mayora qədər rütbə verə bilərdim".

Təqsirləndirilən şəxs əlavə edib ki, qondarma rejimin "ordusu"nun maliyyə məsələləri Ermənistanın Müdafiə Nazirliyi tərəfindən, silah-sursat isə tam olaraq Ermənistan silahlı qüvvələri tərəfindən təmin olunurdu. O, daha sonra bildirib: "Bizdə təchizat xidməti var idi. Təchizat xidməti qəbul edirdi, sonra hər bölməyə təqdim olunurdu. Yəni silah-sursat təminatı Ermənistanın Müdafiə Nazirliyi tərəfindən həyata keçirilirdi".

Ötən il aprelin 18-də Bakı Hərbi Məhkəməsində davam etdirilən məhkəmə prosesində təqsirləndirilən şəxs Madat Babayan Ermənistan silahlı qüvvələrinin tərkibində Xocalı soyqırımında iştirak etdiyini etiraf etdi. O, dindirilərkən 1992-ci il fevralın 25-də və 26-da Xocalıda olduğunu təsdiqləmişdi: "Bizi oraya dəstə rəhbərimiz aparmışdı. Adı Henrik Tamrazyan idi. Məqsəd o idi ki, azərbaycanlılar Xocalıdan çıxarılsın".

Madat Babayan bildirdi ki, Xocalıda bütün əmrləri "Xolostoy" ləqəbli Arkadi Şirinyan verirdi: "Bizə isə əmrləri Vanik Petrosyan verirdi. Silahsız insanlara atəş açıb onların qətlə yetirilməsi əmrini Vanik verib. Vanik və Arkadi insanların barmaqlarını, meyitlərin qulaqlarını kəsirdilər". O, Xocalıya silahlarla gəldiklərini, zirehli texnikalardan istifadə edildiyini təsdiqləyib. Təqsirləndirilən şəxs silahsız insanların qətlində iştirakını etiraf edib və deyib: "Səhv etmişik". Madat Babayan Xocalıda aralarında uşaqların, qocaların və qadınların da olduğu təxminən 150 meyit gördüyünü, meyitlərin erməni hərbçiləri tərəfindən maşınlara yığılaraq aparıldığını bildirdi.

Nəhayət, 2026-cı il fevralın 5-i cinayətkarlar barəsində yekun məhkəmə qərarı (hökm) elan olundu.

Bakı Hərbi Cinayətlər Məhkəməsində çıxarılan qərarlar tarixi ədalətin bərpası kimi qiymətləndirilməlidir. Hökm həm də Azərbaycanın hüquqi və siyasi iradəsinin göstəricisi oldu. Bu qərarlar beynəlxalq aləmə bir daha bəyan etdi ki, Azərbaycanın mövqeyi dəyişməzdir.

Məhkəmənin verdiyi hökmlər, çıxardığı qərarlar xalqımızın yaralarını tam sağaltmasa da, tarixin unudulmadığını göstərir. Ağır cinayətlər cəzasız qalmayacaq və hüquqi normalar qorunacaq. Bakı Hərbi Cinayətlər Məhkəməsində çıxarılan qərarlar yalnız hüquqi deyil, həm də tarixi əhəmiyyət daşıyan hadisə kimi yadda qalacaq.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***



# Dostluğa dayanan strateji tərəfdaşlar

**Azərbaycan və Pakistan arasındakı əlaqələr müasir beynəlxalq münasibətlər sistemində nümunəvi model hesab edilə bilər. Bu əlaqələr sarsılmaz mənəvi dəyərlər və qarşılıqlı etimad üzərində qurulub. Pakistanın 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olması və Ermənistanı bir dövlət kimi tanımamaq barədə qətiyyətli mövqeyi xüsusilə önəm kəsb edən məqamlardandır. Bu gün Bakı və İslamabad arasındakı əməkdaşlıq artıq regional çərçivələri aşaraq qlobal əhəmiyyət kəsb edən strateji müttəfiqliyə çevrilib.**



Azərbaycan-Pakistan münasibətlərinin ən parlaq səhifəsinin 44 günlük Vətən müharibəsi zamanı yazıldığını qeyd edən Milli Məclisin deputatı Zaur Şükürov qəzetimizə açıqlamasında bildirib ki, savaşın ilk günlərindən etibarən Pakistan dövləti və xalqı birmənalı şəkildə Azərbaycanın yanında olub: "Pakistanın siyasi rəhbərliyinin dəstək bəyanatları xalqımız üçün böyük mənəvi stimul oldu. Müharibə dövründə Bakı küçələrində Azərbaycan və Türkiyə bayraqları ilə yanaşı dalğalanan Pakistan bayrağı iki qardaş dövlətin xalqları səviyyəsində bu birliyin təcəssümü idi. Pakistanın beynəlxalq arenalarda Ermənistanın hərbi cinayətlərini ifşa etməsi və Azərbaycanın ərazi bütövlüyünü qətiyyətlə müdafiə etməsi ölkəmiz üçün xüsusi əhəmiyyət kəsb edirdi. Ölkələrimiz arasındakı münasibətlərin yüksək dinamika ilə inkişaf etməsində Prezident İlham Əliyevlə Pakistanın ali rəhbərliyi arasındakı şəxsi dostluq və qarşılıqlı hörmət həlledici rol oynayır. Liderlər arasındakı mütəmadi təmaslar və səfərlər qarşılıqlı maraq doğuran məsələlərlə bağlı qərarların operativ qəbuluna şərait yaradır".

Deputat vurğulayıb ki, fevralın 4-də Əbu-Dabidə keçirilən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimetmə mərasimində Pakistanın Baş nazirinin Prezident İlham Əliyevə ünvanladığı videomüraciət bu yaxınlığın beynəlxalq müstəvidə nümayişi idi. Bu müraciətində Məhəmməd Şahbaz Şərif Prezident İlham Əliyevin qətiyyətli və cəsarətli rəhbərlik keyfiyyətlərini təqdir edərək, onun uzaqgörən siyasətinin sülhə yolun açılmasında, əmin-amanlığın gücləndirilməsinə töhfə verdiyini bildirdi.

Z.Şükürov deyib ki, qardaşlıq münasibətləri və siyasi həmrəylik təbii olaraq digər sahələrdə də əməkdaşlıq üçün münbit şərait yaradıb və burada hərbi istiqamət də istisna deyil: "Azərbaycan və Pakistan orduları arasında təcrübə mübadiləsi və birgə təlimlər artıq ənənəvi xarakter alıb. Azərbaycanın Pakistan istehsalı olan "JF-17 Thunder" qırıcılarına maraq göstərməsi və hərbi-texniki sahədə müzakirələrin davam etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Müdafiə sənayesi sahəsində hər iki ölkənin mövcud potensialı gələcəkdə bu istiqamətdə yeni əməkdaşlıq istiqamətlərinin nəzərdən keçirilməsini, o cümlədən birgə istehsal xətlərinin istifadəyə verilməsini mümkün edir. Ticari-iqtisadi, investisiya və enerji sahələrində də geniş imkanlar mövcuddur və bu istiqamətdə hər iki tərəfin səyləri nəticəsində əməkdaşlığın dərinləşdirilməsi ehtimalı yüksəkdir".

Azərbaycanın Pakistan iqtisadiyyatına irihəcmli investiya yatırmasını nəzərdən keçirdiyini diqqətə çatdıran deputat əlavə edib ki, Pakistan şirkətləri işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun bərpasında iştiraka maraq göstərir. Azərbaycanın isə zəngin karbohidrogen ehtiyatları Pakistanın artan enerji ehtiyaclarını qarşılamaq üçün etibarlı mənbədir. "SOCAR-ın Pakistana mayeləşdirilmiş təbii qaz tədarükü üzrə sazişləri Pakistanın enerji təhlükəsizliyinə birbaşa töhfədir. İki ölkə arasında fəaliyyət göstərən Enerji üzrə Birgə İşçi Qrupunun onlayn formatda keçən ilin dekabrında baş tutan 2-ci iclasında bu sahədə gündəlikdə duran məsələlər və yeni əməkdaşlıq istiqamətləri nəzərdən keçirilib. Kənd təsərrüfatı sahəsində Pakistanın böyük təcrübəsi Azərbaycanın ərzaq təhlükəsizliyi strategiyası ilə tam üst-üstə düşür. Azərbaycan tərəfi isə öz növbəsində Pakistana mineral gübrələr və aqrar texnologiyalar ixrac edir", - deyə deputat bildirib.

Z.Şükürov qeyd edib ki, İslam Əməkdaşlıq Təşkilatı Azərbaycan və Pakistanın beynəlxalq müstəvidə ən sıx əməkdaşlıq etdiyi platformadır. Hər iki ölkə islamofobiya ilə mübarizədə, müsəlman xalqlarının hüquqlarının qorunmasında vahid mövqedən çıxış edir. Azərbaycanın Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini dəstəkləyən bəyanatları İslamabadda yüksək ehtiramla qarşılanır. Təhsil sahəsindəki əməkdaşlıq da münasibətlərin gələcək inkişafında mühüm rola malikdir və Azərbaycan universitetlərində təhsil alan pakistanlı tələbələr sabahın "xalq diplomatları"dır. Eyni zamanda Heydər Əliyev Fondunun Pakistanda həyata keçirdiyi humanitar layihələr Azərbaycanın Pakistan xalqına olan dəstəyinin təzahürüdür.

Deputat yekunda vurğulayıb ki, sadalanan faktlar, xüsusilə də ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri, ölkə liderlərinin nümayiş etdirdiyi siyasi iradə iki dövlət arasında uzun illər ərzində formalaşmış və etibarlı təməl üzərində qurulmuş əlaqələrin gələcəkdə daha da dərinləşəcəyini deməyə əsas verir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Kilsənin və müxaliflərin ideoloji məğlubiyyəti

**Bakı Hərbi Məhkəməsində separatçı rejimin keçmiş rəhbərlərinə oxunan hökmlər Ermənistandakı revanşist müxalifəti, kilsə və onlara xaricdən dəstək verən dairələri ciddi şəkildə məyus edib. Çünki fevralın 5-də separatçı tör-töküntülərin üzünə oxunan hökmlər, sadəcə, çoxsaylı cinayətlər törətmiş ünsürlərin ağır formada cəzalandırılması deyil, eyni zamanda, onillər ərzində uydurulmuş miflərin və gorbagor olmuş "Artsax" xülyasının hüquqi müstəvidə dəfn edilməsi idi.**



O səbəbdən, bu şəxslərin dünyanın gözü qarşısında cəzalandırılması Ermənistan müxalifətinin və onlara qucaq açanların ideoloji məğlubiyyəti sayılır. Həbs olunan separatçıların verdiyi ifadələrdə müharibə cinayətləri və onların sifarişçiləri, xarici dövlətlərin münaqişədəki gizli rolları da ifşa olundu. Bununla da, erməni himayədarlarının "humanitar" kartdan istifadə edərək bu cinayətkarları xilas etmək cədhləri fiaskoya uğradı. Məhkəmə prosesi beynəlxalq aləmə göstərdi ki, separatizm və dövlət suverenliyinə qəsd heç vaxt cəzasız qalmır.

Ancaq erməni müxalifəti və kilsə yaranmış "fürsətdən" Nikol Paşinyan hökumətini zəiflətmək və Azərbaycanı hədəf göstərmək məqsədilə maksimum istifadə edirlər. Müxalif dairələr bu hökmləri Ermənistanın "milli rüsvayçılığı" kimi qiymətləndirir, Paşinyanı Bakıda məhkəmə qarşısında cavab verən şəxslərin taleyinə biganə qalmaqda və onların azad edilməsinə maraq göstərməməkdə ittiham edirlər. Hüquqşünas Siranuş Saakyan "ədalətli mühakimənin" təmin edilməməsi iddiasını irəli sürür. Kampaniyanın başında duran "Hayastan" bloku və terrorçu "Daşnaksütyun" partiyasının tərəfdarları Azərbaycana qarşı təhdid dolu videolar yayırlar. Şübhə yox ki, erməni müxalifətini və kilsəni separatçıların taleyi yox, Paşinyanı daha çox küncə sıxışdırmaq maraqlandırır. Əslində, revanşistlər də yaxşı bilirlər ki, separatçı rəhbərlərin törətdiyi konkret cinayətləri ört-basdır etmək qeyri-mümkündür. Paşinyan hökumətinin susqunluğu isə İrəvanın real vəziyyəti qəbul etmək məcburiyyətindən irəli gəlir.

Prosesə özünəxas şəkildə burnunu soxan düşmənlərdən biri də Rusiya Dövlət Dumasının üzvü, ermənipərəst Konstantin Zatulin olub. Zatulin Bakıda keçirilən məhkəmə prosesini "siyasi qisas" və "qondarma ədalət" adlandırıb. O, ittiham olunan şəxslərin heç vaxt Azərbaycan vətəndaşı olmadıqlarını iddia edərək, onların Azərbaycan qanunları ilə mühakimə edilməsini qanunsuz sayıb. Erməni sevdalısı Paşinyanı öz həmyerlilərini taleyin ümidinə buraxmaqda və "xəyanətdə" suçlayıb.

Zatulinkimilər unudurlar ki, Birləşmiş Millətlər Təşkilatı və bütün dünya birliyi Qarabağı Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi tanıyır. Bu səbəbdən, Azərbaycanın öz ərazisində qanunsuz silahlı birləşmələr yaradan və separatçılıq fəaliyyəti göstərən şəxsləri mühakimə etməsi dövlətimizin legitim hüququdur. Beynəlxalq hüquqa görə, cinayət törədilən yerin qanunları əsas götürülür. Separatçı ünsürlər hansı ölkənin pasportunu daşımasından asılı olmayaraq, Azərbaycan qanunları qarşısında cavabdehlik daşıyırlar. Həmçinin ittihamlar, sadəcə, separatçılıqla bağlı deyildi, bu şəxslər dinc əhaliyə qarşı törədilmiş terror aktlarında, yaşayış məntəqələrinin bombalanmasında, Xocalı soyqırımında birbaşa iştirak ediblər, yaxud əmrlər veriblər. Bunlar beynəlxalq səviyyədə ağır cinayətlər hesab edilir. Üstəlik, Ermənistanın indiki rəhbərliyi Azərbaycanın ərazi bütövlüyünü tanıdığını rəsmən bəyan edib ki, bu da beynəlxalq sənədlərə əsaslanan bir reallıqdır.

Xülasə, məhkəmə proseslərinin beynəlxalq hüquq normalarına uyğun keçirilməsi, vəkillərin təmin edilməsi və prosesin işıqlandırılması üçün şərait yaradılması erməni müxalifətinin və onların dəstəkçilərinin bütün əsassız ittihamlarını alt-üst edir. Bakı Hərbi Məhkəməsinin çıxardığı qərarlar, sadəcə, hüquqi prosedur deyil, eyni zamanda 30 illik işğal, terror və separatizm dövrünə vurulan tarixi möhürdür. Bu hüquqi zəfər bölgədə davamlı sülhün və sabitliyin də ən böyük təminatıdır.

*İsmayıl QOCAYEV, "Azərbaycan"*

# Revanşistlərin sülh qorxusu

## Müxalifət N.Paşinyanın "münaqişə bitib" bəyanatını həzm edə bilmir

**Ermənistanın Baş naziri Nikol Paşinyanın Birləşmiş Ərəb Əmirliklərində keçirilən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın təqdimat mərasimindəki çıxışı daxildəki müxalif və revanşist qüvvələr tərəfindən kəskin etirazla qarşılanıb. Buna səbəb N.Paşinyanın onillərdir davam edən münaqişənin bitdiyini beynəlxalq tribunadan elan etməsi olub. Baş nazir bildirib ki, Ermənistanla Azərbaycan arasında indiki vəziyyəti təsəvvür etmək mümkünsüz idi. Paşinyan hazırda baş verənlərin də inanılmaz olduğunu söyləyib: "Sülh və bu mükafatın verilməsi nəinki onun qeyd edilməsidir, həmçinin onun təsdiqidir ki, Ermənistan və Azərbaycan münaqişə dövrünü geridə qoyublar".**

Baş nazirin optimist bəyanatlarını qəbul etməyən politoloq Suren Surenyants sosial şəbəkə hesabında yazıb ki, münaqişənin başa çatdığı təəssüratını formalaşdırmaq nə qədər cazibədar səslənsə də, siyasi reallıq simvolların deyil, faktların dili ilə danışmağı tələb edir. Ekspertin iddiasına görə, ortada imzalanmış rəsmi sülh müqaviləsi olmadığı halda səslənən belə fikirlər, sadəcə, "sülh illüziyası" yaratmağa və seçkiqabağı dövrdə hökumətə inam formalaşdırmağa xidmət edir. Onun qənaətincə, münaqişənin bitdiyini vaxtından əvvəl elan etmək Ermənistanın beynəlxalq vasitəçilik və dəstək imkanlarını məhdudlaşdıraraq, ölkəni siyasi cəhətdən çətin vəziyyətə salır.

Revanşist kəsimi təmsil edən erməni şərhçinin təhlili Ermənistandakı müxalif düşüncənin tipik nümunəsidir. Müxalifətin narahatlığına səbəb odur ki, "münaqişə bitdi" ifadəsindən sonra Bakının hər hansı haqlı tələbi qarşısında Qərbdən və ya digər himayədar güclərdən dəstək istəyə bilməyəcəklər. Üstəlik, Paşinyanın bəyanatlarının Ermənistanı beynəlxalq arenada "qurban" statusundan çıxaracağını düşünürlər.

Revanşist düşərgənin arqumentləri erməni ictimaiyyətinə "soyuqqanlı analiz" kimi təqdim olunsa da, əslində bu yanaşma Ermənistanı münaqişə döngəsində saxlamağa xidmət edir. Müxalifətin Paşinyanın sülh ritorikasına qarşı çıxması regionun gələcəyi üçün ciddi risklər daşıyır. Surenyantskimilər iddia edirlər ki, sülh müqaviləsi imzalanmadan sülhdən danışmaq illüziyadır. Lakin tarixdə bir çox münaqişənin birdəfəlik həlli və qalıcı sülh məhz tərəflər arasında etimad mühitinin yaradılması, müharibə ritorikasının dəyişməsi sayəsində reallaşıb. Əgər Ermənistan rəhbərliyi "müharibə hələ bitməyib" ritorikasını saxlasaydı, sülh sənədinin paraflanması və Vaşinqton razılaşmaları qeyri-mümkün olardı.

Müxalifət Paşinyanı beynəlxalq dəstəyi itirməkdə suçlayır. Əslində, vəziyyət tərsinədir. Ermənistanın onilliklər boyu apardığı işğalçı siyasət onu dünyadan təcrid etmişdi. İrəvan heç bir regional layihələrin iştirakçısına çevrilməmişdi. Lakin reallığı qəbul edərək sülhə köklənmək və beynəlxalq barış platformalarında yer almaq Ermənistanı problemli ölkə obrazından çıxara bilər. Əgər İrəvan sülh və sabitliyi dəstəkləməzsə, bu yöndə əməli addımlar atmazsa, Qərb və digər region ölkələri Ermənistanın iqtisadi layihələrinə investisiya qoymağa risk etməyəcəklər. Sülh sözündən hürkən revanşistlərin erməni toplumuna vəd etdiyi sonsuz münaqişə, ölüm və fəlakətdir. Bu, onsuz da demoqrafik və iqtisadi böhran keçirən Ermənistan üçün intihar deməkdir.

Revanşistlərin və onların analitik tərəfdarlarının yanaşması Ermənistanı əbədi blokada vəziyyətində saxlamağa yönəlib. Onlar sülhün gətirəcəyi iqtisadi dividendləri və regional inteqrasiyanı "təhlükə" kimi qələmə verərək, ölkəni keçmişin qaranlıq burulğanına itələyirlər. Lakin regionun yeni reallığı sülh və sabitliyin, qonşularla iqtisadi əməkdaşlığın qaçılmazlığını diktə edir. Ermənistanın gələcəyi və dövlət olaraq mövcudluğunu davam etdirməsi məhz regionda düşmənçilik səhifəsinin bağlanmasından və beynəlxalq hüquq normalarına hörmətdən asılıdır.

*İ.QOCAYEV, "Azərbaycan"*

# *Dövlət Departamenti:* ABŞ Cənubi Qafqazın zəngin iqtisadi potensialını açmaq üçün Azərbaycanla işləməyi səbirsizliklə gözləyir

**ABŞ Cənubi Qafqazın zəngin iqtisadi potensialını açmaq üçün Azərbaycanla işləməyi səbirsizliklə gözləyir.**

Bu barədə AZƏRTAC-a ABŞ Dövlət Departamentindən bildirilib.

"2025-ci il avqustun 8-də Azərbaycan və Ermənistan arasında keçirilən tarixi Sülh Sammitinə əsaslanaraq, ABŞ Prezident Trampın sülh və rifah vizyonunu inkişaf etdirmək və Cənubi Qafqazın zəngin iqtisadi potensialını açmaq üçün Azərbaycanla işləməyi səbirsizliklə gözləyir",- deyə açıqlamada qeyd olunur.




# Rusiyanın Azərbaycandakı səfiri XİN-ə çağırılıb:

# Zatulinin bəyanatına görə Moskvaya etiraz notası verilib

**Fevralın 6-da Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimov Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.**





Nazirliyin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, Rusiya səfiri ilə görüş zamanı fevralın 5-də Rusiya Federasiyası Dövlət Dumasının MDB, Avrasiya inteqrasiya məsələləri və həmvətənlərlə əlaqələr komitəsi sədrinin birinci müavini, hakim "Vahid Rusiya" Partiyasının üzvü Konstantin Zatulinin ölkəmizdə Ermənistan Respublikası vətəndaşlarının məhkum olunması ilə bağlı bəyanatı ilə əlaqədar kəskin etiraz bildirilib və Rusiya tərəfinə müvafiq nota təqdim edilib.

K.Zatulininin uzun müddətdir Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü əleyhinə çıxışlar etməsi, separatizmə açıq dəstək nümayiş etdirməsi, habelə Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, eləcə də hərbi cinayətlər törətməkdə təqsirli bilinərək məhkum olunmuş Ermənistan Respublikası vətəndaşları ilə bağlı məhkəmə qərarlarını təhrif etməyə cəhd göstərməsi və qəbuledilməz ifadələr işlətməsi qətiyyətlə pislənib.

Görüşdə Rusiya tərəfi bölgədə sülhə və sabitliyə, eləcə də Azərbaycanla Rusiya arasında münasibətlərə zərbə vurmağa çalışan Zatulin kimi şəxslərin destruktiv fəaliyyətinə son qoyulması üçün müvafiq tədbirlər görməyə çağırılıb.

# Qazaxıstan BTC marşrutu üzrə uzunmüddətli tərəfdaşlığı möhkəmləndirmək niyyətindədir

**Qazaxıstan ixrac marşrutlarının coğrafiyasını genişləndirərək ölkənin enerji təhlükəsizliyini möhkəmləndirir. Energetika Nazirliyi sistemli şəkildə yeni istiqamətləri inkişaf etdirir ki, onların da arasında "Trans-Xəzər" Beynəlxalq Nəqliyyat Dəhlizi xüsusi yer tutur. Azərbaycanla əməkdaşlığın perspektivləri barədə AZƏRTAC-a müsahibəsində Qazaxıstanın energetika naziri Erlan Akkenjenov danışıb.**



*- Cənab nazir, Qazaxıstan ixracının diversifikasiya strategiyasında Bakı-Tbilisi-Ceyhan marşrutu hansı rolu oynayır? Bu istiqamət uzunmüddətli tərəfdaşlıq kimi nəzərdən keçirilir, yoxsa müvəqqəti alternativdir?*

- İxrac marşrutlarının diversifikasiyası hər bir ölkə üçün normal tapşırıqdır. 2022-ci ildən etibarən Prezident Kasım-Jomart Tokayevin tapşırıqlarına uyğun olaraq, nazirliyimiz əlavə tədarük yollarının inkişafı üzərində fəal işləyir. Əsas istiqamətlərdən biri Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəmərindən istifadə edilir və Xəzər üzərindən Avropa bazarlarına sabit tanker daşımalarını qaydasına salmışıq.

"KazMunayQaz" ilə SOCAR arasında strateji əməkdaşlıq Bakı-Tbilisi-Ceyhan marşrutu üzrə neft tranziti üçün dayanıqlı modelin formalaşdırılmasına yönəlib. Əsas prioritet şəffaf şərtlərin təmin edilməsi və infrastrukturun modernləşdirilməsi hesabına bu yolun qazaxıstanlı yük göndərənlər üçün cəlbediciliyinin artırılması olacaq. Tərəflər tərəfdaşlığın uzunmüddətli prinsiplərini möhkəmləndirməyi, marşruta yeni yataqları işlədən şirkətləri cəlb etməyi və sərbəst boru kəməri tutumundan maksimum səmərə ilə istifadə etməyi planlaşdırırlar. Nazirliyin başlıca məqsədi ixracın fasiləsizliyinə zəmanət vermək və tərəfdaşlar qarşısında misilsiz etibarlılığı təmin etməkdir. Qazaxıstan dünya arenasında enerji təhlükəsizliyini ardıcıl şəkildə möhkəmləndirərək enerji resurslarının məsuliyyətli təchizatçısı olub və olaraq da qalır.

*- Aktau limanının mövcud yükləmə-boşaltma və logistika infrastrukturu bəyan edilən həcm artımı üçün yetərlidirmi?*

- Bu gün Aktau limanı "Şimal-Cənub" və Orta dəhlizi birləşdirən əsas beynəlxalq qovşaqlardan birinə çevrilir. Qlobal logistikanın dəyişdiyi şəraitdə Avropa Yenidənqurma və İnkişaf Bankının dəstəyi ilə reydlərin irimiqyaslı yenidənqurma işlərinə başlamışıq. Bu isə ildə bir milyonadək konteynerin emalına imkan verəcək. Biz ixracın artımını nəzərə alaraq infrastrukturu öncədən inkişaf etdirir, eyni zamanda "vahid pəncərə" və "door-to-door" fasiləsiz çatdırılma kimi rəqəmsal xidmətləri tətbiq edirik (nəqliyyat şirkətinin daşınmanın bütün mərhələlərini öz üzərinə götürdüyü kompleks logistika xidməti). Rəqabətli tariflər və "dar boğaz"ların aradan qaldırılması sayəsində Aktau regional limandan mühüm transmilli qovşağa çevrilir və Qazaxıstanın tranzit cəlbediciliyini gücləndirir.

*- Bu marşrut üzrə tədarükün resurs bazasını hansı Qazaxıstan şirkətləri və yataqları formalaşdırır?*

- Hazırda BTC marşrutu üzrə tədarükün resurs bazasını əsasən "KMQ Kaşaqan B.V." şirkəti vasitəsilə ixrac edilən Kaşaqan yatağının, həmçinin "Tenqizşevroyl"un resursları təşkil edir. Qazaxıstanın neft-qaz sənayesində ötən ilin fundamental hadisəsi Tengiz yatağında Gələcək Genişləndirmə Layihəsinin tam başa çatdırılması oldu. Üçüncü nəsil zavodun istismara verilməsi hasilatı ildə 12 milyon ton artırır və bu da milli iqtisadiyyat üçün uzunmüddətli, güclü ixrac gəliri mənbəyi yaradır.

*- Nazirliyin 2026-cı ildən sonra BTC vasitəsilə tədarükün artırılması ilə bağlı planları varmı?*

- Sözsüz ki, Bakı-Tbilisi-Ceyhan istiqaməti bizim üçün böyük maraq doğurur. Azərbaycan tərəfi ötürücülük qabiliyyətinin artırılmasına hazır olduğunu təsdiqləyir və bu, tədarükün faktiki dinamikasında da əksini tapır. Belə ki, ötən il bu marşrut üzrə 1,3 milyon ton Qazaxıstan nefti göndərilibsə, bu il bu rəqəmin 1,6 milyon ton olması planlaşdırılır. Müqavilə öhdəlikləri ilə 2,2 milyon ton həcmdə təsbit edilib. Mövcud texniki imkanlar nəzərə alınmaqla və iqtisadi məqsədəuyğunluq saxlanılmaq şərtilə perspektivdə bu istiqamət üzrə tədarükün mərhələli şəkildə ildə 7 milyon tona qədər artırılması mümkündür.





# Mədəniyyət





● Elm xadimlərimiz

# Tarixin yaddaşına çevrilən alim - Sara Aşurbəyli

**Onun haqqında akademik Ziya Bünyadov deyib: "Napoleon xarakterli bu kiçik qadın". Sara Aşurbəyli qismətinə düşən çətin, keşməkeşli ömrü şərəflə yaşayıb. Qədim Bakının məşhur nəsillərindən olan Aşurbəylilərin alim qızı - Sara xanım öz həyatını Bakının - İçərişəhərin və Şirvanşahlar dövlətinin tarixinin tədqiqinə həsr edən ilk və yeganə tarixçi hesab olunur.**



Görkəmli tarixçi və şərqşünas, tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, "Şöhrət" ordenli Sara Aşurbəyli 1906-cı il yanvarın 27-də Bakıda dünyaya gəlib. Uşaqlıq çağları valideynlərinin - atası neft sənayeçisi və xeyriyyəçi Bala bəy Aşurbəyovla anası İsmət xanımın sevgisi, qayğısı sayəsində beş bacısı və qardaşı ilə birlikdə firavanlıq içərisində keçib. Uşaqlıqdan onu əhatə edən mədəni mühit dünyagörüşünə, düşüncələrinə böyük təsir göstərib. Fortepianoda mükəmməl ifa etməyi öyrənib.

O, 1913-cü ildə "Müqəddəs Nina" Bakı qız məktəbinin hazırlıq sinfinə daxil olub. Ancaq 1920-ci ilin aprelində bolşeviklərin Azərbaycanı işğal etməsi Sara Aşurbəylinin təhsilinə də təsir göstərib. Yeni hökumət ilk günlərdən var-dövlət, mal-mülk sahibi olanlara qənim kəsilib. Sara xanımın atası Bala bəy Aşurbəyov da həbs edilib. Ancaq Bala bəy o vaxt həbsdən həyat yoldaşı İsmət xanımın qohumu olan Nəriman Nərimanovun köməyi ilə qurtula bilib. Özünü və ailəsini sovet hökumətinin fəlakətindən xilas etmək üçün Bala bəy vətənini tərk etmək məcburiyyətində qalıb. Ailəsi ilə birlikdə Tiflisə yollanıb. Sonra isə Türkiyəyə üz tutub.

Sara xanım İstanbulda Janna Dark adına Fransız Kollecində təhsil almağa başlayıb. 1925-ci ildə Sara Aşurbəyli kolleci fərqlənmə ilə başa vurub. Həmin il ailəsi ilə vətəninə dönüb.

1925-ci ildə Sara xanımın həyatında başqa bir əlamətdar hadisə də olub. O, Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) Şərqşünaslıq fakültəsinin tarix-filologiya şöbəsinə qəbul olunaraq tələbə adını qazanıb. Universiteti 1930-cu ildə bitirib.

Həmin il Azərbaycan Tarixi Muzeyinin tarix-etnoqrafiya şöbəsində işə başlayıb. Orada 1933-cü ilədək işləyib. Muzeyin ekspozisiyasının və bələdçi kitabçasının hazırlanmasında onun da əməyi olub, Azərbaycanın müxtəlif etnik qruplarını təsvir edib. Eyni zamanda, dekorativ rəssam kimi çalışıb. İşə can yandırması, bacarığı, savadlı olması sayəsində həmkarlarının arasında böyük hörmət, nüfuz qazanıb.

1937-1958-ci illərdə o, pedaqoji fəaliyyətlə məşğul olub. Sara Aşurbəyli Bakının ali məktəblərində ingilis və fransız dillərindən dərs deyib. Müəllimlik onun zəngin həyatında və çoxşaxəli fəaliyyətində əhəmiyyətli yer tutub. Sonralar Azərbaycan Dövlət Universitetində baş müəllim, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (hazırda Azərbaycan Dövlət Pedaqoji Universiteti) dekan vəzifəsində çalışıb. Ali məktəblərdə Azərbaycan tarixi, Qərb və Şərq mədəniyyətləri haqqında mühazirələr oxuyub.

Musiqinin əzəldən vurğunu olub. Sara xanım çox sevdiyi bəstəkarların - Üzeyir bəy Hacıbəylinin, Fikrət Əmirovun və Frederik Şopenin əsərlərini dinləməkdən xüsusilə zövq alıb.

Rəssamlığa da marağı çox böyük olub. Bu sahədə də təhsil alıb. 1941-ci ildə Əzim Əzimzadə adına Rəssamlıq Məktəbini bitirib. Diplom işi olan "Natürmort", "Şəki xanlarının sarayı", "Göygöl" və digər əsərlər Sara Aşurbəylinin rəssamlıq istedadının bəhrələridir.

İstedadı, çalışqanlığı, inadkarlığı ilə arzularını bir-bir həyata keçirir, qarşısına qoyduğu məqsədə çatırdı. Ancaq gənc Sara xanım həyatın təlatümlü, ağrı-acılarla, məhrumiyyətlərlə dolu yollarından keçirdi. 1936-cı ildə atası Bala bəy Aşurbəyov həbs edilərək Karaqandaya sürgün olunub. Karaqanda vilayətinin NKVD orqanları tərəfindən 1937-ci il martın 25-də yenidən həbs edilən Bala bəy Aşurbəyov həmin il avqustun 13-də ölüm hökmünə məhkum olunub. Hökm yerinə yetirilib. Bala bəy Aşurbəyovu güllələyiblər.

Bala bəy Bakının neft milyonçularından olan Teymur bəy Aşurbəyovun oğlu idi. Teymur bəyin digər oğlu - Əli bəy də qardaşının başına gətirilən faciədən sonra yaşaya bilməyib. O, 1940-cı ildə ürək tutmasından vəfat edib.

"Xalq düşməni"nin övladı kimi yaşamaq çətin idi. Sara xanım da çox cəfaya qatlaşıb. O, 1937-ci ildə "xalq düşməni"nin qızı kimi işdən çıxarılıb və Sara Aşurbəyliyə tarix elmi ilə məşğul olmaq qadağan olunub.

1942-ci ilin oktyabrında isə Sara Aşurbəylinin həyat yoldaşı Bəhram Hüseynzadə həbs edilib. Bəhram bəyə qayınatası Bala bəy Aşurbəyovla eyni ittiham irəli sürülüb. Ona da ölüm hökmü verilib. Amma Bəhram bəyin bəxti gətirib. 1943-cü ildə ölüm cəzası on il azadlıqdan məhrumetmə ilə əvəzlənib.

Sovet hökumətinin repressiya siyasəti Sara Aşurbəylinin sevincini, rahatlığını əlindən almışdı. Ailəsinə, doğmalarına edilən haqsızlıqlara, üzləşdiyi faciələrə tab gətirmək asan deyildi. Ancaq Sara xanım dözümünü tükənməyə qoymayıb, azrularından, məqsədindən üz çevirməyib. Müxtəlif sahələrdə fəaliyyət göstərib, uğur qazanıb.

O, Böyük Vətən müharibəsi illərində Azərbaycan Dövlət Dram Teatrında rəssam-dekorator işləyib. 1946-cı ildə Azərbaycan Rəssamlar İttifaqının üzvü seçilib.

Sara Aşurbəyli dram teatrında çalışıb, məktəbdə müəllim işləyib. Sevimli müəllimi Üzeyir bəy Hacıbəylinin dəvəti ilə on beş il konservatoriyada xarici dildən dərs deyib. O, həm də öz çəkdiyi rəsm əsərlərini sataraq dolanıb.

Maneələri aşaraq elmi fəaliyyətlə məşğul olub. Namizədlik dissertasiyasını yazıb və 1949-cu ildə Leninqrad (indiki Sankt-Peterburq) Şərqşünaslıq İnstitutunda uğurla müdafiə edib.

Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti Səməd Vurğunun köməyi ilə o, öz ixtisası üzrə işə düzələ bilib. Azərbaycan Tarixi Muzeyinin Orta əsrlər şöbəsinin müdiri vəzifəsinə təyin edilən Sara Aşurbəyli 1958-ci ilədək orada işləyib.

Sonralar Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda baş elmi işçi, elmi katib, böyük elmi işçi və aparıcı elmi işçi vəzifələrində çalışıb. Sara Aşurbəyli 1961-ci ildən Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda elmi katib, baş elmi işçi və aparıcı elmi işçi vəzifələrində fəaliyyət göstərib. 1964-cü ildə Sara Aşurbəyli Gürcüstan Elmlər Akademiyasının Tarix İnstitutunda elmlər doktoru dissertasiyasını müdafiə edib.

Sara xanım 1993-cü ildən ömrünün sonunadək Azərbaycan Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunda böyük elmi işçi olub.

Görkəmli alim 2001-ci il iyulun 17-də doxsan beş yaşında dünyadan köçüb.

Sara Aşurbəyli əsərlərində qədim Bakının yaranma tarixini, eləcə də Orta əsrlər dövrünü, o zamanlardakı siyasətini, mədəniyyətini, sosial mühitini, İçərişəhər memarlığının formalaşmasına böyük təsir göstərmiş qüdrətli Şirvanşahlar dövlətinin sosial-siyasi, iqtisadi, mədəni həyatını VI əsrdən XVI əsrədək olan zəngin mənbələr əsasında araşdırmışdı. Alim Şirvanşahlar sülaləsinin tarixi, şəhərlərin iqtisadi vəziyyəti və inkişafı, əhalinin tərkibi, feodal cəmiyyətinin quruluşu kimi məsələləri geniş tədqiq etmişdi. Həmin tədqiqatların nəticələri Sara Aşurbəylinin bu gün də qiymətli mənbə kimi istinad olunan elmi əsərlərində, "Bakının tarixinə dair oçerklər", "Orta əsrlərdə Azərbaycan və Hindistanın iqtisadi və mədəni əlaqələri", "Şirvanşahlar dövlətinin tarixi" kitablarında əksini tapdı.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Ədəbi simalarımız

# Azərbaycan romantizminin parlaq siması

**Azərbaycan ədəbiyyatında romantizm cərəyanının görkəmli nümayəndələrindən biri kimi tanınan Hüseyn Cavid 1882-ci ildə Naxçıvanda anadan olmuşdur. Onun bədii irsi təkcə milli ədəbiyyatın deyil, ümumilikdə Şərq və dünya ədəbiyyatının da dəyərləri sırasında önəmli yer tutur. Dramaturgiyası və poetik yaradıcılığı isə fəlsəfi və bəşəri ideyaların ifadəsi baxımından xüsusi əhəmiyyətə malikdir.**



Böyük şair ibtidai təhsilini Naxçıvan molla məktəbində, orta təhsilini M.T.Sidqinin "Məktəbi-tərbiyə" adlı yeni üsullu tədris ocağında almışdır. 1899-1903-cü illərdə Təbrizin "Talibiyyə" mədrəsəsində təhsilini davam etdirmişdir. İstanbul Universitetinin ədəbiyyat şöbəsini bitirdikdən sonra Naxçıvanda, Gəncədə və Tiflisdə, 1915-ci ildən isə Bakıda müəllimlik etmişdir.

Hüseyn Cavid klassik Şərq ədəbiyyatı ilə Avropa romantizmini sintez edərək milli ədəbiyyatın ideya və forma baxımından zənginləşməsində mühüm rol oynamışdır. Cavidin əsərləri bəşəri idealların, mənəvi-əxlaqi problemlərin və azadlıq ideyasının ədəbi inikası baxımından dəyərlidir.

Ədibin əsərləri əsasən dramatik və poetik janrlardan ibarətdir. Onun "Şeyx Sənan" (1914), "İblis" (1918), "Peyğəmbər" (1922), "Topal Teymur" (1925) kimi dramları təkcə Azərbaycan ədəbiyyatında deyil, bütövlükdə türk-müsəlman Şərqində fəlsəfi dramaturgiyanın inkişafına töhfə vermişdir. Əsərlərində insanın mənəvi aləmi, vicdan və ədalət problemi, azadlıq və məsuliyyət anlayışları ön plana çıxarılır. "İblis" dramı müharibə, zorakılıq və insanın daxili ziddiyyətləri kimi universal mövzuların ədəbi-fəlsəfi baxımdan təhlili ilə seçilir. Ümumiyyətlə, ömrünün sonrakı illərində Hüseyn Cavid daha çox dramaturq kimi tanınmışdır. Onun fəlsəfi və tarixi faciələri, ailə-məişət dramları üslub, yazı ədası, forma yeniliyi baxımından Azərbaycan dramaturgiyasında yeni bir mərhələ yaratdığı kimi, milli teatr mədəniyyətinin inkişafına da qüvvətli təsir göstərmiş, "Cavid teatrı" kimi səciyyələndirilmişdir. Hüseyn Cavidin dramaturgiyasında dövrün bəşəri, böyük ictimai-siyasi və mədəni əhəmiyyətə malik problemləri əksini tapmışdır. O, Azərbaycan ədəbiyyatında ilk mənzum faciə olan "Şeyx Sənan" əsərində xalqları bir-birinə qovuşdurmaq üçün ümumbəşəri din ideyasını ortaya atmışdır.

1937-ci ildə Hüseyn Cavid siyasi repressiyalara məruz qalaraq həbs olunmuşdur. "Pantürkist və antisovet fəaliyyətdə" ittiham edilən ədib 1941-ci ildə Sibirin Tayşet bölgəsində vəfat etmişdir. 1982-ci ildə onun nəşi Azərbaycana gətirilərək Naxçıvanda dəfn olunmuşdur. Sovet dövründə böyük ədibin irsi uzun müddət diqqətdən kənarda qalsa da, müstəqillikdən sonra geniş araşdırılmağa başlanmışdır.

Hüseyn Cavidin yaradıcılığı Azərbaycan ədəbiyyatında romantizm estetikası və fəlsəfi düşüncənin inkişafı baxımından mühüm mərhələ təşkil edir. Onun bəşəri ideallara, milli-mənəvi dəyərlərə və azad düşüncəyə əsaslanan əsərləri müasir dövrdə də aktuallığını qorumaqdadır. Görkəmli ədəbiyyat xadiminin irsinin həm ədəbi-nəzəri, həm də fəlsəfi baxımdan araşdırılması davam edir və milli mədəniyyətin zəngin xəzinəsi kimi dəyərləndirilir.

Cavidin yaradıcılığı Azərbaycan romantizminin ən yüksək zirvəsidir. Əsasən fəlsəfi-dramatik əsərləri ilə tanınan Cavidin əsərləri təkcə bədii deyil, həm də dərin ideya-fəlsəfi məzmunu ilə seçilir. O, əsərlərində bəşəri ideyaları, azadlıq və ədalət uğrunda mübarizəni, zülmə və cəhalətə qarşı çıxışı ön plana çəkmişdir. Xüsusilə "İblis" dramı insanın iç dünyasındakı ziddiyyətləri, müharibə və şər qüvvələrin mənbəyini dərin şəkildə təhlil edir.

Hüseyn Cavidin yaradıcılığı milli-mənəvi dəyərlərin qorunmasında, maarifçilik və azadlıq ideyalarının yayılmasında böyük rol oynamışdır. O, Azərbaycan dramaturgiyasına fəlsəfi dərinlik, poetik forma və bəşəri ideallar gətirmişdir. Görkəmli ədibin irsi bu gün də Azərbaycan ədəbiyyatında aktualdır.

*Ülviyyə QULİYEVA,*
*Hüseyn Cavidin*
*ev-muzeyinin əməkdaşı*

# Qərbi Azərbaycan həqiqətlərinin təbliğində gənclər fəallıq göstərirlər

**Qərbi Azərbaycan İcması Gənclər Şurası təşkilatlandığı günlərdən respublikamızın şəhər, rayon, qəsəbə və kəndlərində yaşayan Qərbi Azərbaycanəsilli ailələri təmsil edən gənc oğlan və qızlarla əlaqələri genişləndirir. Deportasiya ilə bağlı reallıqların, eləcə də irsimizin və tarixi həqiqətlərin nəsildən-nəslə ötürülməsində böyük fəallıq göstərirlər. Xatırladaq ki, indiki Ermənistan ərazisindəki qəbiristanlıqlarımızda monitorinqin aparılmasında və uğurla başa çatdırılmasında gənclərin böyük dəstəyi olmuşdur. 37 il əvvəl - sonuncu deportasiya zamanı tərk etmək məcburiyyətində qalan kəndlərin 201 müsəlman qəbiristanlığı müəyyənləşdi.**

Prezident İlham Əliyev 3 il öncə - dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu məsələlərlə bağlı demişdir: "Qərbi Azərbaycan bizim tarixi torpağımızdır, bunu bir çox tarixi sənədlər təsdiqləyir, tarixi xəritələr təsdiqləyir, bizim tariximiz təsdiqləyir. Ancaq əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb. İndi əsas vəzifə ondan ibarətdir ki, dünya ictimaiyyəti də bunu bilsin. Artıq bu istiqamətdə işlər başlamışdır. Ancaq əminəm ki, icma bu işləri daha məqsədyönlü şəkildə və nəticəyə hesablanmış tərzdə aparacaqdır".

Prezident İlham Əliyevin ideyalarını, fərman və sərəncamlarını rəğbətlə dəstəkləyən, icma sədrinin tapşırıq və tövsiyələrini yüksək səviyyədə yerinə yetirən Gənclər Şurasının ətrafında mütəşəkkillik göstərən qərbi azərbaycanəslli gənclər birlik və həmrəylik nümayiş etdirirlər. Onların əzmkarlığı sayəsində hazırda xarici ölkələrdəki nümayəndəliklər kimi strukturlar fəaliyyət göstərir.

Hazırda Gənclər Şurası bölgələrin nümayəndələri ilə qarşılıqlı əlaqələri gücləndirir. Məcburi köçürülmə və deportasiyaların tarixi mahiyyəti, habelə, onların xalqımızın yaddaşındakı yeri barədə geniş məlumat verib gəncləri bu bilikləri sistemli şəkildə öyrənməyə çağırırlar.

İcmanın Gənclər Şurasının təşəbbüsü ilə təcrübəli tədqiqatçılar sırasında yer almış gənclərin iştirakı ilə Ermənistan Respublikasının müasir ərazisini tam əhatə edən 1890-1991-ci illərə aid müxtəlif miqyaslı 250-dən çox xəritə sistemli şəkildə araşdırılıb. Bu xəritələr əsasən Rusiya imperiyası və daha sonra Sovet İttifaqının Baş Qərargahı tərəfindən tərtib edilmiş, uzun müddət məxfi saxlanılmış, bu gün isə Berlinin Humbolt Universiteti, İndiana Universiteti, ABŞ-nin Milli Konqres Kitabxanası və Rusiya Coğrafiya Cəmiyyəti kimi nüfuzlu elmi və arxiv mərkəzlərində qorunur.




Araşdırmalar nəticəsində Qərbi Azərbaycanda 12 qəbiristanlıq üzərindən asfalt yollar çəkildiyi, 16 qəbiristanlıq üzərində yaşayış evləri tikildiyi, 56 qəbiristanlığın ərazisinin əkin sahəsinə çevrildiyi, 67 qəbiristanlıq üzərində vandalizm hərəkətləri edildiyi, 4 qəbiristanlıq üzərində sənaye və istehsal obyektləri salındığı, 5 qəbiristanlıq ərazisində hərbi istehkam işləri aparıldığı, 32 qəbiristanlıq ərazisində tikinti-inşaat işləri görüldüyü, 6 qəbiristanlıq üzərində yenidən dəfn prosesi aparılaraq erməni qəbiristanlığına çevrildiyi, 3 qəbiristanlıq ərazisində su anbarı inşa edildiyi müəyyən edilmişdir.

Qərbi Azərbaycan İcması Gənclər Şurasının sədri, Milli Məclisin deputatı Şahin İsmayılov müxbirimizlə söhbətində demişdir:

- Gənclərimiz qayıdış hüququnun həyata keçirilməsini Azərbaycan-Ermənistan münasibətlərində qarşılıqlı etimadın bərpası üçün əsas şərt hesab edirlər. Təsəvvür edin, ölkələrimiz arasında Sülh Sazişi paraflanır, delimitasiya işləri aparılır, sərhədlər çəkilir, biz tikanlı məftillər arxasından bu tərəfdən onlara baxırıq, onlar tikanlı məftillər arxasından o tərəfdən bizə baxırlar... Məmnunluq doğuran odur ki, Prezident İlham Əliyevin humanist mövqeyi nəticəsində hər iki ölkə arasında sülhə, sabitliyə, əmin-amanlığa və tərəqqiyə doğru atılan addımlar reallığa çevriliməkdədir. Ermənistana taxıl və neft məhsulları göndərilməsi ilə Ermənistan cəmiyyətinə bir daha sübut etdik ki, Azərbaycan müharibə yox, sülh tərəfdarıdır. Gənclərimiz hesab edirlər ki, qarşılıqlı etimadın, dayanıqlı sülhün yeganə şərti birgəyaşayışdır. Bu təcrübə var, müharibədən əvvəl bu xalqlar birgə yaşayıb və bu birgəyaşayış qarşılıqlı etimada və sülhə xidmət edib. Yenə də belə olmalıdır. Həm də bu dəfə güzəşti Ermənistan tərəfi etməlidir, münaqişəni başlayan da, müharibəni edən də və insanlarımıza 30 il məcburi köçkün, qaçqın həyatı və məşəqqəti yaşadan da Ermənistandır. Ermənistanda bir ev, bir kənd də zərər görməyib, amma Azərbaycanın yüzlərlə kəndi, şəhəri Yer üzündən silinib, 20 min nəfərə qədər insanımız öldürülüb, 100 min nəfərə yaxın əlilimiz var. Bütün bunları Ermənistan edib. Bunu qarşı tərəf anlamalıdır. Edib, etməməzlikdən gəlmək dövrü keçib, onlar da, biz də həqiqətin gözünün içinə dik baxmalıyıq və gələcəyə addımlamalıyıq.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# İtaliyada XXV Qış Olimpiya Oyunlarına start verilib

## Açılış mərasimi Milanda keçirilən oyunlarda 3 min atlet iştirak edir

**Fevralın 6-dan 7-nə keçən gecə İtaliyada XXV Qış Olimpiya Oyunlarının açılış mərasimi keçirilib. Bu Olimpiada unikal bir tədbirdir - tarixdə ilk dəfə olaraq, iki şəhər - Milan və Kortina d'Ampetsoda təşkil olunub və fevralın 22-nə qədər davam edəcək.**



Olimpiada tarixində ilk dəfə iki Olimpiya məşəli alovlandırılıb. Biri Milanda - şəhərin ikonik abidəsi olan Sülh Tağının yaxınlığında, digəri isə Kortina d'Ampetsoda - Piatsa Dibona meydanında.

İki həftə ərzində idmansevərlər dünyanın ən yaxşı atletlərinin günəşli şəhərlərdə, dağ zirvələrində və qədim arenalarda mükafatlar uğrunda yarışmalarını izləyəcəklər. 2026-cı il Qış Oyunlarında təxminən 3 min iştirakçı iştirak edir.

Milandakı "San Siro" stadionunda yerli vaxtla saat 20:00-da (Bakı vaxtı ilə saat 23:00) başlayan mərasimdə İtaliya Prezidenti Sercio Mattarella, ABŞ vitse-prezidenti Cey Di Vens, bir neçə ölkənin hökumət nümayəndələri və BOK-un prezidenti Kirsti Koventri də iştirak ediblər.

İfaçılar arasında italyan müğənni Andrea Boçelli, beşqat Qremmi mükafatı laureatı Merayya Keri, "Ən yaxşı mahnı" nominasiyasında "Qızıl Qlobus" mükafatı laureatı Laura Pausini, italyan reper Ghali və çinli fortepiano virtuozu Lan Lanq da olublar. Mövzusu "Harmoniya" olan açılış mərasimində italyan aktyorlar Pyerfrancesko Favino, Sabrina İmpaççiatore və Matilda De Angelis də iştirak ediblər.

Ən çox idmançı ABŞ, Kanada və İtaliyadandır. Azərbaycan ilk dəfə Qış Olimpiya Oyunlarında 1998-ci ildə iştirak edib və Yaponiyanın Naqano şəhərində keçirilən Oyunlarda 4 idmançı ilə təmsil olunub. Bə dəfə isə ölkəmizi iki idmançı - dağ xizəkçisi Anastasiya Papatoma və fiqurlu konkisürən Vladimir Litvintsev təmsil edirlər.

Tarixdə ilk dəfə olaraq Benin, Qvineya-Bisau Respublikası və Birləşmiş Ərəb Əmirliklərindən (BƏƏ) idmançılar Qış Olimpiya Oyunlarına qatılıblar.

Tina və Milo adlı sincablar Olimpiya və Paralimpiya Oyunlarının maskotlarına çevriliblər.

Paralimpiya Oyunları isə martın 6-dan 15-dək Milan və Kortina d`Ampetso şəhərlərində təşkil olunacaq.

Olimpiya Oyunlarını təxminən 2 milyon azarkeşin izləyəcəyi gözlənilir. Yarışların biletlərinin qiyməti 30 dollardan başlayır və 1400 dollara qədər dəyişir.

Olimpiya kəndləri Milan, Kortina d'Ampetso, Livinyo, Bormio, Predazzo və Rasun Anterselvada yerləşir.

İtaliya üç dəfə Olimpiya Oyunlarına evsahibliyi edib: 1956-cı il Qış Oyunları, 1960-cı il Yay Oyunları və 2006-cı il Qış Oyunları.

Qeyd edək ki, XXV Qış Olimpiya Oyunları fevralın 4-də körlinq yarışları ilə başlayıb.

*Rizvan CƏFƏROV,*
*"Azərbaycan"*

# Bilmək istəyirəm

*- Atam 3 ay əvvəl rəhmətə gedib. Ondan miras kimi bir ev qalıb. Mən atamın yeganə övladıyam. Atamın 2 qardaşı və 2 bacısı var. Bilmək istəyirəm ki, həmin evdən atamın qardaş və bacılarına pay düşürmü?*

***Samir SÜLEYMANLI,***
***Masazır qəsəbəsi***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, Azərbaycan Respublikası Mülki Məcəlləsinin 1159-cu maddəsinə görə 5 növbə vərəsə müəyyən edilmişdir.

Birinci növbəyə - ölənin uşaqları, miras qoyanın ölümündən sonra doğulmuş uşaq, arvad (ər), valideynlər (övladlığa götürənlər) daxil edilmişdir. Nəzərə alınmalıdır ki, övladlığa götürülən və onun övladları övladlığa götürənin vərəsələri və ya qohumları kimi övladlığa götürənin uşaqlarına və onların övladlarına bərabər tutulurlar. Həmçinin, bu sonuncuların nəvələri, nəticələri və uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsələri olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı onların ölmüş valideyninə çatası paydan bərabər miras alırlar. Sonuncuların nəvələri, nəticələri və uşaqları, əgər onların valideynləri mirasın qəbulundan imtina etmişlərsə, vərəsə ola bilməzlər. Övladlığa götürən və onun qohumları övladlığa götürülənin və onun övladlarının vərəsələri kimi övladlığa götürülənin valideynlərinə və digər qan qohumlarına bərabər tutulurlar. Övladlığa götürülən və ya onun övladları öldükdən sonra övladlığa götürülənin valideynlərinə, onun yüksələn xətt üzrə digər qan qohumlarına, bacı və qardaşlarına qanun üzrə vərəsəlik hüququ daha mənsub olmur.

İkinci növbəyə - ölənin bacıları və qardaşları aiddirlər. Miras qoyanın bacısı uşaqları və qardaşı uşaqları və onların uşaqları o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt miras qoyanın vərəsəsi olacaq valideynləri sağ olmasın. Onlar qanun üzrə vərəsəlik zamanı onların ölmüş valideyninə çatası miras payını bərabər olaraq miras alırlar.

Üçüncü növbəyə - həm ana tərəfdən, həm də ata tərəfdən nənə və baba, nənənin anası və atası, babanın anası və atası daxildir. Nənənin anası və atası, babanın anası və atası o halda qanun üzrə vərəsə sayılırlar ki, mirasın açıldığı vaxt nənə və baba sağ olmasın.

Dördüncü növbəyə - xalalar və bibilər, dayılar və əmilər şamil olunurlar.

Beşinci növbəyə - xala uşaqları və bibi uşaqları, dayı uşaqları və əmi uşaqları, onlar sağ olmadıqda isə onların uşaqları daxildirlər.

Göründüyü kimi, Siz atanızın birinci növbə vərəsəsisiniz, atanızın qardaş və bacıları isə ikinci növbə vərəsələr sayılırlar.

Mülki Məcəllənin 1160-cı maddəsinin tələbinə görə, əvvəlki növbənin vərəsələrindən, heç olmasa, birinin mövcudluğu sonrakı növbənin vərəsəliyini istisna edir.

Belə olan halda Sizin birinci növbə kimi mövcudluğunuz ikinci növbə vərəsə olan atanızın qardaş və bacılarını vərəsə kimi mirasdan pay almaq hüququnu məhdudlaşdırmış olur.

*- Əmək Məcəlləsinə edilən son dəyişikliklərə əsasən distant (məsafədən) iş anlayışı qanunvericilikdə necə tənzimlənir? Distant iş hansı hallarda, hansı vəzifələr üzrə və hansı qaydada tətbiq olunur, bu formada çalışan işçilərin iş vaxtı, əməkhaqqı, məzuniyyət və sosial təminat hüquqları necə müəyyən edilir? Əmək müqaviləsində hansı şərtlərin göstərilməsi tələb olunur?*

***Jalə RAMAZANLI,***
***Bakı şəhəri***

✓ - Azərbaycan Respublikası Əmək Məcəlləsinin 9-2-ci maddəsinə əsasən, məsafədən (distant) iş – əmək funksiyasının məsafədən icrasına imkan verən vasitələrlə (elektron, proqram-texniki, telekommunikasiya vasitələri və s.) müəssisədən və ya fiziki şəxs olan işəgötürənin yaratdığı iş yerlərindən kənarda (işlərin görülməsi (xidmətlərin göstərilməsi) üçün münasib olan digər yerdə) yerinə yetirilməsidir.

Nəzərə alınmalıdır ki, Əmək Məcəlləsi əmək funksiyasını məsafədən (distant) iş formasında yerinə yetirən işçilərə də şamil edilir (Əmək Məcəlləsi, maddə 4, hissə 2).

Həmçinin Əmək Məcəlləsinin 55-ci maddəsinin 2-ci hissəsinin tələbinə görə, əmək funksiyalarının məsafədən (distant) iş formasında yerinə yetirilməsi ilə əlaqədar əmək şəraitinin əlavə şərtləri tərəflərin qarşılıqlı razılığına əsasən əmək müqaviləsi ilə müəyyən edilir.

Beləliklə, əmək funksiyasını məsafədən (distant) iş formasında yerinə yetirmək niyyətində olan işçi bu barədə işəgötürənlə razılığa gəlməli, daha sonra Əmək Məcəlləsinin müəyyən etdiyi qaydalara uyğun olaraq qarşılıqlı razılıq əsasında şərtlər müəyyənləşməli və həmin şərtlər əsasında əmək müqaviləsi bağlanmalıdır.

*- Satınalma müqaviləsi üzrə tələblərin icrası zamanı qarşı tərəf öhdəliklərini yerinə yetirmirsə, hansı hüquqi tədbirlər görülə bilər?*

***Kənan MUSTAFAZADƏ,***
***Şirvan şəhəri***

✓ - Sualınıza cavab olaraq bildirmək istəyirik ki, satınalma müqaviləsi üzrə münasibətlər Mülki Məcəlləyə, dövlət satınalmaları müqaviləsinə dair münasibətlər isə Azərbaycan Respublikasının dövlət satınalmaları haqqında qanunvericiliyinə uyğun tənzimlənir.

Satınalma müqaviləsi üzrə tələblərin icrası zamanı qarşı tərəf öhdəliklərini yerinə yetirmirsə, məhkəməyə müraciət oluna bilər, lakin məhkəməyə müraciət etməzdən əvvəl qarşı tərəfə rəsmi qaydada yazılı xəbərdarlıq göndərilməlidir. Xəbərdarlıqda müqavilənin müvafiq bəndinə istinad edərək öhdəliyin ağlabatan müddətdə icra olunması tələb edilməlidir. Əgər müqavilədə gecikdirilən hər gün üçün cərimə nəzərdə tutulubsa, həmin məbləğin hesablanması və ödənilməsi tələbi irəli sürülə bilər.

Yazılı xəbərdarlıq müsbət nəticə verməzsə, o zaman müqavilənin icra olunmaması nəticəsində sizə dəyən real zərərin və əldən çıxmış mənfəətin ödənilməsini məhkəmə qaydasında tələb edə bilərsiniz.

Əgər öhdəliklər əhəmiyyətli dərəcədə pozularsa və müqavilədə nəzərdə tutularsa, müqaviləni birtərəfli qaydada ləğv etmək mümkündür. Bunun üçün qarşı tərəfə müqaviləyə xitam verilməsi barədə bildiriş göndərilir. Müqavilə ləğv edildikdən sonra qarşı tərəfdən ödənilmiş avansın qaytarılması və dəymiş ziyanın ödənilməsi tələb oluna bilər.

**Sualları cavablandırdı:**
**Fərhad NƏCƏFOV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**“AZƏRBAYCAN”** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərpoçt” MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *“Qaya” firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Həyəcan təbili çalmağın zamanıdır

## Uşaq və yeniyetmələri virtual şəbəkələrin neqativ təsirindən xilas etməliyik

**Sosial şəbəkələrin uşaq və yeniyetmələrin psixologiyasına təsiri dövrün ən mürəkkəb sosial probleminə çevrilib. Son günlər təhsil müəssisələrində yaşanan sarsıdıcı hadisələr də göstərir ki, yeniyetmələrin davranışı artıq fərdi nizam-intizam məsələsi olmaqdan çoxdan çıxıb. Cəmiyyətimizin gələcəyi hesab olunan uşaq və yeniyetmələrin əlində qələm-kitab əvəzinə, silah rəqəmsal dünyanın neqativlərindən və onun səbəb olduğu böyük faciələrdən xəbər verir.**



Bu günlərdə Binəqədi rayonundakı "İdrak" liseyində şagirdin öz müəlliminə silahla xətər yetirməsi, Hacıqabulda 12 yaşlı yeniyetmənin digər azyaşlını bıçaqlaması qanun pozuntuları olmaqla yanaşı, həm də sosial xəbərdarlıqdır. Yaşanan hadisələr sosial şəbəkələrin uşaq psixologiyasını necə sürətlə deformasiyaya uğratdığını göstərən ciddi siqnaldır. Hadisələrin məkanı və üsulu fərqli olsa da, ana xətt azyaşlılar arasında aqressiya və qəddarlığın yayılma təhlükəsidir.

Virtual aləmdəki kriminal "qəhrəmanlıq" obrazlarının real həyata daşınması, məktəb mühitində şiddətin baş verməsi tendensiyanın, sadəcə, başlanğıcıdır. Sərhədlərini aşan süni intellekt və nəzarətsiz sosial media alqoritmləri uşaqların reallıq hissini və bəşəri duyğularını tamamilə itirməsinə səbəb olur. Azərbaycan üçün xarakterik olmayan bu cür hadisələr nəzarətdən çıxmış sosial şəbəkə bataqlığının milli ailə institutumuza, dəyərlərimizə vurduğu ən ağır zərbədir.

Müasir süni intellekt alətləri ilə yaradılan və sosial platformatlarda sürətlə tirajlanan videolar uşaqları zorakılıq və cinayət elementləri ilə qarşı-qarşıya qoyur. Zamanla qanunsuz olan hərəkət "normal hal" kimi qəbul edilir və qəhrəmanlıq anlayışı fiziki güclə, silahla eyniləşdirilir. "Feysbuk" və "Yutub" kimi nəhəng şəbəkələr uşaqları qorumaq üçün yaş məhdudiyyəti və valideyn nəzarəti funksiyaları tətbiq etsələr də, nəticə dəyişmir. Valideynin qadağasına rəğmən, uşaqlar başqa telefonlar, uydurma profillər vasitəsilə zərərli kontentlərə rahatlıqla daxil ola bilirlər.

Heç bir ciddi filtrasiya olmadan yayılan qeyri-etik görüntülər, cinayətə təşviq edən çağırışlar, qumar oyunları xarakteri tam formalaşmamış uşaqların mənəviyyatını birbaşa hədəf alır. Bu baxımdan, gələcəyimiz üçün həyəcan təbilinin çalınmasının vaxtıdır. Beynəlxalq təcrübəni nəzərə alaraq, ölkəmizdə də kompleks tədbirlərin görülməsi zəruridir. Sosial şəbəkə platformalarının Azərbaycan nümayəndəlikləri qarşısında yaş filtrləri və zərərli məzmunun bloklanması ilə bağlı sərt tələblər qoyulmalıdır. Məktəblərdə təkcə informatika deyil, "rəqəmsal təhlükəsizlik və etika" dərsləri keçirilməli, dərslər zamanı telefon istifadəsi tam qadağan edilməlidir. Şagirdlərə virtual aləmlə real aləmin sərhədləri izah olunmalıdır. Ən əsası isə məktəb psixoloqlarının fəaliyyəti formal xarakter almamalıdır.

Daha yaxşı olar ki, uşaqlarımızın virtual aləmdə tapdığı "adrenalin" idman, incəsənət və ya digər sosial dərnəklərlə əvəz olunsun. Valideynlər "uşaq evdədir, gözümün qabağındadır" düşüncəsindən uzaq durmalıdırlar. Çünki uşaqların əlindəki smartfon onlara bütün dünyanı maneəsiz "gəzdirir", qaranlıq məkanlara "aparır". Uşaqlarımızı silahlardan qoruduğumuz kimi nəzarətsiz informasiya axınından da qorumalıyıq. Dövlət, məktəb və ailə üçbucağı şəklində vahid qalxan yaratmasaq, texnologiya uşaqlarımızı yoldan çıxartmağa davam edəcək. Vaxt itirmədən hərəkətə keçmək hər birimizin həm vətəndaşlıq, həm də vicdan borcudur.

Dünyanın müxtəlif ölkələri artıq bu məsələ ilə bağlı sərt qanunlar qəbul edirlər. Avstraliya 16 yaşdan aşağı uşaqların sosial şəbəkələrdən istifadəsini tamamilə qadağan edən qanun layihəsi üzərində işləyir. Fransa "rəqəmsal yetkinlik" yaşını 15 olaraq müəyyənləşdirib. Çin "gənclik rejimi" tətbiq edərək uşaqlar üçün oyun və sosial media vaxtını gündəlik 40 dəqiqə ilə məhdudlaşdırıb, gecə saatlarında isə giriş bağlanır. ABŞ-də 14 yaşdan aşağı uşaqların sosial media hesabı açmasını qadağan edən qanun qəbul edilib. Amma problemin həlli yalnız qadağalarla deyil, sistemli yanaşma ilə mümkündür.

Sosial şəbəkələr müasir dövrün təhlükəli "küçələridir". Uşaqlarımızı gecə vaxtı təkbaşına təhlükəli küçəyə buraxmadığımız kimi, onları öz əlimizlə internetin ölümcül quyularına da atmamalıyıq.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Bu gün yağmursuz hava gözlənilir



**Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın-7də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır.**

Lakin gecə bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Cənub-qərb küləyi gündüz arabir güclənəcək. Havanın temperaturu gecə 4-6, gündüz 8-11 dərəcə isti olacaq.

Atmosfer təzyiqi 764 millimetr civə sütunundan 754 millimetr civə sütununa enəcək. Nisbi rütubət 70-80 faiz təşkil edəcək.


**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti**
**539-49-20**


## ALLAH RƏHMƏT ELƏSİN!

Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı Nizami Rayon İcra Hakimiyyətinin başçısı Coşqun Cəbrayılova əzizi

**NƏZƏR ŞAHBAZOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, “Azərbaycan” nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan Nəşriyyatı” MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj 3238
Sifariş 174

Qiyməti 60 qəpik